RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



100

№ 284 (9451) 27 DEKABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan MDB məkanında əməkdaşlığa xüsusi önəm verir

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfəri



Dekabrın 26-da Prezident İlham Əliyev Rusiyanın Sankt-Peterburq şəhərinə səfər edib.

Prezident İlham Əliyev Sankt-Peterburq şəhərinin "Pulkovo-1" hava limanında qarşılanıb.

Səfər çərçivəsində İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşüb, "Yekaterina sarayı", "Böyük Peterhof Sarayı" ilə tanış olub.

Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib. Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi naharında iştirak edib.

2

## YAP İlham Əliyevin müdafiəsi üçün toplanan 50 min seçici imzasını MSK-ya təqdim edib

**Yeni Azərbaycan Partiyası 50 min seçici imzasının olduğu imza vərəqələrini Mərkəzi Seçki Komissiyasına təqdim edib.**

Bu barədə Yeni Azərbaycan Partiyasının rəsmi sosial şəbəkə hesablarında məlumat verilib.

Məlumatı təqdim edirik:

Yeni Azərbaycan Partiyası 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikası Prezidentliyinə irəli sürdüyü namizəd İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün topladığı 50 min seçici imzasının olduğu imza vərəqələrini Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən tələb olunan digər sənədlərlə birlikdə bu gün, dekabrın 26-da Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir. Xeyirli-uğurlu olsun!

Bu prosesin qısa müddət ərzində və mütəşəkkil surətdə həyata keçirilməsində zəhməti olan bütün siyasi həmfikirlərimizə təşəkkürümüzü bildirir və fürsətdən istifadə edərək partiya üzvlərimizi, bütün Azərbaycan xalqını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edir, hər birinizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, doğma Azərbaycanımıza isə sülh və tərəqqi, Azərbaycan Respublikası Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da yeni-yeni qələbə və Zəfərlər arzu edirik.

Yaşasın Azərbaycan! Qədirbilən Azərbaycan xalqına eşq olsun!

*Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı*

## İlham Əliyev elə bir Ağdam qurur ki...

### Qarabağın ən böyük şəhərinin əvvəlki şöhrəti özünə qaytarılır



Şanlı Zəfərimizdən sonra İlham Əliyevin diplomatik qətiyyəti sayəsində bir güllə atılmadan düşməndən alınan Ağdamı əcnəbi jurnalistlər "Qafqazın Xirosiması" adlandırmışdılar.

Müzəffər Sərkərdə kimi İlham Əliyev Ağdam azad olunduqdan 3 gün sonra 2020-ci il noyabrın 23-də rayona ilk səfəri zamanı onun ürəkdağlayan mənzərəsini bütün bəşəriyyətə təqdim etdi və dünya erməni barbarlığının faşist xislətli simasının bir daha şahidi oldu. Daşdaş üstündə qalmayan Ağdamı bu vəziyyətdə görənlər heyrətə gəlirdilər.

2021-ci il may ayının 28-də, Müstəqillik günündə Ağdama ikinci səfərində rayon ictimaiyyəti ilə görüşdə İlham Əliyev dedi ki, əgər ermənilər ən gözəl şəhərimizi 30 ilə viranəyə çevirmişdilərsə, Azərbaycan cəmi bir neçə ilə burada cənnətməkan yaradacaq: "Elə bir Ağdam quracağıq ki, bu, bütün dünya ölkələrinə örnək olsun".

16

## Azərbaycan Fransa səfirliyinin iki əməkdaşını ölkədən qovdu

Bu günlərdə Qərb mediasında yayılan informasiya Fransanın iç üzünü bir daha açıb ortalığa qoydu. Aydın oldu ki, Fransanın iç üzü ilə astarının heç bir fərqi yoxdur. Astarı üzündən, üzü də astarından betərdi. Çünki hər iki üzündə eybəcərlik, çirkin niyyət, məkrlik və başqa xoşagəlməz cizgilər var. Öz məqsədini nə qədər gizlin saxlasa da, axır ki, üzə çıxdı. Belə ki, Ukrayna, Moldova, Gürcüstan, Azərbaycan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlara cəlb edilmiş Fransa xüsusi xidmət orqanlarının geniş agentura şəbəkəsi Azərbaycanda ifşa olunub. Hər şey Fransa səfirlikdaxili rezidenturasının Azərbaycan ərazisində əslində Fransanın "tərəfdaşı" kimi bilinən ölkələrin nümayəndələrinə qarşı çox arxayın kəşfiyyat əməllərinə görə diqqəti cəlb etməsi ilə başlayıb. Geniş əlaqələrindən istifadə edən rezidentura region ölkələrində fəal hərəkət edərək təsir dairəsini genişləndirməyə çalışıb.

Məlum olur ki, geniş agentura əlaqələrindən istifadə edən fransız rezidenturası Cənubi Qafqaz məkanında fəal hərəkət etməklə yeni məqsədlərini reallaşdırmaq və ölkəsinin təsir dairəsini genişləndirmək yolunu tutubmuş. Xüsusi mənbələrdən əldə edilmiş informasiyaya əsasən, aparılmış araşdırma bir-biri ilə əlaqəli məxfi şəbəkəni aşkarlamağa imkan verən olduqca maraqlı faktları üzə çıxarıb.

18

## Azərbaycanın mövqeyi daha da möhkəmlənib

Deputatlar 2023-cü il dekabrın 25-də ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini yüksək qiymətləndiriblər. Bu baxımdan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un gələn il Azərbaycanda keçirilməsi qərarının beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə göstərilən böyük etimadın bariz nümunəsi olduğunu bildiriblər. Deputatlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin daha da möhkəmləndirildiyini vurğulayıblar, dövlət başçısının uğurlu xarici siyasəti sayəsində ölkəmizin beynəlxalq nüfuzunun durmadan artdığını qeyd ediblər.

Çıxışlarda dünya miqyasında mötəbər beynəlxalq tədbirlərdən biri olan COP29-un ölkəmizdə keçirilməsi kontekstində növbəti ildə ətraf mühitin qorunması istiqamətində tədbirlərin intensivləşməsinin, o cümlədən bununla bağlı qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyindən danışılıb. İclasda "yaşıl enerji" zonasının genişləndirilməsinin əhəmiyyətindən söhbət açılıb. Azərbaycanın öz "yaşıl enerji" potensialından istifadə etməklə regionun enerji təhlükəsizliyinə daha çox töhfə verəcəyi bildirilib. Ölkəmizin iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizədə rolundan bəhs edilib.

11

## COVID-19-un yeni ştamı sürətlə yayılır

Mütəxəssislər növbəti həftələrdə "JN.1"in dünyada COVID-19-un dominant variantına çevriləcəyini proqnozlaşdırırlar. Virus sürətlə yayılsa da, onun xəstəliyin daha ağır formalarına səbəb olmasına dair hələlik heç bir əsas yoxdur.

Artıq Danimarka, İspaniya, Belçika, Fransa və Hollandiya da daxil olmaqla bir sıra Avropa ölkəsində, habelə Avstraliya, ABŞ, Asiya və Kanada da xəstəxanaya edilən müraciətlərin sayında artım müşahidə olunur.

Yeni ştam ABŞ-də ilk dəfə sentyabrda aşkarlansa da, son iki həftədə iki dəfə çoxalıb. Ölkənin Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin məlumatına görə, ölkədə COVID-19-a gündəlik yoluxmanın təxminən 44 faizi yeni ştamın payına düşür. "JN.1" xüsusilə ABŞ-nin Nyu Cersi və Nyu York kimi şimal regionlarında daha sürətlə yayılır. Bu ərazilərdə ümumi infeksiya xəstəlikləri içərisində 67 faiz yeni ştama yoluxma qeydə alınıb.Yoluxmanın artmasına səbəb olaraq amerikalıların vaksinasiya aktivliyinin azalması göstərilir.

19

## Fransanın Bakıdakı səfirliyinin iki əməkdaşı "persona-non-grata" elan olunub

**Dekabrın 26-da Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.**

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Fransa səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunduğu Fransa səfirinin diqqətinə çatdırılıb, həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib və XİN-in müvafiq notası Fransa səfirinə təqdim edilib.

## Qərbin Serbiyadakı planları iflasa uğrayır

Ekspertlərin də fikrincə, Serbiyadakı iğtişaşlar Qərbin "rəngli inqilab" ssenarisidir. Bu, Qərbin faktiki olaraq Serbiyaya müdaxiləsidir. Vuçiç hökumətinin xarici siyasətini Qərbin diktəsi ilə qurmaqdan imtina etməsi, Qərb-Rusiya qarşıdurmasında Moskvaya qarşı sanksiyalar siyasətinə dəstək verməməsi, Kosovonun müstəqilliyini tanımaqdan boyun qaçırması baş verən "etirazların" kökündə dayanır.

Məlum olduğu kimi, Qərb tərəfindən Serbiyaya şərt qoyulub ki, Kosovonun müstəqilliyini tanımalı və xarici siyasətdə Avropa Birliyinin bütün təlimatlarına əməl etməlidir. Belqrad isə bundan imtina edib.

Xatırladaq ki, 2000-ci ildə Serbiyada ilk "rəngli inqilab" Prezident Slobodan Miloşeviçi aradan götürmək məqsədi daşıyırdı və indi həmin texnologiyalardan Vuçiçə təzyiq göstərmək üçün istifadə olunur. Serbiya mətbuatı yazır ki, Belqraddakı aksiyaların iştirakçıları arasında ABŞ-nin Mərkəzi Kəşfiyyat İdarəsi ilə sıx əlaqədə olan siyasətçi Srcan Milivojeviç də var idi.

18

## E L A N

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində prezidentliyə qeydə alınan namizədlərə seçkiqabağı təşviqat aparmaq məqsədilə aşağıda göstərilən media subyektlərində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq:

- İctimai Televiziya və Radio Yayımları Şirkəti;
- "Azərbaycan" qəzeti;
- "Xalq qəzeti";
- "Respublika" qəzeti;
- "Bakinski raboçi" qəzeti.

Yuxarıda göstərilən qurumlar, o cümlədən digər televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək dərc etməlidirlər.

*Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası*

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfəri

# Azərbaycan MDB məkanında əməkdaşlığa xüsusi önəm verir

### "Pulkovo-1" hava limanında qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 26-da Sankt-Peterburq şəhərinə işgüzar səfərə gedib. AZƏRTAC xəbər verir ki, Sankt-Peterburq şəhərinin "Pulkovo-1" hava limanında dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov və digər rəsmi şəxslər qarşıladılar.

### Sankt-Peterburqda Azərbaycan Prezidenti İlham Əliyevin Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olub



Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı bir daha məmnunluqla qeyd edildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi. Yüksəksəviyyəli görüşlərin və təmasların əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Dövlət başçıları əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək gələcək təmaslar və əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi apardılar.

### Sankt-Peterburqda "Yekaterina sarayı" ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda "Yekaterina sarayı" ("Екатерининский дворец") ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, XVIII əsr memarlığının şah əsəri sayılan "Yekaterina sarayı"nın inşası 1744-cü ildən 1756-cı illəri əhatə edib. 1918-ci ildə "Yekaterina saray-park ansamblı" muzeyə çevrilib.

İkinci Dünya müharibəsi illərində faşist istilası zamanı bu tarixi abidə dağıdılaraq talan edilib, muzey kolleksiyasının əhəmiyyətli hissəsi itirilib, dağıntılar və talan nəticəsində abidəyə ciddi ziyan dəyib. "Yekaterina sarayı"nın bərpası 1957-ci ildən bəri davam edir.



### Sankt-Peterburqda "Böyük Peterhof Sarayı" ilə tanışlıq olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda "Böyük Peterhof Sarayı" ("Большой петергофский дворец") ilə tanış olublar.

## Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib



Dekabrın 26-da Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib.

### Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi naharında iştirak edib

Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının birgə naharı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

### Səfər başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri dekabrın 26-da başa çatıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident!

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Katibliyi adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Türk Dövlətləri Parlament Assambleyasının qurucu dövlətlərindən olan Azərbaycan Respublikasının Sizin rəhbərliyinizlə türk dövlətlərinin birliyi, həmrəyliyi və əməkdaşlığının daha da möhkəmləndirilməsinə yönəlmiş səyləri türk dünyasında təqdirlə qarşılanır. Qardaş dövlətlərlə möhkəm dostluq, qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlər bu əməkdaşlığın zənginləşməsinə, yüksələn xətt üzrə inkişafına güclü təsir göstərməkdədir.

Əldə edilmiş nailiyyətlərin türk dünyası üçün əhəmiyyəti böyükdür. Əminəm ki, birliyimiz naminə göstərdiyiniz dəstəklə türk dövlətləri arasında əlaqələr daha da şaxələnəcəkdir.

Həmçinin TÜRKPA Katibliyinin səmərəli fəaliyyəti üçün Azərbaycan Respublikası Hökuməti tərəfindən göstərilən daimi diqqətə və yaradılmış şəraitə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Bu xoş fürsətdən istifadə edərək, həmçinin Sizi və ailənizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, ali dövləti fəaliyyətinizdə uğurlarınızın daimi olmasını arzulayıram.

Dərin hörmət və ehtiramla,

***Mehmet Süreyya ER,***
***Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə təbrik edirəm.

Sizə ali dövləti vəzifənizdə bundan sonra da aktiv və səmərəli fəaliyyət, möhkəm cansağlığı, səadət, firavanlıq, dostlarınızın səmimiyyətini və diqqətini, əzizlərinizin və yaxınlarınızın sevgisini arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, Sizə Rusiyanın və Azərbaycanın xüsusi xidmətləri arasında ölkələrimizin təhlükəsizliyinə təhdidlərə qarşı layiqli və etibarlı təminatın yaradılmasına, regionda sülhün və sabitliyin qorunmasına istiqamətlənən kəşfiyyat xətti üzrə qarşılıqlı fəaliyyətə göstərdiyiniz daimi diqqət və dəstəyə görə minnətdarlığımı bildirirəm.

*Hörmətlə,*

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktoru***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizi dünyada görkəmli dövlət xadimi, dahi atanızın siyasətinin müdrik və layiqli davamçısı kimi qəbul edirlər. Siz Azərbaycan xalqı üçün uzun illər Azərbaycan Respublikasının davamlı inkişafını, beynəlxalq arenada onun nüfuzunun möhkəmləndirilməsini təmin etmiş böyük lidersiniz. Ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası əbədi olaraq Sizin adınızla bağlı olacaq. Sizin ölkələrimiz arasında müttəfiqlik münasibətlərinin inkişafına verdiyiniz töhfə yüksək qiymətləndirilir.

Fəxr edirəm ki, uzun illərdir bizi dostluq bağları, qarşılıqlı hörmət və böyüklərimizin vəsiyyətləri birləşdirir.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoş əhvali-ruhiyyə, Zati-alinizə xas olan tükənməz enerji, Azərbaycan xalqının rifahı naminə daha məhsuldar fəaliyyət diləyirəm. Arzu edirəm ki, bütün təşəbbüsləriniz və planlarınız həyata keçsin. Sizin quruculuq fəaliyyətiniz daim sevinclə, əmin-amanlıqla, dostluq münasibətləri və xoş əhvali-ruhiyyə ilə müşayiət olunur.

Əminəm ki, Rusiya ilə qardaş Azərbaycanı birləşdirən sıx qarşılıqlı faydalı iqtisadi və humanitar əlaqələr bundan sonra da davam etdiriləcək.

*Dərin hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyasının senatoru***

❖ ❖ ❖

Möhtərəm cənab İlham Əliyev!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu il Sizin Azərbaycan Respublikasına rəhbərliyinizin 20 ili tamam oldu. Siz atanızın, əfsanəvi dövlət xadimi Heydər Əliyevin siyasətini davam etdirirsiniz.

Ölkəniz Sizin rəhbərliyinizlə siyasət, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə böyük uğurlar qazanıb. Mən Bakıda tez-tez oluram və Sizin hakimiyyətiniz dövründə Azərbaycanda baş verən böyük dəyişikliklərin şahidiyəm.

Sizə möhkəm cansağlığı arzulayıram. Bizdə - İsraildə deyildiyi kimi, 120 il yaşayasınız!

Sizə gözəl ölkənizin rifahı naminə yeni-yeni uğurlar diləyirəm.

Azərbaycan Respublikasına sülh və tərəqqi arzulayıram.

*Səmimiyyətlə, Sizin,*

***Aviqdor LIBERMAN,***
***İsrail Knessetinin deputatı,***
***"İsrail Bizim Evimizdir" partiyasının sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Xahiş edirəm, doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Qoy ruh yüksəkliyi, enerji və nikbinlik Sizə Azərbaycan Respublikasının rifahı naminə ən mürəkkəb dövləti vəzifələri yerinə yetirməyə kömək etsin, yüksək peşəkarlıq və insani keyfiyyətləriniz isə gələcək uğurların və ölkənin inkişafının rəhni olsun!

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uzun illər ərzində əmin-amanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Viktor PİNSKİ,***
***Ümumhəmkarlar İttifaqları Konfederasiyasının Baş katibi***



❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkətinin kollektivi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

İcazə verin, Sizə möhkəm cansağlığı, əmin-amanlıq, hər zaman nikbin əhvali-ruhiyyə, tükənməz quruculuq enerjisi, uğurlar və gələcəkdə də məhsuldar fəaliyyət arzulayım. Sizə və yaxınlarınıza parlaq gələcək, firavanlıq və xoş günlər diləyirəm.

*Dərin hörmətlə,*

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi, cansağlığı, xoşbəxtlik arzularımı çatdırmaqdan böyük şərəf duyuram.

Siz Azərbaycanı nümunəvi tolerantlıq və insan hüquqlarının müdafiəsi cəmiyyətinə çevirmisiniz. Çoxmillətli bir şirkətin rəhbəri və təcrübəli beynəlxalq ekspert kimi mən Azərbaycanda müxtəlif dinlərə və etnik icmalara misilsiz diqqət və hörmətin olduğunu təsdiq edə bilərəm. Yəhudi əsilli amerikalı kimi mən Azərbaycanda yəhudi icmasına göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirəm.

*Hörmətlə,*

***Con PURİJANSKİ,***
***ABŞ-də fəaliyyət göstərən "Joblio" şirkətinin təsisçisi və Baş icraçı direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə "CLAAS Global Sales" Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

Qoy Sizin səyləriniz Azərbaycan Respublikasına bundan sonra da rifah, sabitlik və sülh gətirsin! Azərbaycan Qafqazda "CLAAS" şirkəti üçün strateji əhəmiyyət kəsb edir. Biz "CLAAS" qrupu olaraq həmişə öz fəaliyyətimizdə Azərbaycan fermerlərinin şirkətimizin kənd təsərrüfatı texnikası və xidmətlərindən yararlanmalarına və məmnun qalmalarına çalışırıq.

*Dərin hörmətlə,*

***Kristian RADONS,***
***Almaniyanın "CLAAS Global Sales" Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyətinin üzvü***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzrə Rusiya Milli Komitəsi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin böyük nüfuzunuz və Azərbaycanın Prezidenti vəzifəsində nail olduğunuz ciddi uğurlar yüksək peşəkarlığınızdan, səriştəli, qətiyyətli, işgüzar keyfiyyətlərə malik, fədakar, ən mühüm dövləti məsələləri həll edə bilən şəxsiyyət olduğunuzdan xəbər verir.

Cənab Prezident, bu şad gününüzdə Sizə gələcək fəaliyyətinizdə uğurlar, güc-qüvvət və əmin-amanlıq arzu edirəm. Qoy hər zaman yanınızda istənilən vəziyyətdə dəstəyinə arxalana biləcəyiniz insanlar olsun! Siz ikitərəfli konstruktiv dialoqun inkişafına fəal şəkildə kömək edirsiniz, ölkələrimiz və xalqlarımız arasında ənənəvi dostluq əlaqələrinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verirsiniz.

Sizə və ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***Viktor ARXİPOV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzrə Rusiya Milli Komitəsinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin vətənpərvər şəxsiyyət kimi fəal həyat mövqeyiniz, dövlət əhəmiyyətli vəzifələri yüksək səviyyədə icra etməyiniz Vətənə ləyaqətli xidmətin örnəyidir. Siz həmvətənləriniz arasında və xaricdə təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin əsl Lideri kimi böyük nüfuza maliksiniz.

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə mürəkkəb geosiyasi şəraitdə genişmiqyaslı siyasi, iqtisadi islahatlar və dəyişikliklər, əhalinin sosial rifahının artırılması yolunda inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir.

Siz Azərbaycan Respublikasında Heydər Əlirza oğlu Əliyevin islahatçı siyasətinin layiqli davamçısısınız. Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan ilə Rusiya arasında iqtisadi, mədəni, siyasi əlaqələr gündən-günə genişlənir və möhkəmlənir. Bir soydaş kimi, tarixi Vətənimlə fəxr edir və onu əziz tuturam.

Qoy enerji, gümrahlıq və ruh yüksəkliyi uzun illər Sizinlə olsun! Sizə cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram.

Sizə və yaxınlarınıza, bütün Azərbaycan xalqına sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***Həsən MİRZƏYEV,***
***Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının prezidenti, Beynəlxalq Rusiyalı Həmvətənlər Şurasının sədri, Rusiya Vəkillər Gildiyasının prezidenti, Rusiya Federasiyasının Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor, Rusiyanın fəxri ədliyyə işçisi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Finlandiya Azərbaycanlıları Assosiasiyası və Finlandiya Azərbaycanlı Qadınlar Cəmiyyəti adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımızı çatdırırıq.

Ötən 20 il ərzində Ümummilli Lider Heydər Əliyevin ideyalarını uğurla davam etdirərək yürütdüyünüz müdrik və məqsədyönlü siyasət nəticəsində Azərbaycan bölgənin lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevrilib.

Sizin Ali Baş Komandanlığınızla şanlı Ordumuzun 2020-ci ildə 44 günlük Vətən müharibəsində, 2023-cü ildə isə 24 saat ərzində həyata keçirilən antiterror tədbirləri nəticəsində qazandığı möhtəşəm qələbələrlə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Siz son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı işğaldan azad edən müzəffər sərkərdə oldunuz.

Fürsətdən istifadə edərək Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2024-cü il münasibətilə də təbrik edirik. 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Sizə uğurlar diləyirik. Biz Sizin inamlı qələbənizə inanırıq.

*Dərin hörmətlə,*

***Vasif MURADLI,***
***Finlandiya Azərbaycanlıları Assosiasiyasının sədri,***

***Arzu OQTAY,***
***Finlandiya Azərbaycanlı Qadınlar Cəmiyyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirik.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük nailiyyətlər qazanıb. Biz Sizin uzaqgörən siyasətinizin respublikamızı daim parlaq qələbələrə doğru aparacağına inanırıq. Hər zaman Sizin yanınızdayıq. Qarşıdan gələn növbədənkənar prezident seçkilərində Sizi dəstəkləyəcəyik.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Nadir HOLLENBRAND,***
***İsveçdə fəaliyyət göstərən "Azərbaycan Naminə" Cəmiyyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, işlərinizdə böyük uğurlar arzulayıram.

Ali Baş Komandan olaraq Sizin rəhbərliyinizlə şanlı Azərbaycan Ordusu 30 ildən sonra nəhayət, əzəli torpaqlarını düşmən tapdağından xilas etdi. Sizin siyasi-strateji qətiyyətiniz sayəsində Qarabağ münaqişəsinə birdəfəlik son qoyuldu. Azərbaycan xalqının ölkə hüdudlarından kənarda yaşayan nümayəndəsi və diaspor təşkilatının rəhbəri olaraq Sizə dərin minnətdarlığımı bildirirəm.

Vətən müharibəsindən sonra Azərbaycanın Qarabağ bölgəsində Sizin rəhbərliyinizlə böyük bərpa və quruculuq işləri həyata keçirilir. Qısa müddət ərzində reallaşdırılan bərpa işləri, sözün əsl mənasında, heyrət doğurur. Həmçinin otuz il əvvəl zorla yerindən-yurdundan didərgin salınmış keçmiş məcburi köçkünlərin bu gün öz doğma yurdlarına qayıtmaları çox sevindiricidir.

Siz Azərbaycanın yeni tarixini yazdınız. Sizin rəhbərliyinizlə bu gün Azərbaycan beynəlxalq aləmdə sabit, öz üzərinə düşən öhdəliklərini layiqincə yerinə yetirən ölkə kimi qəbul olunur. Praqmatik və rasional düşüncəli Lider olaraq davamlı siyasi sabitlik, təhlükəsizlik, sülh üçün gördüyünüz işləri səmimi-qəlbdən dəstəkləyirik. Əminik ki, həyata keçirdiyiniz siyasət ölkəmizə daha böyük uğurlar və qələbələr gətirəcəkdir.

Möhtərəm cənab Prezident, Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, ailə səadəti və Azərbaycanı daha yüksək zirvələrə aparan yolda böyük uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlhan AŞKIN,***
***Niderlanddakı Azərbaycan-Türk Mədəniyyət Dərnəyinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan!

Doğum gününüz münasibətilə Monreal Kanada-Azərbaycan Cəmiyyəti adından və şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan şərəf duyuram.

Bu gün Azərbaycan güclü, qalib dövlətdir. Sizin rəhbərliyinizlə Azərbaycanın həm ölkə daxilində, həm də beynəlxalq arenada qazandığı uğurlar, siyasi müdrikliyiniz, müstəsna səriştəniz dünya siyasi liderləri tərəfindən də yüksək qiymətləndirilir. Sizin yürütdüyünüz uzaqgörən və qətiyyətli siyasət sayəsində Azərbaycan tarixinin şanlı səhifələri yazıldı. Ali Baş Komandanı olduğunuz müzəffər Azərbaycan Ordusunun mərd, qəhrəman əsgər və zabitləri torpaqlarımızı işğaldan azad edib, haqq-ədalətin zəfər çaldığı tarixi Qələbəni qazandılar. Sizin müdrik rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda atdığınız uğurlu addımlar, azad edilmiş ərazilərin qısa müddətdə bərpası, yüksək səviyyədə aparılan tikinti və abadlıq işləri göz oxşayır.

Vətəndən çox uzaqda yaşasaq da, ürəyimiz daim Vətən sevgisi ilə döyünür. Sizin işğaldan azad edilmiş şəhər və rayonlarda şanlı Azərbaycan bayrağını ucaldaraq söylədiyiniz nitqləri böyük həyəcan, qürur və fəxrlə izləyirik. Xankəndidə keçirilmiş hərbi paradı izləyərkən yaşadığımız hissləri dilə gətirmək çətindir. Bu tarixi paradı sevinc göz yaşları ilə, böyük fəxr və qürurla izləyib, Sizi və Ordumuzu bir daha ayaqüstə alqışladıq. Uzun illər idi dünya azərbaycanlılarının bütün bayramlarda dilə gətirdiyi tək bir arzu, dilək bu idi ki, "o gün olsun torpaqlarımız işğaldan azad olunsun və Azərbaycan bayrağı Şuşada, Xankəndidə və digər tarixi ərazilərimizdə dalğalansın". Müzəffər Ali Baş Komandan, Sizin və şücaətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində xalq olaraq biz bu arzuya çatdıq. İndi artıq qalib xalq olaraq qürurla, başıuca yaşayırıq.

Cənab Prezident, Sizi bir daha təbrik edir, dərin ehtiram və sevgimizi ifadə edərək Sizə möhkəm cansağlığı, hər zaman xoş əhvali-ruhiyyə, ölkənin və xalqın rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq. Həmçinin Sizi və gözəl ailənizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımızı çatdırırıq.

*Hörmətlə,*

***Rəna MÜSLÜMOVA,***
***Monreal Kanada-Azərbaycan Cəmiyyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycan-Ukrayna İş Adamları və Sənayeçiləri Birliyinin kollektivi adından Sizi doğum gününüz münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, bütün niyyət və istəklərinizin uğurla həyata keçməsini, ölkəmizə isə sülh, əmin-amanlıq və firavanlıq diləyirəm.

Cənab Prezident, Sizin uğurlu siyasətiniz sayəsində torpaqlarımız işğaldan azad olunmuşdur. Vətən müharibəsində qazanılan şanlı Qələbə nəticəsində əldə olunmuş nailiyyətlər 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri ilə yekunlaşmış, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində öz suverenliyini tam bərpa etmişdir.

Azərbaycan Respublikasının öz inkişafında yeni dövrə qədəm qoyduğu bir dönəmdə biz Sizin regionda davamlı sülhə nail olunması istiqamətində göstərdiyiniz ardıcıl və yorulmaz səyləri alqışlayırıq. Azərbaycanın çoxtərəfli əməkdaşlıq çərçivəsində mühüm regional təşəbbüslər və layihələr həyata keçirməklə bölgədə sabitliyə, təhlükəsizliyə və inkişafa verdiyi töhfə həqiqətən təqdirəlayiqdir. Xüsusilə Ukrayna üçün çətin bir zamanda bu ölkənin xalqına göstərdiyiniz humanitar yardıma görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Hörmətli cənab Prezident, Sizə fəaliyyətinizdə daha böyük uğurlar arzulayır, həmçinin inklüziv regional təşəbbüslər və qlobal əhəmiyyətli layihələri həyata keçirməklə bölgənin potensialının tam şəkildə ortaya çıxarılması və istifadə edilməsi üçün göstərilən səylərə töhfə verməyə hazır olduğumuzu bildiririk.

*Dərin hörmət və ehtiramla,*

***Əli ƏLİYEV,***
***Kiyevdə fəaliyyət göstərən Azərbaycan-Ukrayna İş Adamları və Sənayeçiləri Birliyinin sədri***

# Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri 34 173 000,0 min manat, xərcləri 36 763 000,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 33 397 645,0 min manat, yerli gəlirləri 775 355,0 min manat, mərkəzləşdirilmiş xərcləri 35 978 197,0 min manat, yerli xərcləri 784 803,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 895 000 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 5675 600 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 47 400 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 336 000 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 7 591 000 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 4 215 000 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 333 300 000,0 |
| 2.7. | Aksizlər | 1 531 000 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 173 000 000,0 |
| 2.8. | Yol vergisi | 127 400 000,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 37 000 000,0 |
| 2.9. | Mədən vergisi | 158 300 000,0 |
| 2.10. | Gömrük rüsumları | 1 475 000 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 209 000 000,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 1 934 000,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 558 220 000,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 12 781 000 000,0 |
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 28 000 000,0 |
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 11 000 000,0 |
| 2.17. | Dövlət rüsumu | 354 000 000,0 |
| 2.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 21 000 000,0 |
| 2.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 831 000 000,0 |
| 2.20. | Sair daxilolmalar | 207 846 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri və fondların hesablarında ilin sonuna qalan istifadə olunmamış vəsait hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 523 940 000,0 |
| 3.1.1. | yol vergisi | 127 400 000,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 6 700 000,0 |
| 3.1.3. | idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 60 000 000,0 |
| 3.1.4. | idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 96 400 000,0 |
| 3.1.5. | Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu | 8 000 000,0 |
| 3.1.6. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 31 500 000,0 |
| 3.1.7. | sair daxilolmalar | 11 340 000,0 |
| 3.1.8. | 2024-cü il yanvarın 1-nə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun vəsaitinin qalığı | 182 600 000,0 |

**Maddə 4.** Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən (SVOP əməliyyatları istisna olmaqla) dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

**Maddə 5.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2024-cü il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarına aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar,sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanınınmüəyyən etdiyi məqsədli büdcə fondlarının digər gəlirləri.

**Maddə 6.** Bu Qanunun 9-cu maddəsi ilə 2024-cü il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 7.** Azərbaycan Respublikasının 2024-cüil dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 7.1. | Ümumi dövlət xidmətləri | 4 822 234 382,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 625 804533,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 445 500 000,0 |
| 7.1.3. | xarici yardımlar | 80000 000,0 |
| 7.1.4. | elm | 236 076 085,0 |
| 7.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 110 935344,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 351310000,0 |
| 7.1.6.1. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya(transfertin yuxarı həddi) | 343260000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 6500 000,0 |
| 7.1.6.3. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 550 000,0 |
| 7.1.7. | dövlət borcu | 1 972608420,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 6 421047420,0 |
| 7.2.1. | müdafiə qüvvələri | 2 465 552086,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 413 410402,0 |
| 7.2.3. | sərhəd xidməti | 487 698516,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 5 132430,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 3049253986,0 |
| 7.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 3 000 000 000,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 2 956 658891,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 145 974083,0 |
| 7.3.2. | hüquq mühafizə | 2 206 248949,0 |
| 7.3.3. | prokurorluq | 129 953915,0 |
| 7.3.4. | məhkəmə qərarlarının icrası | 10 000 000,0 |
| 7.3.5. | hüquqi yardım | 5 562128,0 |
| 7.3.6. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 458 919816,0 |
| 7.4. | Təhsil | 4 549 916090,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 453 018349,0 |
| 7.4.2. | ümumi təhsil | 2 371 983758,0 |
| 7.4.3. | peşə təhsili | 77135017,0 |
| 7.4.4. | orta ixtisas təhsili | 101 114 397,0 |
| 7.4.5. | ali təhsil | 134 806 154,0 |
| 7.4.6. | əlavə təhsil | 20 727009,0 |
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 7 586356,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 1 383 545 050,0 |
| 7.5. | Səhiyyə | 1 871 294029,0 |
| 7.5.1. | poliklinikalar və ambulatoriyalar | 2 165901,0 |
| 7.5.2. | xəstəxanalar | 231 490056,0 |
| 7.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 9 483230,0 |
| 7.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 628 154842,0 |
| 7.5.4.1. | icbari tibbi sığorta fonduna ayrılan vəsait | 1 375 987 690,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 4 542 232496,0 |
| 7.6.1. | sosial müdafiə | 521 285835,0 |
| 7.6.2. | sosial təminat | 6 269878,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 50 000,0 |
| 7.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 4 014 626783,0 |
| 7.6.4.1. | Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 392000000,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 574 755888,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 232 942212,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 67 589813,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 71 013450,0 |
| 7.7.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 22 073 699,0 |
| 7.7.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 181 136714,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 367 083 119,0 |
| 7.8.1. | mənzil təsərrüfatı | 69 078201,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 183 593 917,0 |
| 7.8.3. | su təsərrüfatı | 3 407499,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 111 003502,0 |
| 7.9. | Kənd təsərrüfatı | 1 102 593 587,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 546 216731,0 |
| 7.9.2. | baytarlıq | 48 458232,0 |
| 7.9.3. | meliorasiya | 499 833 624,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 8085 000,0 |
| 7.10. | Ətraf mühitin mühafizəsi | 376 872 901,0 |
| 7.10.1. | bioloji zənginliyin qorunması | 10185927,0 |
| 7.10.2. | torpaq və yerquruluşu | 18 600 000,0 |
| 7.10.3. | hidrometeorologiya tədbirləri | 11 058407,0 |
| 7.10.4. | meşə təsərrüfatı | 20 028759,0 |
| 7.10.5. | balıqçılıq və ovçuluq | 1 566159,0 |
| 7.10.6. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 315 046 649,0 |
| 7.10.7. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 387000,0 |
| 7.11. | İqtisadi fəaliyyət | 7 787 986996,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 528 123383,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 54 395210,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 6 309 440300,0 |
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2482900 000,0 |
| 7.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 3 825 000 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 9 095 000,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 6 155 000,0 |
| 7.11.6. | iqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 144 000,0 |
| 7.11.7. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 880 634103,0 |
| 7.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 390 324 201,0 |
| 7.12.1. | ehtiyat fondları | 410 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 300 000 000,0 |
| 7.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 110 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 523 940 000,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 523 940 000,0 |
| 7.12.2.1.1. | işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası | 175 000 000,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 452 384 201,0 |
| 7.12.4.1. | dövlət ehtiyatlarının yaradılması | 45 000 000,0 |
| 7.12.4.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000,0 |
| 7.12.4.3. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 14366639,0 |
| 7.12.4.4. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 373 017 562,0 |

**Maddə 8.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 13 865 000 000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 136600 000,0 manat, yerli xərclər 784 803 000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 12 953 045 000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 9 448 000,0 manat məbləğində təsdiq edilsin.

(manatla)

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər | | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləş-dirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | | cəmi | o cümlədən: müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | | | |
| | **Şəhərlər** | | | | | |
| 1. | Bakı | 12596770000 | 113967000 | 349 195 000 | 12 133 608 000 | 0 |
| 2. | Gəncə | 100090000 | 1808000 | 40076000 | 58206000 | 0 |
| 3. | Lənkəran | 34720000 | 2560000 | 9500000 | 22660000 | 0 |
| 4. | Mingəçevir | 34600000 | 65000 | 14816000 | 19719000 | 0 |
| 5. | Naftalan | 9600000 | 2000 | 3138000 | 6460000 | 0 |
| 6. | Sumqayıt | 188890000 | 2455000 | 31535000 | 154900000 | 0 |
| 7. | Şəki | 35100000 | 1893000 | 7989000 | 25218000 | 0 |
| 8. | Şirvan | 31240000 | 1790000 | 5158000 | 24292000 | 0 |
| 9. | Yevlax | 24500000 | 2753000 | 7337000 | 14410000 | 0 |
| 10. | Xankəndi | | | | | |
| | **Rayonlar** | | | | | |
| 11. | Abşeron | 80060000 | 166000 | 11096000 | 68798000 | 0 |
| 12. | Ağcabədi | 22630000 | 1732000 | 6378000 | 14520000 | 0 |
| 13. | Ağdam | 9470000 | 35000 | 7600000 | 1835000 | 0 |
| 14. | Ağdaş | 12680000 | 12000 | 6345000 | 6323000 | 0 |
| 15. | Ağdərə | | | | | |
| 16. | Ağstafa | 10 900 000 | 41 000 | 5 291 000 | 5 568 000 | 0 |
| 17. | Ağsu | 15 790 000 | 1 049 000 | 5 453 000 | 9 288 000 | 0 |
| 18. | Astara | 15 630 000 | 10 000 | 4 440 000 | 11 180 000 | 0 |
| 19. | Balakən | 9 460 000 | 23 000 | 4 359 000 | 5 078 000 | 0 |
| 20. | Beyləqan | 15 070 000 | 33 000 | 4 921 000 | 10 116 000 | 0 |
| 21. | Bərdə | 19 500 000 | 61 000 | 6 872 000 | 12 567 000 | 0 |
| 22. | Biləsuvar | 16 600 000 | 17 000 | 5 238 000 | 11 345 000 | 0 |
| 23. | Cəbrayıl | 2 510 000 | 16 000 | 3 708 000 | 0 | 1 214 000 |
| 24. | Cəlilabad | 13 870 000 | 35 000 | 6 361 000 | 7 474 000 | 0 |
| 25. | Daşkəsən | 6 880 000 | 1 000 | 3 610 000 | 3 269 000 | 0 |
| 26. | Füzuli | 14 700 000 | 17 000 | 7 193 000 | 7 490 000 | 0 |
| 27. | Gədəbəy | 9 660 000 | 41 000 | 7 642 000 | 1 977 000 | 0 |
| 28. | Goranboy | 12 040 000 | 20 000 | 6 787 000 | 5 233 000 | 0 |
| 29. | Göyçay | 18 270 000 | 16 000 | 5 610 000 | 12 644 000 | 0 |
| 30. | Göygöl | 19 630 000 | 9 000 | 6 066 000 | 13 555 000 | 0 |
| 31. | Hacıqabul | 9 000 000 | 12 000 | 4 628 000 | 4 360 000 | 0 |
| 32. | Xaçmaz | 41 330 000 | 1 544 000 | 8 249 000 | 31 537 000 | 0 |
| 33. | Xızı | 5 270 000 | 5 000 | 3 277 000 | 1 988 000 | 0 |
| 34. | Xocalı | 980 000 | 3 000 | 2 050 000 | 0 | 1 073 000 |
| 35. | Xocavənd | 1 220 000 | 25 000 | 2 424 000 | 0 | 1 229 000 |
| 36. | İmişli | 39 700 000 | 1 711 000 | 5 732 000 | 32 257 000 | 0 |
| 37. | İsmayıllı | 14 440 000 | 10 000 | 6 428 000 | 8 002 000 | 0 |
| 38. | Kəlbəcər | 3 000 000 | 4 000 | 4 941 000 | 0 | 1 945 000 |
| 39. | Kürdəmir | 15 990 000 | 18 000 | 4 829 000 | 11 143 000 | 0 |
| 40. | Qax | 6 100 000 | 15 000 | 5 453 000 | 632 000 | 0 |
| 41. | Qazax | 19 670 000 | 15 000 | 5 651 000 | 14 004 000 | 0 |
| 42. | Qəbələ | 25 700 000 | 22 000 | 7 493 000 | 18 185 000 | 0 |
| 43. | Qobustan | 6 240 000 | 5 000 | 4 549 000 | 1 686 000 | 0 |
| 44. | Quba | 31 740 000 | 64 000 | 8 064 000 | 23 612 000 | 0 |
| 45. | Qubadlı | 6 770 000 | 4 000 | 4 210 000 | 2 556 000 | 0 |
| 46. | Qusar | 16 800 000 | 28 000 | 5 589 000 | 11 183 000 | 0 |
| 47. | Laçın | 4 520 000 | 75 000 | 5 946 000 | 0 | 1 501 000 |
| 48. | Lerik | 5 409 000 | 5 000 | 5 404 000 | 0 | 0 |
| 49. | Masallı | 16 340 000 | 35 000 | 8 226 000 | 8 079 000 | 0 |
| 50. | Neftçala | 11 200 000 | 28 000 | 5 294 000 | 5 878 000 | 0 |
| 51. | Oğuz | 4 280 000 | 30 000 | 3 928 000 | 322 000 | 0 |
| 52. | Saatlı | 14 511 000 | 8 000 | 5 915 000 | 8 588 000 | 0 |
| 53. | Sabirabad | 16 410 000 | 17 000 | 5 747 000 | 10 646 000 | 0 |
| 54. | Salyan | 16 590 000 | 26 000 | 6 844 000 | 9 720 000 | 0 |
| 55. | Samux | 8 970 000 | 16 000 | 4 869 000 | 4 085 000 | 0 |
| 56. | Siyəzən | 8 160 000 | 17 000 | 3 851 000 | 4 292 000 | 0 |
| 57. | Şabran | 10 130 000 | 21 000 | 4 435 000 | 5 674 000 | 0 |
| 58. | Şamaxı | 17 920 000 | 14 000 | 7 493 000 | 10 413 000 | 0 |
| 59. | Şəmkir | 27 890 000 | 50 000 | 9 389 000 | 18 451 000 | 0 |
| 60. | Şuşa | 3 230 000 | 2 000 | 2 155 000 | 1 073 000 | 0 |
| 61. | Tərtər | 11 210 000 | 17 000 | 7 006 000 | 4 187 000 | 0 |
| 62. | Tovuz | 26 280 000 | 2 022 000 | 7 107 000 | 17 151 000 | 0 |
| 63. | Ucar | 8 930 000 | 21 000 | 3 755 000 | 5 154 000 | 0 |
| 64. | Yardımlı | 3 730 000 | 8 000 | 5 585 000 | 0 | 1 863 000 |
| 65. | Zaqatala | 16 040 000 | 62 000 | 5 881 000 | 10 097 000 | 0 |
| 66. | Zəngilan | 2 490 000 | 3 000 | 3 110 000 | 0 | 623 000 |
| 67. | Zərdab | 5 950 000 | 11 000 | 5 582 000 | 357 000 | 0 |
| | **Cəmi** | **13 865 000 000** | **136 600 000** | **784 803 000** | **12 953 045 000** | **9 448 000** |

**Maddə 10.** Bu Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəhər və rayonlara, onların xərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət büdcəsindən vəsait ayırır.

| 1.11.1.6 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)"publik hüquqi şəxs (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi) | 75,000,000.0 | 75,000,000.0 | |
| 1.11.1.7 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Dəniz və Liman Agentliyi"publik hüquqi şəxs | 6,239,600.0 | 6,239,600.0 | |
| 1.11.1.8 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi"publik hüquqi şəxs | 37,274,000.0 | 37,274,000.0 | |
| 1.11.1.9 | Nəqliyyat və rabitə sahələrində digər tədbirlərin maliyyələşdirilməsi | 55,000,000.0 | 55,000,000.0 | |
| 1.11.1.10 | İctimai nəqliyyat sahəsində islahatlarla bağlı xərclər | 150,000,000.0 | 150,000,000.0 | |
| 1.11.1.11 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 52,296,115.0 | | 52,296,115.0 |
| 1.11.2 | İqtisadi və kommersiya fəaliyyəti | 54,395,210.0 | 54,395,210.0 | |
| 1.11.2.1 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 54,395,210.0 | 54,395,210.0 | |
| 1.11.3 | Tikinti və şəhərsalma | 6,309,440,300.0 | 6,309,440,300.0 | |
| 1.11.3.1 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1,040,300.0 | 1,040,300.0 | |
| 1.11.3.2 | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2,482,900,000.0 | 2,482,900,000.0 | |
| 1.11.3.2.1 | Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının maliyyələşdirilməsi | 249,100,000.0 | 249,100,000.0 | |
| 1.11.3.3 | İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 3,825,000,000.0 | 3,825,000,000.0 | |
| 1.11.3.4 | Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması | 500,000.0 | 500,000.0 | |
| 1.11.4 | Geodeziya və faydalı qazıntılar | 9,095,000.0 | 9,095,000.0 | |
| 1.11.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 245,000.0 | 245,000.0 | |
| 1.11.4.2 | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Geodeziya və Kartoqrafiya Agentliyi"publik hüquqi şəxs | 4,850,000.0 | 4,850,000.0 | |
| 1.11.4.3 | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Geoloji Kəşfiyyat Agentliyi"publik hüquqi şəxs | 4,000,000.0 | 4,000,000.0 | |
| 1.11.5 | Yanacaq və enerji kompleksi | 6,155,000.0 | 6,155,000.0 | |
| 1.11.5.1 | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 6,155,000.0 | 6,155,000.0 | |
| 1.11.6 | İqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 144,000.0 | | 144,000.0 |
| 1.11.6.1 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 144,000.0 | | 144,000.0 |
| 1.11.7 | İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 880,634,103.0 | 880,634,103.0 | |
| 1.11.7.1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 21,467,000.0 | 21,467,000.0 | |
| 1.11.7.1.1 | Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması | 8,000,000.0 | 8,000,000.0 | |
| 1.11.7.1.2 | Lisenziya blanklarının çap edilməsi | 10,010.0 | 10,010.0 | |
| 1.11.7.1.3 | Digər tədbirlər | 13,456,990.0 | 13,456,990.0 | |
| 1.11.7.2 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 300,000.0 | 300,000.0 | |
| 1.11.7.3 | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 2,300,000.0 | 2,300,000.0 | |
| 1.11.7.4 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların çap edilməsi) | 42,000,000.0 | 42,000,000.0 | |
| 1.11.7.5 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (Böyükşor gölünün mühafizəsi və ətrafının abadlaşdırılması) | 800,000.0 | 800,000.0 | |
| 1.11.7.6 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 10,800,600.0 | 10,800,600.0 | |
| 1.11.7.6.1 | Xarici investisiya hesabına elektrik enerjisinin alqı-satqısı üzrə xüsusi ehtiyat hesabının formalaşdırılması | 10,200,000.0 | 10,200,000.0 | |
| 1.11.7.6.2 | Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması | 600,600.0 | 600,600.0 | |
| 1.11.7.7 | Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 26,250,000.0 | 26,250,000.0 | |
| 1.11.7.8 | Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər | 13,375,000.0 | 13,375,000.0 | |
| 1.11.7.9 | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu | 100,000,000.0 | 100,000,000.0 | |
| 1.11.7.9.1 | Nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) | 87,700,000.0 | 87,700,000.0 | |
| 1.11.7.9.2 | Sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi | 12,300,000.0 | 12,300,000.0 | |
| 1.11.7.10 | Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu | 10,300,000.0 | 10,300,000.0 | |
| 1.11.7.11 | İqtisadi fəaliyyət sahələri üzrə maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 500,000.0 | 500,000.0 | |
| 1.11.7.12 | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 105,100.0 | 105,100.0 | |
| 1.11.7.13 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Azərbaycan Standartlaşdırma İnstitutu"publik hüquqi şəxs | 800,000.0 | 800,000.0 | |
| 1.11.7.14 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi"publik hüquqi şəxs | 1,100,000.0 | 1,100,000.0 | |
| 1.11.7.15 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Korporativ İdarəetmənin Təşkili və Koordinasiya Mərkəzi"publik hüquqi şəxs | 1,400,000.0 | 1,400,000.0 | |
| 1.11.7.16 | "Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi"publik hüquqi şəxs | 9,500,000.0 | 9,500,000.0 | |
| 1.11.7.17 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi"publik hüquqi şəxs | 3,500,000.0 | 3,500,000.0 | |
| 1.11.7.18 | "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi"publik hüquqi şəxs | 2,011,200.0 | 2,011,200.0 | |
| 1.11.7.19 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO"publik hüquqi şəxs | 6,800,000.0 | 6,800,000.0 | |
| 1.11.7.20 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi"publik hüquqi şəxs | 12,200,000.0 | 12,200,000.0 | |
| 1.11.7.21 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi"publik hüquqi şəxs | 2,500,000.0 | 2,500,000.0 | |
| 1.11.7.22 | Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu"publik hüquqi şəxs | 10,000,000.0 | 10,000,000.0 | |
| 1.11.7.23 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Azərbaycan Metrologiya İnstitutu"publik hüquqi şəxs | 950,000.0 | 950,000.0 | |
| 1.11.7.24 | "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti"publik hüquqi şəxs | 7,400,000.0 | 7,400,000.0 | |
| 1.11.7.25 | "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"publik hüquqi şəxs | 12,000,000.0 | 12,000,000.0 | |
| 1.11.7.26 | "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"publik hüquqi şəxs | 6,000,000.0 | 6,000,000.0 | |
| 1.11.7.27 | "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"publik hüquqi şəxs | 4,500,000.0 | 4,500,000.0 | |

*Ardı 8-ci səh.*

# "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 7-ci səh.*

| | | | | |
|---|---|---|---|---|
| 1.11.7.28 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi"publik hüquqi şəxs | 20,000,000.0 | 20,000,000.0 | |
| 1.11.7.29 | Bir sıra dövlət müəssisələrində islahatlar aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması və güzəştlərə dair reyestrlərin yaradılması ilə bağlı xərclər | 5,000,000.0 | 5,000,000.0 | |
| 1.11.7.30 | İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı | 508,000,000.0 | 508,000,000.0 | |
| 1.11.7.31 | Dövlət zəmanəti ilə verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması və problemli kreditlərin həlli ilə bağlı maliyyə təminatı | 1,675,203.0 | 1,675,203.0 | |
| 1.11.7.32 | İqtisadi fəaliyyət sahələri üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 5,000,000.0 | 5,000,000.0 | |
| 1.11.7.33 | Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı | 30,600,000.0 | 30,600,000.0 | |
| 1.11.7.34 | İqtisadi fəaliyyət sahələri üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 1,500,000.0 | 1,500,000.0 | |
| 1.12 | Əsas bölmələrə aid edilməyən xərclər | 1,390,324,201.0 | 1,362,184,847.0 | 28,139,354.0 |
| 1.12.1 | Ehtiyat fondları | 410,000,000.0 | 410,000,000.0 | |
| 1.12.1.1 | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 300,000,000.0 | 300,000,000.0 | |
| 1.12.1.2 | Dövlət büdcəsinin ehtiyat fondu | 110,000,000.0 | 110,000,000.0 | |
| 1.12.2 | Məqsədli büdcə fondları | 523,940,000.0 | 523,940,000.0 | |
| 1.12.2.1 | "Avtomobil yolları"məqsədli büdcə fondu | 505,000,000.0 | 505,000,000.0 | |
| 1.12.2.1.1 | İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 175,000,000.0 | 175,000,000.0 | |
| 1.12.2.2 | Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu | 8,861,000.0 | 8,861,000.0 | |
| 1.12.2.3 | Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu | 7,300,000.0 | 7,300,000.0 | |
| 1.12.2.4 | Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu | 1,300,000.0 | 1,300,000.0 | |
| 1.12.2.5 | Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları | 1,208,000.0 | 1,208,000.0 | |
| 1.12.2.6 | Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu | 271,000.0 | 271,000.0 | |
| 1.12.3 | Valyuta konvertasiyası | 4,000,000.0 | 4,000,000.0 | |
| 1.12.3.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 4,000,000.0 | 4,000,000.0 | |
| 1.12.4 | Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 452,384,201.0 | 424,244,847.0 | 28,139,354.0 |
| 1.12.4.1 | Dövlət ehtiyatlarının yaradılması və təşkili | 45,000,000.0 | 45,000,000.0 | |
| 1.12.4.2 | Fövqəladə halların nəticələrinin aradan qaldırılması | 20,000,000.0 | 20,000,000.0 | |
| 1.12.4.3 | Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 14,366,639.0 | | 14,366,639.0 |
| 1.12.4.4 | Sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 373,017,562.0 | 359,244,847.0 | 13,772,715.0 |
| 1.12.4.4.1 | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 1,440,000.0 | 1,440,000.0 | |
| 1.12.4.4.2 | Azərbaycan Respublikasının maraqlarının beynəlxalq hüquq çərçivəsində qorunması, beynəlxalq məhkəmələrdə təmsil edilməsi və həmin məhkəmələrin qərarlarının icrası ilə bağlı xərclər | 39,900,000.0 | 39,900,000.0 | |
| 1.12.4.4.3 | Dövlət təltiflərinin hazırlanması | 3,171,900.0 | 3,171,900.0 | |
| 1.12.4.4.4 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 18,692,947.0 | 18,692,947.0 | |
| 1.12.4.4.4.1 | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi | 6,000,000.0 | 6,000,000.0 | |
| 1.12.4.4.4.2 | İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 12,302,947.0 | 12,302,947.0 | |
| 1.12.4.4.4.3 | Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 390,000.0 | 390,000.0 | |
| 1.12.4.4.5 | İşğaldan azad edilmiş ərazilərdə ödənilmiş kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı göstərilməsi | 34,700,000.0 | 34,700,000.0 | |
| 1.12.4.4.6 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 80,000,000.0 | 80,000,000.0 | |
| 1.12.4.4.7 | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 27,300,000.0 | 27,300,000.0 | |
| 1.12.4.4.8 | Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 9,000,000.0 | 9,000,000.0 | |
| 1.12.4.4.9 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 9,040,000.0 | 9,040,000.0 | |
| 1.12.4.4.10 | Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 50,000,000.0 | 50,000,000.0 | |
| 1.12.4.4.11 | İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması | 5,000,000.0 | 5,000,000.0 | |
| 1.12.4.4.12 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 81,000,000.0 | 81,000,000.0 | |
| 1.12.4.4.13 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 13,772,715.0 | | 13,772,715.0 |

2. Müəyyən edilsin ki, bu Fərmanın1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) və 1.11.3.3-cü (İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bu Fərmanın 1.1.1.57-ci (Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.1.4-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.5.2-ci (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər), 1.3.6.4-cü (Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi),1.7.5.25-ci (Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.9.1.5-ci (Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər)və 1.11.1.9-cu (Nəqliyyat və rabitə sahələrində digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.3. bu Fərmanın 1.1.2.1-ci (Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak), 1.1.2.3-cü (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər), 1.1.2.4.2-ci (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər), 1.1.3-cü (Xarici yardımlar), 1.1.6.2-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya) və 1.1.6.3-cü (Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya) yarımbəndlərində nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsünü həyata keçirsin;

3.4. bu Fərmanın 1.1.2.2-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları üzrə manat və müvafiq xarici valyutalarda bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

3.5. bu Fərmanın 1.1.1.56-cı, 1.1.4.24-cü, 1.2.1.3-cü, 1.3.6.3-cü, 1.4.8.10-cu, 1.4.8.11-ci, 1.5.4.9-cu, 1.6.4.5-ci, 1.8.2.5-ci, 1.11.7.7-ci, 1.11.7.32-ci, 1.12.1.2-ci və 1.12.4.1-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.6. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən nərə balıq növünün süni artırılması, təbii populyasiyasının bərpası, qorunması və laboratoriyaların fəaliyyətinin təmin edilməsi işlərini dövlət sifarişi kimi iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.7. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən şəhərsalma işlərini dövlət sifarişi kimi iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.8. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2024-cü ilin dövlət büdcəsinə tutulması vergi orqanlarının səlahiyyətlərinə aid edilmiş vergi və dövlət rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.2. 2024-cü ilin dövlət büdcəsinə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər və gömrük rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.3. bu Fərmanın 1.1.4.23-cü, 1.4.8.12-ci, 1.7.5.8-ci, 1.7.5.24-cü, 1.9.1.7-ci, 1.11.7.29-cu, 1.11.7.31-ci, 1.11.7.34-cü, 1.12.4.4.2-ci, 1.12.4.4.3-cü, 1.12.4.4.5-ci, 1.12.4.4.7-ci və 1.12.4.4.9-cu yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

4.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

4.4.1. bu Fərmanın 1.5.4.11-ci (Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi), 1.8.4.5-ci (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər),1.11.7.30-cu (İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı), 1.12.4.4.11-ci (İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması) və 1.12.4.4.12-ci (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.4.2. bu Fərmanın 1.1.1.58-ci, 1.1.4.25-ci, 1.2.5.3-cü, 1.3.6.5-ci, 1.4.8.13-cü, 1.5.4.12-ci, 1.6.3.1-ci, 1.7.5.26-cı, 1.9.4.1-ci, 1.10.7.1-ci, 1.11.7.11-ci və 1.12.4.4.6-cı yarımbəndlərində nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini bir ay müddətində həyata keçirsin;

4.4.3. bu Fərmanın 1.12.2.2-ci, 1.12.2.3-cü, 1.12.2.4-cü, 1.12.2.5-ci və 1.12.2.6-cı yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri həyata keçirsin;

4.4.4. bu Fərmanın 1.11.1.10-cu (İctimai nəqliyyat sahəsində islahatlarla bağlı xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləriAzərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifləri əsasında həyata keçirsin;

4.5. bu Fərmanın 1.9.1.6-cı (Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı hüquqmüəyyənedici sənədlərin verilməsi üçün göstərilən xidmətlərə görə xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin sifarişi əsasında maliyyələşməsini həyata keçirsin;

4.6. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun 12-ci maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün;

4.7. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun 13-cü və 14-cü maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

4.8. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

6.1. bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. bu Fərmanın 1.11.7.1.1-ci (Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması) yarımbəndində nəzərdə tutulan vəsaitin ticarət nümayəndələri üzrə bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin;

6.3. bu Fərmanın 1.11.7.8-ci (Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

6.4. bu Fərmanın 1.11.7.33-cü (Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin;

6.5. bu Fərmanın 1.12.4.4.8-ci (Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

6.6. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1.1.2.4.1-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin.

8. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

8.1."Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun 9-cu maddəsində Bakı, Gəncə, Şəki və Lənkəran şəhərləri üzrə bu Fərmanın 1.6.2.2-ci (Yerli icra hakimiyyəti orqanları) yarımbəndində yerli xərclər üzrə nəzərdə tutulmuş 5 634 401,0 manatınvə 1.6.2.1-ci (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi) yarımbəndində nəzərdə tutulmuş xərclərin 287 414,0 manatının bölgüsünü həyata keçirsin;

8.2. bu Fərmanın 1.6.4.6-cı (Paralimpiya, abilimpiya və xüsusi olimpiya oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

9. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.7.4.2-ci (Qeyri-dövlət təşkilatlarına maliyyə yardımı) yarımbəndində nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və bölgüyə uyğun ödənişləri təmin etsin.

10. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmanın 1.10.6.3-cü (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) və 1.10.6.4-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə razılaşdırmaqlahəyata keçirsin.

11. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi:

11.1. bu Fərmanın 1.11.3.4-cü (Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

11.2. bu Fərmanın 1.12.4.4.10-cu (Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndində nəzərdə tutulan vəsaitinbölgüsünü Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirsin.

12. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi bu Fərmanın 1.12.4.2-ci (Fövqəladə halların nəticələrinin aradan qaldırılması) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin.

13. Azərbaycan Respublikasının İqtisadiyyat, Mədəniyyət, Gənclər və İdman, Səhiyyə, Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Elm və Təhsil, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Azərbaycan Respublikasının Diasporla İş üzrə, Dini Qurumlarla İş üzrə dövlət komitələri, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi, Azərbaycan Dövlət Su Ehtiyatları agentlikləri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri dövlət xidmətləri, Bakı Şəhər İcra Hakimiyyəti aidiyyəti üzrə bu Fərmanın 1.1.4.13-cü, 1.1.4.14-cü, 1.1.4.18-ci, 1.1.4.19-cu, 1.1.4.21-ci, 1.1.4.22-ci, 1.4.8.8-ci, 1.4.8.9-cu, 1.5.2.7-ci, 1.6.4.7-ci, 1.6.4.8-ci, 1.7.5.15-ci, 1.7.5.19-cu, 1.7.5.22-ci, 1.8.3.1-ci, 1.9.3.1-ci, 1.10.2.2-ci, 1.11.1.6-cı, 1.11.1.7-ci, 1.11.1.8-ci, 1.11.4.2-ci, 1.11.4.3-cü, 1.11.7.13-cü, 1.11.7.14-cü, 1.11.7.15-ci, 1.11.7.17-ci, 1.11.7.19-cu, 1.11.7.20-ci, 1.11.7.21-ci, 1.11.7.22-ci, 1.11.7.23-cü, 1.11.7.28-ci yarımbəndlərində, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 1.1.4.12-ci, 1.1.4.15-ci, 1.1.4.16-cı, 1.1.4.17-ci, 1.1.4.20-ci, 1.3.6.2-ci, 1.4.8.7-ci, 1.7.5.12-ci, 1.7.5.13-cü, 1.7.5.14-cü, 1.7.5.16-cı, 1.7.5.17-ci, 1.7.5.18-ci, 1.7.5.20-ci, 1.7.5.21-ci, 1.7.5.23-cü, 1.8.4.2-ci, 1.8.4.3-cü, 1.8.4.4-cü,1.11.7.16-cı, 1.11.7.18-ci, 1.11.7.24-cü, 1.11.7.25-ci, 1.11.7.26-cı, 1.11.7.27-ci yarımbəndlərində göstərilən publik hüquqi şəxslər üçün nəzərdə tutulmuş vəsait daxilində, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"na uyğun olaraq, müvafiq publik hüquqi şəxslərlə 15 (on beş) gün müddətində dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsini təmin edən ikitərəfli müqavilələrin rəsmiləşdirilməsi üçün tədbirlər görsünlər.

14. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşdirilən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

15. Müəyyən edilsin ki:

15.1. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun 2.14-cü, 3-cü maddəsinin birinci abzasında, 3.1-ci, 3.1.8-ci, 5.1-ci, 5.2-ci (hər iki halda), 7.12.2.1-ci, 9-cu (hər iki halda), 10-cu və 16-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

15.2. həmin Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

15.3. həmin Qanunun 2.14-cü, 5.2-ci (birinci halda) və 16-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

15.4. həmin Qanunun 3.1.8-ci və 14-cü maddələrində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları və Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

15.5. həmin Qanunun 3-cü maddəsinin birinci abzasında, 3.1-ci və 7.12.2.1-ci maddələrində "məqsədli büdcə fondları" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

15.6. həmin Qanunun 5.1-ci, 5.2-ci (ikinci halda) və 9-cu (hər iki halda) maddələrində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu nəzərdə tutulur.

16. Bu Fərmanın 1-ci hissəsi 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği**

2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən edilsin.

**Maddə 2. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Ehtiyac meyarının həddi**

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2024-cü il üçün ehtiyac meyarının həddi 270 manat məbləğində təsdiq edilsin.

**Maddə 2. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

# İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin gəlirləri 238 000 000,0 manat, xərcləri 238 000000,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2024-cü ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 179 976 800,0 |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 22 688 400,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 22 688 400,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə | 134 600 000,0 |
| 2.2. | Sair gəlirlər | 70 000,0 |
| 2.3. | 2023-cü ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti | 57 953 200,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | İşsizliyə görə sığorta ödənişləri | 15 000 000,0 |
| 3.2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 35 000 000,0 |
| 3.3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 1 500 000,0 |
| 3.4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 500 000,0 |
| 3.5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 5 000 000,0 |
| 3.6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 73 000 000,0 |
| 3.7. | Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi | 4 000 000,0 |
| 3.8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 3.9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 55 000 000,0 |
| 3.10. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri | 45 000 000,0 |
| 3.11. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması | 1 000 000,0 |
| 3.12. | Sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi | 1 000 000,0 |
| 3.13. | Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv tədbirlər | 1 000 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İşsizlikdən sığorta fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında qalan sərbəst vəsait "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq növbəti ilin xərclərinin maliyyələşdirilməsinə və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən investisiyaya yönəldilir.

**Maddə 5. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

# "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 3.9-cu (hər iki halda) və 3.10-cu bəndlərində, 4-cü maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 3.9-cu bəndində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 3.9-cu bəndində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulur;

1.4. həmin Qanunun 3-cü maddəsinin 3.10-cu bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 4-cü maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulurlar;

1.6. həmin Qanunun 4-cü maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Dövlət Məşğulluq Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanununun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş işsizlikdən sığorta haqları üzrə gəlirlərin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanunun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş işsizlikdən sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünü 10 (on) gün müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. büdcə təşkilatlarının 2024-cü il yanvarın 1-dək yaranmış işsizlikdən sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.4. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. işsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. büdcədən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış işsizlikdən sığorta haqları üzrə borclarını 2024-cü il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsın;

5.2. "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1030-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

7. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*

# Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsinin gəlirləri 6 919 860 000,0 manat, xərcləri 6 919 860 000,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2024-cü ildə dövlət sosial müdafiə fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Məcburi dövlət sosial sığorta haqları, cəmi o cümlədən: | 5 288 135400,0 |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 1 672 911 200,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 228 124 200,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə o cümlədən: | 3 387 100 000,0 |
| 2.1.3.1. | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 65 000 000,0 |
| 2.2. | Sair gəlirlər, cəmi o cümlədən: | 12 700 000,0 |
| 2.2.1. | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | 2 400 000,0 |
| 2.3. | Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait | 1 392 000 000,0 |
| 2.4. | Əvvəlki illərdə Dövlət Sosial Müdafiə Fondunun istifadə olunmamış vəsaitindən cari ilin xərclərinə yönəldilən məbləğ | 227 024 600,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | Əhaliyə ödənişlər üzrə xərclər | 6 681 580 000,0 |
| 3.1.1. | əmək pensiyalarının ödənilməsi xərcləri | 6 500 000 000,0 |
| 3.1.2. | məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri o cümlədən: | 181 580 000,0 |
| 3.1.2.1. | əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə | 43 700 000,0 |
| 3.1.2.2. | hamiləliyə və doğuma görə | 57 000 000,0 |
| 3.1.2.3. | uşağın anadan olmasına görə | 34 500 000,0 |
| 3.1.2.4. | 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar | 9 200 000,0 |
| 3.1.2.5. | dəfn üçün | 37 180 000,0 |
| 3.2. | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər | 24 500 000,0 |
| 3.3. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri | 78 500 000,0 |
| 3.4. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin saxlanılması xərcləri | 130 110 000,0 |
| 3.5. | Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri | 70 000,0 |
| 3.5.1. | Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 40 000,0 |
| 3.5.2. | Pensiya və Sosial Fondların Beynəlxalq Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 30 000,0 |
| 3.6. | Sair xərclər | 5 100 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

Dövlət Sosial Müdafiə Fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında qalan sərbəst vəsait "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq növbəti ilin xərclərinin maliyyələşdirilməsinə və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən investisiyaya yönəldilir.

**Maddə 5. Büdcə təşkilatları üzrə sosial sığorta haqları üzrə daxilolmaların tənzimlənməsi**

Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər Dövlət Sosial Müdafiə Fonduna tam məbləğdə daxil olmadıqda, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər artırılır, artıq daxil olduqda isə nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər azaldılır.

**Maddə 6. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

# "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 3.3-cü, 3.4-cü bəndlərində və 4-cü maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 3.3-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 3.4-cü bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur;

1.4. həmin Qanunun 4-cü maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulurlar;

1.5. həmin Qanunun 4-cü maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanununun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanunun 2-ci maddəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərinaylıq və rüblük bölgüsünü 10 (on) gün müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. büdcə təşkilatlarının 2024-cü il yanvarın 1-dək yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.4. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. bu Fərmanın 3.2-ci bəndində qeyd olunan bölgü nəzərə alınmaqla, 2024-cü il üçün Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi ilə bağlı dövlət büdcəsindən ayrılan vəsaitin (transfertin) aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla 10 (on) gün müddətində təsdiq etsin;

5.2. büdcədən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarını 2024-cü il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsın;

5.3. "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

7. Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 468

## QƏRAR

Bakı şəhəri, 25 dekabr 2023-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısının təsdiq edilməsi haqqında" 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli və "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 866-VIQD nömrəli Qanununun tətbiqi və "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 may tarixli 2159 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 682; 2002, № 3, maddə 145; 2003, № 6, maddə 342; 2005, № 8, maddə 782; 2006, № 10, maddə 903; 2008, № 2, maddə 106; 2010, № 3, maddə 264, № 12, maddə 1123; 2014, № 10, maddə 1315; 2016, № 9, maddə 1585; 2017, № 12 (II kitab), maddə 2544; 2018, № 12 (II kitab), maddə 2735; 2019, № 1, maddə 169, № 3, maddə 555, № 5, maddə 967, № 6, maddə 1172, № 7, maddə 1338; 2020, № 2, maddə 202; 2022, № 8, maddə 1021, № 9, maddə 1085; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 noyabr tarixli 411 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısı"nın "Qeyd" hissəsinin 3-cü cümləsində "Bildiriş" sözü "Bildirişin surəti" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228, 1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 76, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; 2015, № 12, maddə 1580; 2016, № 3, maddə 611, № 4, maddələr 777, 814, № 6, maddə 1226, № 8, maddə 1449, № 11, maddə 1937; 2017, № 1, maddə 135, № 3, maddə 493, № 6, maddə 1245, № 7, maddə 1491, № 9, maddə 1721, № 10, maddə 1883, № 12 (II kitab), maddə 2545; 2018, № 2, maddə 347, № 3, maddə 628, № 4, maddə 789, № 5, maddə 1122, № 6, maddələr 1360, 1367, № 9, maddə 1929, № 10, maddə 2166; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddələr 938, 967, № 6, maddə 1172, № 7, maddələr 1325, 1338, № 10, maddə 1674; 2020, № 6, maddə 783, № 10, maddələr 1282, 1299, № 12 (V kitab), maddə 1580; 2021, № 3, maddə 302, № 12, maddə 1509; 2022, № 4, maddə 414; 2023, № 5, maddə 723, № 6, maddə 851, № 8 (II kitab), maddələr 1256, 1273; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 noyabr tarixli 428 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 7-ci hissənin on səkkizinci abzasının birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Notarius kommersiya hüquqi şəxslərinin nizamnamə kapitalı, təsisçilərin (iştirakçıların) təsisçi (iştirakçı) səlahiyyətlərinin həyata keçirilməsi və onların nizamnamə kapitalındakı payları ilə əlaqədar notariat hərəkətləri apardığı zaman kommersiya hüquqi şəxslərinin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları, habelə kommersiya hüquqi şəxslərinin nizamnamələri və dövlət qeydiyyatı haqqında şəhadətnamələri barədə məlumatları elektron informasiya sistemləri vasitəsilə elektron sorğu əsasında əldə edir və bu barədə çap edilmiş arayışı müvafiq notariat hərəkəti üzrə notariusda saxlanılan işin nüsxəsinə əlavə edir.";

2.2. 133-cü hissənin yeddinci abzası aşağıdakı redaksiyada verilsin:

"Notarius tərcüməçi tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş tərcümənin düzgünlüyünü elektron qaydada təsdiq edə bilər. Bu halda notarius tərcümənin mətninə görə məsuliyyət daşımır.";

2.3. 161-ci hissənin doqquzuncu abzasında "Bildiriş" sözü "Bildirişin surəti" sözləri ilə əvəz edilsin;

2.4. 209-cu hissənin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 90-cı maddəsinə uyğun olaraq notariuslar xarici ölkələrdə tərtib edilmiş sənədləri aşağıdakı hallarda qəbul edirlər:

1. həmin sənədlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarında leqallaşdırılmış olduqda;

2. "Xarici rəsmi sənədlərin leqallaşdırılması tələbini ləğv edən Konvensiya" ilə müəyyən edilmiş hallarda xarici rəsmi sənədə kağız və ya elektron formada həmin Konvensiya ilə nəzərdə tutulan şəhadətnamə (apostil) verildikdə. Bu zaman elektron formada verilmiş şəhadətnamə (apostil) "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq yoxlanıldıqdan sonra qəbul edilir.";

2.5. 210-cu hissə aşağıdakı redaksiyada verilsin:

"210. Azərbaycan Respublikasının qanunvericiliyində, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda notariuslar xarici ölkələrdə tərtib edilmiş sənədləri leqallaşdırılmadan və ya onlara Konvensiya ilə nəzərdə tutulan şəhadətnamə verilmədən qəbul edirlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 470

## QƏRAR

Bakı şəhəri, 25 dekabr 2023-cü il

### Bakı şəhərinin inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bakı şəhəri, Qaradağ rayonu, Pirsaat qəsəbəsi ərazisində yerləşən dövlət ehtiyat fondu torpaqları kateqoriyasına aid 300,77 hektar torpaq sahəsi günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun həyata keçirsin.

3. Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 300,77 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 471

## QƏRAR

Bakı şəhəri, 25 dekabr 2023-cü il

### "Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyatların aparılması və əqdlərin bağlanması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 157 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 966-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyatların aparılması və əqdlərin bağlanması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 157 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 874; 2009, № 7, maddə 610; 2016, № 11, maddə 1961) aşağıdakı dəyişikliklər edilsin:

1. Preambulada "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 2-ci bəndinin icrasını təmin etmək məqsədilə" sözləri "Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq," sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında qiymətli metallarla əməliyyatların aparılması və əqdlərin bağlanması Qaydaları" üzrə:

2.1. 3.11-ci və 3.15-ci bəndlərdə "Maliyyə Bazarlarına Nəzarət Palatasının" sözləri "Mərkəzi Bankın" sözləri ilə əvəz edilsin;

2.2. 4.1-ci bənddə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 469

## QƏRAR

Bakı şəhəri, 25 dekabr 2023-cü il

### "Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun tətbiqi və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2237 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 dekabr tarixli 469 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.19-2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin (ümumtəhsil dərslikləri, dərs vəsaitləri və digər tədris-metodik vasitələr istisna olmaqla) tərtibi, təsdiqlənməsi və nəşri qaydasını müəyyən edir.

1.2. Peşə təhsili müəssisələri üçün ümumtəhsil dərsliklərinin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 fevral tarixli 67 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"na uyğun olaraq həyata keçirilir.

1.3. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. tədris-metodik vasitə - tədris məqsədləri üçün istifadə olunan kağız və ya elektron daşıyıcılarda olan resurs və ya resurs dəsti;

1.3.2. açıq tədris-metodik vasitə - ödənişsiz və məhdudiyyətsiz istifadəyə icazə verilən tədris-metodik vasitə;

1.3.3. dərslik - sistemli materialları özündə ehtiva edən və təhsil proqramına (kurikuluma) daxil olan modulların tədrisi müddətində müəyyənləşdirilmiş məzmun standartlarının təhsilalanlar tərəfindən mənimsənilməsini təmin edən tədris-metodik vasitə;

1.3.4. kağız dərslik - kağız daşıyıcıda olan dərslik;

1.3.5. rəqəmsal dərslik - rəqəmli, mətnli, qrafik, audio, video və digər rəqəmsal materialların məcmusundan ibarət elektron daşıyıcıda olan və ya internet məkanında yerləşdirilmiş dərslik;

1.3.6. dərs vəsaiti - təhsil proqramına (kurikuluma) daxil olan modulların tədrisi müddətində müəyyənləşdirilmiş məzmun standartlarının təhsilalanlar tərəfindən mənimsənilməsinə yardım edən tədris-metodik vasitə;

1.3.7. qrif - peşə təhsili müəssisələrində ixtisas dərsliyinin istifadəsi üçün Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən verilən eyniləşdirmə nömrəsi.

1.4. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibi**

2.1. Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibi fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə peşə təhsili müəssisələri vasitəsilə həyata keçirilir.

2.2. Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibi zamanı aşağıdakı ümumi tələblər nəzərə alınmalıdır:

2.2.1. təhsil proqramına (kurikuluma) uyğunluğu;

2.2.2. materialların elmi etibarlılığı, dəqiqliyi, inkişafyönümlülüyü, peşəyönümlülüyü, dəyəryönümlülüyü, tərbiyəyönümlülüyü;

2.2.3. nəzəri biliklərin praktiki bacarıqlarla tamamlanması və əmək bazarının tələblərinə uyğunluğu;

2.2.4.pedaqoji və metodiki yanaşmaların qabaqcıl nəzəriyyələrə, müasir tədris texnologiyalarına uyğunluğu;

2.2.5. müasir informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərinin nəzərə alınması;

2.2.6. dizayn və tərtibatın məntiqliliyi, estetikliyi və müasirliyi;

2.2.7. Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğunluğu.

2.3. Dərsliklərin bu Qaydanın 2.2-ci bəndinin tələblərinə uyğunluğuna peşə təhsili müəssisəsinin ali idarəetmə orqanında baxılır və qrifin verilməsi barədə qərar qəbul edildiyi halda bu Qaydanın 3.4-cü və 3.5-ci bəndlərinə uyğun olaraq müraciət edilir.

2.4. Nazirlik peşə təhsili sahəsində tətbiq olunan təhsil proqramlarının (kurikulumların) həyata keçirilməsini təmin etmək məqsədilə bütün ixtisaslar (modullar) üzrə açıq tədris-metodik vasitələri kimi dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibini sifariş edir.

2.5. Açıq tədris-metodik vasitələrdən əlavə olaraq dövlət peşə təhsili müəssisələrində istifadə edilməsi üçün başqa dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin müstəsna və ya qeyri-müstəsna hüquqlarının alınması yolu ilə törəmə (tərcümə, dəyişdirmə) dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin tərtibi Nazirlik tərəfindən sifariş edilir.

**3. Peşə təhsili müəssisələrində istifadə edilməsi üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin təsdiqlənməsi**

3.1. Peşə təhsili müəssisələrində istifadə edilməsi üçün dərsliklərin təsdiqlənməsi onlara qrif verilməsi yolu ilə həyata keçirilir.

3.2. Dərsliyə və onun hər bir təkmilləşdirilmiş və ya törəmə (tərcümə, dəyişdirmə) nəşrinə ayrıca qrif verilir.

3.3. Dərsliyə qrif verilməsi peşə təhsili müəssisəsinin müraciəti əsasında Nazirlik tərəfindən həyata keçirilir.

3.4. Dərsliyə qrif almaq üçün peşə təhsili müəssisəsi (bundan sonra - ərizəçi) Nazirliyin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə (bundan sonra - TMİS) qeydiyyatdan keçməklə şəxsi kabinet yaradır. Ərizəçi şəxsi kabinetdə olan məlumatları əldə edə və müraciətinin statusunu izləyə bilər.

3.5. Müraciətə aşağıdakılar elektron formada əlavə edilir:

3.5.1. dərslik;

3.5.2. dərsliyin əsaslandığı təhsil proqramı (kurikulumu);

3.5.3. dərsliyin təsdiqlənməsi üçün müraciətin edilməsi barədə təhsil müəssisəsinin ali idarəetmə orqanının qərarı;

3.5.4. dərsliyin təsdiqlənməsi barədə müvafiq ixtisas istiqaməti üzrə azı 5 (beş) il fəaliyyəti olan 2 (iki) işəgötürənin müsbət rəyi;

3.5.5. başqa əsərlərdən və mənbələrdən qeyri-qanuni istifadə hallarına yol verilməməsi barədə müəllifin (müəllif kollektivinin) notariat qaydasında təsdiq olunmuş ərizəsi.

3.6. Qrif verilməsi üçün dərsliyin qiymətləndirilməsi Nazirlik tərəfindən həyata keçirilir. Bu məqsədlə Nazirlik tərəfindən müvafiq sahədə 5 (beş) ildən artıq pedaqoji təcrübəsi və ya müvafiq ixtisas üzrə 10 (on) il iş təcrübəsi və ya elmi dərəcəsi olan azı 3 (üç) ekspert cəlb edilir. Nazirlik tərəfindən tərcümə edilmiş dərsliklərin qiymətləndirilməsi üçün əlavə olaraq tərcüməçi də cəlb edilə bilər.

3.7. Dərsliyə qrif verilməsi üçün müraciətə 2 (iki) ay müddətində baxılır.

3.8. Dərslik 100 ballıq şkala üzrə aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

3.8.1. dərsliyin təhsil proqramına (kurikuluma) uyğunluğu (30 bal);

3.8.2. dərsliyə daxil edilmiş materialların elmi etibarlılığı, dəqiqliyi, inkişafyönümlülüyü, peşəyönümlülüyü, tərbiyəyönümlülüyü və dəyəryönümlülüyü (20 bal);

3.8.3. dərslikdə nəzəri biliklərin praktiki bacarıqlarla tamamlanması və əmək bazarının tələblərinə uyğunluğu səviyyəsi (20 bal);

3.8.4. dərslikdə nəzərdə tutulan pedaqoji və metodiki yanaşmaların qabaqcıl nəzəriyyələrə və müasir tədris texnologiyalarına uyğunluğu (10 bal);

3.8.5. dərsliyin tərtibində müasir informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərinin nəzərə alınması (10 bal);

3.8.6. dizayn və tərtibatın məntiqliliyi, estetikliyi və müasirliyi (10 bal).

3.9. Qrif verilməsi üçün dərslik qiymətləndirildiyi hər bir meyar üzrə maksimal balın ən azı 80 faizini toplamalıdır.

3.10. Qrif verilməsi üçün dərsliyin qiymətləndirilməsinin nəticəsi barədə məlumat ərizəçinin şəxsi kabinetinə göndərilir.

3.11. Dərsliyə qrif verilməsindən imtinadan ərizəçi yazılı formada (o cümlədən, elektron formada şəxsi kabineti vasitəsilə) 1 (bir) ay ərzində Nazirliyə şikayət verə bilər. Şikayət həmin dərsliyin qiymətləndirilməsində iştirak etmiş şəxslərdən ibarət tərkibdə yaradılan komissiyada ərizəçinin iştirakı ilə baxılaraq cavablandırılır.

3.12. Dərsliyə qrifin verilməsi Nazirliyin əmri ilə rəsmiləşdirilir. Qrif verilmiş dərsliyin məzmunu qrifin verildiyi tarixdən sonrakı 5 (beş) tədris ili ərzində istifadəyə yararlı hesab olunur. Qrifin verilməsi barədə əmrdə dərsliyin adı, əsaslandığı təhsil proqramı (kurikulumu) və modul, əhatə etdiyi təhsil müddəti, müəllifləri və müstəsna müəlliflik hüququnun (©) sahibi (sahibləri), kağız və ya elektron daşıyıcıda olması və qrif göstərilir.

3.13. Qrif verilməsindən imtina edilmiş dərslik təkmilləşdirildikdən sonra növbəti təqvim ilində yenidən qrif verilməsi üçün Nazirliyə təqdim edilə bilər.

3.14. Nazirlik qrif verilmiş və qrifi ləğv edilmiş dərsliklərin reyestrini aparır və onlar barədə məlumatı rəsmi saytında dərc edir.

3.15. Aşağıdakı hallarda Nazirlik dərsliyin qrifini vaxtından əvvəl ləğv edir:

3.15.1. dərsliyin əsaslandığı təhsil proqramı (kurikulumu) qüvvədən düşdükdə;

3.15.2. dərsliyin təkmilləşdirilmiş nəşrinə qrif verildikdə;

3.15.3. dərslikdə başqa əsərlərdən qeyri-qanuni istifadə (plagiat) faktı öz təsdiqini tapdıqda.

3.16. Qrif verilmiş dərsliklərdən eyni təhsil proqramını (kurikulumu) həyata keçirən peşə təhsili müəssisələrində növbəti dərs ilindən istifadə edilə bilər.

3.17. Peşə təhsili müəssisəsində istifadə edilməsi üçün dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin təsdiqlənməsi barədə qərar peşə təhsili müəssisəsinin ali idarəetmə orqanı tərəfindən qəbul edilir.

**4. Peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri**

4.1. Dövlət peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına, Nazirlik tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkil edilən satınalma yolu ilə həyata keçirilir.

4.2. Peşə təhsili müəssisələri üçün rəqəmsal dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri internet şəbəkəsi üzərindən həyata keçirilir.

4.3. Dövlət peşə təhsili müəssisələri üçün Nazirlik tərəfindən nəşr ediləcək kağız dərsliklərə, dərs vəsaitlərinə və digər tədris-metodik vasitələrə növbəti tədris ilində olan tələbatın proqnozu TMİS vasitəsilə təqdim edilir. Peşə təhsili müəssisələrinin rəhbərləri kağız dərsliklərə, dərs vəsaitlərinə və digər tədris-metodik vasitələrə olan tələbatla bağlı məlumatları tədris ilinin başlanılmasına 6 (altı) ay qalmış TMİS-də bu məqsədlə açılmış xüsusi bölməyə daxil edərək, elektron imzaları ilə təsdiq edirlər. Daxil edilən məlumatlar Nazirlik yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən 1 (bir) ay müddətində dəqiqləşdirilərək, elektron imzalarla təsdiq olunduqdan sonra kağız dərsliklərə, dərs vəsaitlərinə və digər tədris-metodik vasitələrə olan tələbat proqnozu formalaşır.

4.4. Dövlət peşə təhsili müəssisələri üçün kağız dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri aşağıdakı istifadəyə yararlılıq müddətləri nəzərə alınmaqla həyata keçirilir:

4.4.1. tədris edilən ixtisaslar üçün bütün kağız dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr - ilk buraxılışdan sonrakı beş tədris ili;

4.4.2. tədris edilən ixtisaslar üçün kağız dərslik komplektinə daxil iş dəftərləri - bir tədris ili.

4.5. Dövlət peşə təhsili müəssisələri üçün kağız dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri aşağıdakı tiraj həcmlərində təşkil edilir:

4.5.1. iş dəftərləri hər il istifadəçilərin proqnoz sayının 105 faizi həcmində;

4.5.2. dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr istifadə müddətinin ilk ilində istifadəçilərin proqnoz sayının 105 faizi həcmində, istifadə müddətinin qalan dövründə istifadəçilərin proqnoz sayının 45 faizi həcmində birdəfəlik, yaxud illərə bölünməklə.

4.6. Dövlət peşə təhsili müəssisələri üçün Nazirlik tərəfindən nəşr edilən kağız dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr tədris ilinin başlanılmasına 2 (iki) ay qalmış nəşr edilir və tədris ilinin başlanılmasına 15 (on beş) gün qalmış peşə təhsili müəssisələrinə onların təqdim etdiyi proqnoz tələbat əsasında çatdırılır.

4.7. Dövlət peşə təhsili müəssisələri hər bir istifadəçini tədris ili başlananadək kağız dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr ilə təmin edirlər.

4.8. Dövlət peşə təhsili müəssisələri kağız dərslikləri, dərs vəsaitlərini və digər tədris-metodik vasitələri kitabxana fonduna daxil edirlər.

4.9. Dövlət peşə təhsili müəssisələrində qrifi qüvvədən düşmüş kağız dərsliklər və ya bu Qaydanın 4.4-cü bəndi ilə müəyyən edilən istifadəyə yararlılıq müddəti bitmiş kağız dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik vasitələr köhnəlmiş hesab olunur və kitabxana fondundan "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada çıxarılırlar.

4.10. Bu Qaydanın tələbləri nəzərə alınmaqla bələdiyyə və özəl peşə təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin nəşri həmin təhsil müəssisələrinin öz vəsaitləri hesabına həyata keçirilir.

## Milli Məclisin iclasında

# Azərbaycanın mövqeyi daha da möhkəmlənib



**Dekabrın 26-da parlamentin spikeri Sahibə Qafarovanın Sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti iclası keçirilib. İclasda əvvəlcə cari məsələlərlə bağı müzakirələr aparılıb. Müzakirələrdə komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, deputatlar Əli Məsimli, Etibar Əliyev, Vüqar Bayramov, Tural Gəncəliyev, Hikmət Məmmədov, Sahib Alıyev, Elşad Mirbəşiroğlu, Fatma Yıldırım, Emin Hacıyev, Bəhruz Məhərrəmov, Nizami Səfərov, Razi Nurullayev, Sədaqət Vəliyeva, Elman Nəsirov, Sabir Rüstəmxanlı, Tahir Kərimli, İsa Həbibbəyli, Aqil Abbas çıxış ediblər.**

Deputatlar 2023-cü il dekabrın 25-də ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini yüksək qiymətləndiriblər. Bu baxımdan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un gələn il Azərbaycanda keçirilməsi qərarının beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə göstərilən böyük etimadın bariz nümunəsi olduğunu bildiriblər. Deputatlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin daha da möhkəmləndirildiyini vurğulayıblar, dövlət başçısının uğurlu xarici siyasəti sayəsində ölkəmizin beynəlxalq nüfuzunun durmadan artdığını qeyd ediblər.

Çıxışlarda dünya miqyasında mötəbər beynəlxalq tədbirlərdən biri olan COP29-un ölkəmizdə keçirilməsi kontekstində növbəti ildə ətraf mühitin qorunması istiqamətində tədbirlərin intensivləşməsinin, o cümlədən bununla bağlı qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyindən danışılıb. İclasda "yaşıl enerji" zonasının genişləndirilməsinin əhəmiyyətindən söhbət açılıb. Azərbaycanın öz "yaşıl enerji" potensialından istifadə etməklə regionun enerji təhlükəsizliyinə daha çox töhfə verəcəyi bildirilib. Ölkəmizin iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizədə rolundan bəhs edilib.

Deputatlar COP29-un yüksək səviyyədə keçiriləcəyinə əminliklərini qeyd edərək tədbirin "yaşıl enerji" siyasətimizin dünya ictimaiyyətinə təqdimatı baxımından önəmli platforma olacağını bildiriblər.

Çıxışlarda digər aktual məsələlər barədə də fikirlər və təkliflər səsləndirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova iclasın gündəliyinə 9 məsələnin daxil edildiyini diqqətə çatdırıb. Spiker gündəlikdəki ilk 7 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O, layihənin mətnində dəyişiklik edilmədən müzakirəyə təqdim olunduğunu deyib.

Qanun arbitrajın həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyir, arbitraj sazişinə dair tələbləri, Azərbaycan Respublikasında arbitraj məhkəmələrinin və daimi arbitraj təşkilatlarının təşkili, fəaliyyət göstərməsi, arbitraj icraatının aparılması, arbitraj qərarlarının tanınması və icrası qaydalarını müəyyən edir.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu bildirib. O, bu sənədlərin Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri olduğunu söyləyib.

Bu qanun layihələri barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib. O, bu sənədlərin "Arbitraj haqqında" qanun layihəsi ilə bağlı olduğunu deyib. Deputat həmçinin ikinci oxunuş zamanı qaldırılan məsələyə müzakirələr zamanı və işçi qaydada aydınlıq gətirildiyini bildirib.

Bu qanun layihələri də ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. Bildirilib ki, layihədə adları çəkilən qanunların icrası ilə bağlı bir sıra qanunlarda uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsi nəzərdə tutulur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev məsələ ilə əlaqədar bu komitələrin müsbət rəy verdiklərini söyləyiblər.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. Deputat qanunun 39-cu maddəsində dəyişikliyin nəzərdə tutulduğunu bildirib. Dəyişikliyə əsasən, 39-cu maddədə nəzərdə tutulan vəsaitlərin prokurorluq orqanlarının digər əməkdaşlarının, o cümlədən prokurorluq orqanlarının dövlət qulluqçularının, hərbi prokurorluq orqanlarında qulluq edən prokurorluq işçisi olmayan hərbi qulluqçuların və prokurorluq orqanlarında xüsusi rütbələr nəzərdə tutulmayan vəzifələrdə işləyən mülki işçilərin sosial müdafiəsinə yönəldilməsi mümkün olacaqdır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, ölkə Prezidenti tərəfindən təqdim olunmuş sənəddə qanunun 2.2-ci maddəsində nəzərdə tutulmuş müddətin uzadılması təklif olunur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O nəzərə çatdırıb ki, sənəd "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə ilk məhkəmə iddiası zamanı dövlət rüsumunun azaldılmasını özündə ehtiva edir.

Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova növbəti məsələnin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib və sənədin bir oxunuşda qəbul ediləcəyini diqqətə çatdırıb.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, 2015-ci ildən etibarən bu qanunun 2-ci maddəsində nəzərdə tutulan yoxlamalar istisna olmaqla, sahibkarlıq sahəsində yoxlamaların keçirilməsinə məhdudiyyət tətbiq olunur. Qanun layihəsində yoxlamaların dayandırılması müddətinin 2025-ci il yanvarın 1-dək uzadılması nəzərdə tutulub.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova bildirib ki, sonuncu məsələ Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələrinin bəyanatı haqqındadır. O qeyd edib ki, Milli Məclisin 23 deputatı Qərbi Azərbaycan İcmasının nümayəndələridir. Sahibə Qafarova nəzərə çatdırıb ki, onlar bəyanat hazırlayıblar və bəyanatı Milli Məclisdə səsləndirmək xahişi ilə parlamentin Sədri kimi ona müraciət ediblər. Spiker bəyanatı səsləndirmək üçün Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, deputat Əziz Ələkbərova söz verib.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, deputat Əziz Ələkbərov icmanın bəyanatını oxuyub. Bəyanatda Azərbaycanlıların indiki Ermənistan Respublikası ərazisində əsrlərboyu yaşadığı, təəssüf ki, 200 ilə yaxın dövrdə, xüsusən 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə mərhələ-mərhələ həyata keçirilən etnik təmizləmə nəticəsində azərbaycanlıların Ermənistandan didərgin salındıqları və qətlə yetirildiyi qeyd olunub. Bildirilib ki, Ermənistan ərazisinin azərbaycanlılardan təmizlənməsi başa çatdırıldıqdan sonra 1988-1993-cü illərdə Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınan ərazisinin 20 faizi işğal edilmişdir. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin əldə etdiyi Zəfər nəticəsində dövlətimizin ərazi bütövlüyü və tarixi ədalət bərpa olunmuşdur.

Azərbaycan Respublikasının suverenliyi onun bütün ərazisində bərqərar edildikdən sonra Ermənistanla sülh sazişinin bağlanması üçün artıq heç bir maneə qalmamışdır. Bu il dekabrın 7-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası Baş naziri Aparatının qəbul etdikləri Birgə Bəyanat iki dövlət arasında etimad yaradılması yolunda mühüm irəliləyiş olmuşdur.

Bəyanatın sonunda qeyd olunur ki, Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcmasının nümayəndələri Azərbaycan Respublikası Prezidentinin regionda möhkəm sülh və sabitlik yaradılması və əməkdaşlıq əlaqələri qurulması istiqamətində təşəbbüs və səylərini qətiyyətlə dəstəkləyirlər. İcma nümayəndələri hesab edirlər ki, qərbi azərbaycanlıların indiki Ermənistan ərazisindəki ata-baba yurdlarına qayıdışının təmin edilməsi Azərbaycanla Ermənistan arasında etimad quruculuğunun mühüm vasitələrindən biridir.

İclasda Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələrinin bəyanatı nəzərə alınıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Parlamentdə təmsil olunan Qərbi Azərbaycan İcmasının nümayəndələrinin bəyanatı

**Milli Məclisdə təmsil olunan Qərbi Azərbaycan İcmasının nümayəndələri bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir:**

*"Azərbaycanlılar indiki Ermənistan Respublikası ərazisində əsrlərboyu yaşayıblar. Tarixi sənədlər və xəritələr orada yaşayan əhalinin əksəriyyətinin azərbaycanlılardan ibarət olduğunu, həmin coğrafiyada formalaşmış toponimlərin mütləq çoxluğunun xalqımıza mənsub olduğunu sübut edir.*

*Təəssüf ki, 200 ilə yaxın dövrdə, xüsusən 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə mərhələ-mərhələ həyata keçirilən etnik təmizləmə nəticəsində Ermənistanda bir nəfər də azərbaycanlı qalmayıb.*

*Ermənistan ərazisinin azərbaycanlılardan təmizlənməsi başa çatdırıldıqdan sonra 1988-1993-cü illərdə Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınan ərazisinin 20 faizi işğal edilib. Otuz ilə yaxın dövrdə beynəlxalq birliyin vasitəçiliyi ilə aparılan sülh danışıqları beynəlxalq hüququn normalarına və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin etməyib.*

*2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin əldə etdiyi Zəfər nəticəsində dövlətimizin ərazi bütövlüyü və tarixi ədalət bərpa olunub.*

*İşğalın ağır nəticələrinə baxmayaraq, məhz Azərbaycan Respublikası Cənubi Qafqaz bölgəsində uzunmüddətli sülh və sabitliyin bərqərar olması, beynəlxalq hüququn beş prinsipi, o cümlədən dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında Ermənistanla münasibətlərin normallaşdırılması təşəbbüsü ilə çıxış edib. Təəssüf ki, Ermənistanın son 3 il ərzində törətdiyi hərbi-siyasi təxribatlar sülh danışıqlarına mane olub və bu ilin sentyabr ayında lokal xarakterli antiterror tədbirlərini qaçılmaz edib.*

*Azərbaycan Respublikasının suverenliyi onun bütün ərazisində bərqərar edildikdən sonra Ermənistanla sülh sazişinin bağlanması üçün artıq heç bir maneə qalmayıb. Bu il dekabrın 7-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası Baş naziri Aparatının qəbul etdikləri birgə Bəyanat iki dövlət arasında etimad yaradılması yolunda mühüm irəliləyiş olub.*

*Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələri Azərbaycan Respublikası Prezidentinin regionda möhkəm sülh və sabitlik yaradılması və əməkdaşlıq əlaqələri qurulması istiqamətində təşəbbüs və səylərini qətiyyətlə dəstəkləyirlər. İcma nümayəndələri hesab edirlər ki, Qərbi azərbaycanlıların indiki Ermənistan ərazisindəki ata-baba yurdlarına qayıtması hüququnun tanınması Azərbaycanla Ermənistan arasında etimad quruculuğunun mühüm vasitələrindən biridır. Bu, iki dövlət arasında real barışığın əldə edilməsinə və regionda birgəyaşayış mühitinin yaradılmasına yönələn önəmli addım olacaq".*

# Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarına dair komissiyanın növbəti iclası olub



2023-cü il dekabrın 26-da Azərbaycan Respublikası Baş nazirinin müavini, "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyası"nın sədri Şahin Mustafayevin rəhbərliyi ilə Nazirlər Kabinetində Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 sentyabr tarixli 3488 nömrəli Sərəncamından irəli gələn tədbirlərin həyata keçirilməsi ilə bağlı komissiyanın növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda komissiyanın "2024-cü il üzrə İş planı", "Təhlükə potensiallı obyektlər, eləcə də təhlükə potensiallı obyektlərdə istismar olunan avadanlıqlara, qurğulara və digər alət və vasitələrə dair müasir tələblərə uyğun ilkin qəbul edilməsi zəruri olan texniki reqlamentlərlə bağlı Tədbirlər Planı", "İstifadəyə yararsız və istifadəsi qadağan olunmuş pestisidlər və aqrokimyəvi maddələr, o cümlədən ammonium nitratla çirklənmiş Azərbaycan Respublikasının ərazilərində mövcud problemlərin aradan qaldırılmasına dair Tədbirlər Planı" müzakirə olunaraq təsdiqlənib.

İclasda həmçinin komissiyanın Elektron Məlumat Bazasının (Portalının) formalaşdırılmasına, qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan "Təhlükə potensiallı obyektlər üzrə vahid dövlət reyestri"nin hazırlanmasına, təhlükə potensiallı obyektlərin istismarı sahəsində mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsinə, habelə komissiyanın üzvü olan dövlət orqanlarına (qurumlarına) fəaliyyət istiqamətlərinə aid təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarı sahəsində nəzarətin gücləndirilməsinə dair müvafiq tapşırıqlar verilib.

# Sahibkarlıq subyektlərinin işinin yüngülləşdirilməsinə xidmət edən dəyişiklik

Dekabrın 26-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Sadiq Qurbanov bildirib ki, gündəliyə bir məsələ - "Elektroenergetika haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi daxil edilib.



Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsindən söz açan Sadiq Qurbanov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin həm yerli, həm də beynəlxalq səviyyədə iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə verdiyi töhfələrdən, atılan addımlardan danışıb. O vurğulayıb ki, "yaşıl enerji" Azərbaycanın enerji siyasətinin prioritetidir və ölkəmizin ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması siyasəti beynəlxalq ictimaiyyət tərəfindən təqdir olunur.

Komitə sədri müzakirəyə təqdim olunan qanun layihəsi ilə bağlı bildirib ki, sənəd elektrik qurğularının istismarının sadələşdirilməsi, sahibkarlıq subyektlərinin işinin yüngülləşdirilməsi məqsədilə hazırlanıb və bununla bağlı ətraflı məlumat vermək üçün sözü Energetika Nazirliyinin İqtisadiyyat şöbəsinin müdiri Rauf Qurbanova təqdim edib.

Rauf Qurbanov layihənin gücü 150-200 kVt arasında olan elektrik qurğularının istismarının sadələşdirilməsinə (icazə tələbinin aradan qaldırılmasına), eyni zamanda "Doing Business" reytinq cədvəlində Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasına xidmət etdiyini diqqətə çatdırıb.

Müzakirədə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini Asim Mollazadə, komitə üzvləri İltizam Yusifov, Fatma Yıldırım, Naqif Həmzəyev və Afət Həsənova çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini səsləndiriblər, dəyişikliyin aktuallığından danışıblar.

Deputatlar "Elektroenergetika haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**Dekabrın 26-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2023-cü il 21 dekabr və 23 dekabr tarixli iclaslarının protokolları təsdiq olunub.

Sonra 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliklərin irəli sürülməsi ilə əlaqədar məsələlərə baxılıb. Namizədlikləri özləri tərəfindən irəli sürülmüş Sərvan İdris oğlu Kərimovun, Mətləb Əzizulla oğlu Mütəllimlinin, Abutalıb Qənbər oğlu Səmədovun, Fikrət Hüseyn oğlu Yusifovun, Yusif Qəzənfər oğlu Bağırzadənin, Arzuman Səid oğlu Abdulkərimovun, Yunus İsaxan oğlu Oğuzun və Qulamhüseyn Surxay oğlu Əlibəylinin namizədliyinin irəli sürülməsi təsdiq edilib.

Komissiya öz təşəbbüsləri ilə namizədliklərinin irəli sürülməsi təsdiq olunanlardan səlahiyyətli nümayəndələr təqdim edənlərin müraciətlərinin təmin olunmasına qərar verib.

Xarici ölkə səfirliyinin və media qurumlarının nümayəndələrinin iştirak etdikləri iclasda həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib və cari məsələlərə baxılıb.

QƏRAR № 12/43

### Mərkəzi Seçki Komissiyasının 2023-cü il 21 dekabr və 23 dekabr tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il 21 dekabr və 23 dekabr tarixli iclas protokolları təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/44

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Sərvan İdris oğlu Kərimovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Sərvan İdris oğlu Kərimovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Sərvan İdris oğlu Kərimovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/45

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Mətləb Əzizulla oğlu Mütəllimlinin namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mətləb Əzizulla oğlu Mütəllimlinin namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

## Mərkəzi Seçki Komissiyası Sumqayıtda seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr edilən regional seminar keçirib

Gələn il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə, azad, ədalətli və şəffaf təşkil olunması məqsədilə Mərkəzi Seçki Komissiyası ardıcıl və sistemli şəkildə genişmiqyaslı tədbirlər keçirir.





Seçki iştirakçıları üçün müxtəlif istiqamətləri əhatə edən maarifləndirmə proqramına uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının Hüquq və İnsan Haqları İnstitutu ilə birgə layihəsi çərçivəsində Sumqayıtda seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr edilən regional seminar təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Hüquq və İnsan haqları üzrə mütəxəssislər, Abşeron, Sumqayıt, Quba, Xızı, qərb zonası üzrə dairə seçki komissiyalarının Ekspert qruplarının üzvləri iştirak ediblər.

Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadə "Seçki hüquqlarının pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırması prinsipləri", Hüquq və İnsan Haqları İnstitutunun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin müdiri Vüsalə Muradxanlı "Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququ (1 hissə)" mövzusunda təqdimatlarla çıxış ediblər.

Bildirilib ki, yeni forma və məzmunda ilk dəfə Azərbaycan Respublikası Prezidenti seçkilərində keçirilən tədbir vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılmasına, bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib. Əyani vəsaitlərdən istifadə etməklə mövzular barədə ətraflı məlumat verilib.

Mərkəzi Seçki Komissiyası üzvü Nailə Əsgərovanın, institutun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin təlimçi-eksperti Hamlet Babayevin seçkilərlə bağlı Ekspert qruplarının fəaliyyətlərinin əsasları, kazuslar üzrə praktiki məşğələlər, sınaq testlərin həlli və digər məsələlər ətrafında maraqlı və faydalı çıxışları dinlənilib. Tədbirin praktiki hissəsində seçki qanunvericiliyi və ekspert fəaliyyəti ilə bağlı kazuslar üzrə məşğələlər keçirilib, iştirakçılar sınaq testlərinin həllinə cəlb ediliblər.

Sonda iştirakçılara ilk dəfə olaraq ekspert qrupunun üzvləri üçün hazırlanan, onlara yardımçı olacaq yeni yaddaş kitabçası paylanılıb.

Qeyd edək ki, layihənin proqramına əsasən, növbəti seminar dekabrın 27-də Gəncə və Şəkidə keçiriləcək.

QƏRAR № 12/46

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Abutalıb Qənbər oğlu Səmədovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Abutalıb Qənbər oğlu Səmədovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Abutalıb Qənbər oğlu Səmədovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/47

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fikrət Hüseyn oğlu Yusifovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Fikrət Hüseyn oğlu Yusifovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fikrət Hüseyn oğlu Yusifovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



QƏRAR № 12/48

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yusif Qəzənfər oğlu Bağırzadənin namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yusif Qəzənfər oğlu Bağırzadənin namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yusif Qəzənfər oğlu Bağırzadənin namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/49

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Arzuman Səid oğlu Abdulkərimovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Arzuman Səid oğlu Abdulkərimovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Arzuman Səid oğlu Abdulkərimovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/50

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yunus İsaxan oğlu Oğuzun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yunus İsaxan oğlu Oğuzun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yunus İsaxan oğlu Oğuzun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/51

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qulamhüseyn Surxay oğlu Əlibəylinin namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Qulamhüseyn Surxay oğlu Əlibəylinin namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qulamhüseyn Surxay oğlu Əlibəylinin namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/52

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Abutalıb Qənbər oğlu Səmədovun səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Abutalıb Qənbər oğlu Səmədov səlahiyyətli nümayəndələr təyin etmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Cavid Abutalıb oğlu Səmədov və Könül Yahyabala qızı Səmədova Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Abutalıb Qənbər oğlu Səmədovun səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/53

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fikrət Hüseyn oğlu Yusifovun səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Fikrət Hüseyn oğlu Yusifov səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Xanlar İdris oğlu Quliyev Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Fikrət Hüseyn oğlu Yusifovun səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/54

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yusif Qəzənfər oğlu Bağırzadənin səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Yusif Qəzənfər oğlu Bağırzadə səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Tural İsaq oğlu Hacıqurbanli Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Yusif Qəzənfər oğlu Bağırzadənin səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

QƏRAR № 12/55

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Arzuman Səid oğlu Abdulkərimovun səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Arzuman Səid oğlu Abdulkərimov səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində İlqar Bayraməli oğlu Bayraməliyev Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Arzuman Səid oğlu Abdulkərimovun səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

### QƏRAR № 12/56

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Yunus İsaxan oğlu Oğuzun səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Yunus İsaxan oğlu Oğuz səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Telman Abiəli oğlu Qasımov Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Yunus İsaxan oğlu Oğuzun səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

### QƏRAR № 12/57

### 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qulamhüseyn Surxay oğlu Əlibəylinin səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Qulamhüseyn Surxay oğlu Əlibəyli səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxsin qeydə alınması üçün müvafiq sənədləri 2023-cü il dekabrın 23-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxsin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 53-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Xanoğlan Əlüseyn oğlu Əhmədov Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi təsdiq olunmuş Qulamhüseyn Surxay oğlu Əlibəylinin səlahiyyətli nümayəndəsi kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

### QƏRAR № 12/58

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Aynur Mustafa qızı Süleymanova 27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.
2. Günay Bakir qızı Əsədova 37 saylı Qaradağ, Valeh Zakir oğlu Ocaqverdiyev 110 saylı Balakən, Zülfüqar Cəfər oğlu Cəfərov 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2023*

## *Əziz ƏLƏKBƏRLİ:* "Gələn il Türkiyədə Qərbi Azərbaycan İcmasının tədbirləri keçiriləcək"

**2024-cü ildə Türkiyədə Qərbi Azərbaycan İcmasının tədbirlərinin keçirilməsi planlaşdırılır.**

Bu barədə AZƏRTAC-a açıqlamasında Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli məlumat verib.

O deyib: "Qardaş ölkənin bəzi ərazilərində vaxtilə Qərbi Azərbaycandan köç etmiş soydaşlarımız yaşayırlar. Onlar da bu prosesə qoşulublar. Həmin soydaşlarımızdan bizə müraciətlər daxil olub. İğdır, Qars, İzmir, Manisada festivallar təşkil edəcəyik. İlk tədbirimizin mart ayında keçirilməsi planlaşdırılır".

Cari ildə icmanın gördüyü işlərdən danışan Ə.Ələkbərli bildirib ki, il ərzində qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıdış ideyası ətrafında birləşməsinə nail olunub. Qeyd edib ki, son 200 ildə qərbi azərbaycanlıların başına gətirilənlərlə bağlı həqiqətlər dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. "Bunu sübut edən faktlardan biri də budur ki, Qərbi Azərbaycan İcmasının 8 sənədi BMT-nin rəsmi sənədi kimi qəbul olunub. Əsas məqsədimiz qayıdış ideyasının reallaşdırılmasıdır. Bu istiqamətdə təbliğat işlərimiz davam edir. Bu gün Milli Məclisdə sərginin təşkil olunması da təbliğat işlərinin bir hissəsidir", - deyə icma sədri diqqətə çatdırıb.

Əziz Ələkbərli təbliğat xarakterli tədbirlərin Qərbi Avropada da keçiriləcəyini diqqətə çatdırıb.

## Sumqayıtda "Məşğulluğa dəstək layihəsi"nə dair ictimai dinləmə olacaq

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən və Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa dəstək layihəsi" çərçivəsində Sumqayıt şəhərində ictimai dinləmə keçiriləcək.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi, layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər, proqramın gözlənilən faydaları, müraciət və iştirak qaydalarına dair iştirakçılara ətraflı məlumat veriləcək.

İctimai dinləmə dekabrın 27-si saat 11:00-da Sumqayıtda Poeziya Evinin binasında (Sumqayıt şəhəri, 9-cu mikrorayon, Zülfi Hacıyev küçəsi, 6) keçiriləcək.

# Gənclər və İdman Nazirliyi ilin ən yaxşılarını mükafatlandırıb














Gənclər və İdman Nazirliyi ilin idman yekunları ilə bağlı dekabrın 26-da qala mərasimi təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirə dövlət və hökumət rəsmiləri, federasiyaların rəhbərləri, titullu idmançılar və media nümayəndələri qatılıblar.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva da mərasimdə iştirak ediblər.

Qala mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Sonra Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Mərasimdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov 2023-cü ilin Azərbaycan üçün bir sıra vacib hadisələrlə yadda qaldığını bildirib. Bu il ölkəmizin suverenliyinin tam təmin olunduğunu vurğulayan nazir Azərbaycan Kubokunun 1/8 final mərhələsində Xankəndidə "Qarabağ" və MOİK komandaları arasında keçirilmiş oyunu ən uğurlu idman tədbiri adlandırıb. Azərbaycanın bu il də nüfuzlu yarışlara evsahibliyi etdiyini söyləyən Fərid Qayıbov idmançıların beynəlxalq turnirlərdən çoxlu medallarla qayıtdıqlarını və doqquz Olimpiya lisenziyası qazanıldığını diqqətə çatdırıb. Bu münasibətlə idman ictimaiyyətini təbrik edən nazir qarşıdakı Olimpiya ilində bütün idmançılara uğurlar arzulayıb.

Ümummilli Lider Heydər Əliyevlə bağlı videoçarxın nümayiş olunmasından sonra 19 nominasiya üzrə qaliblərin adları açıqlanıb.

**İlin ən yaxşı qadın idmançısı**

1. Zöhrə Ağamirova (bədii gimnast)
2. Gövhər Beydullayeva (şahmat)
3. İrina Zaretska (karate)

**İlin ən yaxşı kişi idmançısı**

1. Hidayət Heydərov (cüdo)
2. Mixail Malkin (idman gimnastikası)
3. Həsrət Cəfərov (yunan-Roma güləşi)

**İlin ən yaxşı qadın komandası**

1. Bədii gimnastika üzrə milli komanda
2. Şahmat üzrə yığma
3. "Neftçi" basketbol klubu

**İlin ən yaxşı kişi komandası**

1. "Qarabağ" futbol klubu
2. Yunan-Roma güləşi üzrə yığma
3. Tamblinq üzrə milli komanda

**İlin ən yaxşı məşqçisi**

1. Qurban Qurbanov ("Qarabağ")
2. Siyana Vasileva (bədii gimnastika)
3. Rüstəm Alimli (cüdo)

**İlin ən yaxşı hakimi**

1. Nazim Umbayev (cüdo)
2. Sədi Quliyev (güləş)
3. Asif Şirəliyev (güləş)

**İlin ən yaxşı tibbi personalı**

1. Ramin Vəliyev (cüdo)
2. Zaur Abdullayev (boks)
3. Milli İdman Tibb və Reabilitasiya İnstitutu

**İlin ən yaxşı idman federasiyası**

1. Azərbaycan Gimnastika Federasiyası
2. Azərbaycan Cüdo Federasiyası
3. Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası

**İlin ən yaxşı idman klubu**

1. "Ocaq Sport" gimnastika klubu
2. "Sabah" basketbol klubu
3. "Qarabağ" futbol klubu

**İlin ən yaxşı olimpiya idman kompleksi**

1. Quba Olimpiya İdman Kompleksi
2. Şəki Olimpiya İdman Kompleksi
3. Sumqayıt Olimpiya İdman Kompleksi

**İlin ən yaxşı idman qurğusu**

1. Kür Olimpiya Tədris-İdman Mərkəzi
2. Milli Gimnastika Arenası
3. Bakı Su İdman Sarayı

**İlin ən yaxşı Uşaq-Gənclər İdman Məktəbi**

1. Şuşa Uşaq-Gənclər İdman Məktəbi
2. "Ulduz" Futbol Akademiyası
3. Su idman növləri üzrə yüksək idman ustalığı məktəbi

**İlin ədalətli oyun (fair-play) mükafatçısı**

1. Qurban Qurbanov ("Qarabağ" futbol klubu)
2. Azərbaycan Badminton Federasiyası
3. Fariz Hüseynov (cüdo)

**İlin ən yaxşı idman tədbiri**

1. Atıcılıq üzrə dünya çempionatı
2. "Prezident Kuboku 2023" kanoe və avarçəkmə üzrə beynəlxalq reqata
3. Taekvondo üzrə dünya çempionatı

**İlin idman kəşfi**

1. Heydər Əliyev adına İdman Konsert Kompleksinin buz meydançası
2. Xədicə Qədeşova (cüdo)
3. Nicat Abbasov (şahmat)

**İlin ən fəal idman jurnalisti**

1. Zəki Feyzullayev (İdman.biz)
2. Gəray Qiyasov (Real TV)
3. Kənan Hakimov (İctimai Televiziya)

**İlin ən yaxşı idman fotoqrafı**

1. Dilavər Nəcəfov (Gənclər və İdman Nazirliyi)
2. Rüfət Abdullayev (İdman.biz)
3. Zaur Mustafayev (Trend.az)

**İlin ən yaxşı idman filmi**

1. "Stadionlar səssiz olanda"
2. "Qızlara ağ yaraşır!"
3. "Mübariz"

**İlin ən yaxşı idman media qurumu**

1. "CBC Sport"
2. İdman TV
3. İdman.biz

Sonda ilin ən yaxşı 10 idmançısının adları elan olunub:

1. Zöhrə Ağamirova (bədii gimnast)
2. Bədii gimnastika üzrə qrup komandası
3. Zelim Kotsoyev (cüdo)
4. Nikita Simonov (idman gimnastikası)
5. Stend atıcılığı (qarışıq komanda)
6. Hidayət Heydərov (cüdo)
7. Gültac Məmmədəliyeva (cüdo)
8. Leyla Əliyeva (cüdo)
9. Yaşar Nəcəfov (cüdo)
10. Ruslan Lunyov (güllə atıcılığı).

Tədbir bədii hissə ilə davam edib.

# Qlobal liderliyin İLHAM ƏLİYEV nümunəsi

## Xarici dövlət və hökumət başçıları, tanınmış ictimai-siyasi xadimlər tərəfindən Azərbaycan Prezidentinə çoxsaylı doğum günü təbrikləri ünvanlanıb

*Azərbaycanı tarixindəki ən qüdrətli çağına yetirən, torpaqlarımızın 30 illik işğalına son qoyan, üçrəngli bayrağımızı Şuşada, Xankəndidə dalğalandıran Müzəffər Lider İlham Əliyev xalqımıza min illər boyu şərəf duyacağı, qürrələnəcəyi, öyünəcəyi milli qürur xoşbəxtliyi bəxş edib.*

*Buna görədir ki, çoxmilyonlu Azərbaycan xalqı ona Zəfərlər ərməğan edən Qalib Sərkərdə İlham Əliyevə dekabrın 24-də - doğum günündə bir daha minnətdarlığını bildirməyi özünün mənəvi borcu sandı.*

*Xalqımızın sadə üzvlərindən tutmuş yüksək vəzifə sahiblərinə qədər hər kəs, o cümlədən də dünyada yaşayan həmvətənlərimiz dövlət başçısı İlham Əliyevə ardı-arası kəsilməyən doğum günü təbrikləri ünvanladılar, onları Zəfər zirvəsinə daşıyan Müzəffər Liderlərinə sonsuz təşəkkürlərini bir daha izhar etdilər.*

### "Uca Allah Sizi və Azərbaycan xalqını qorusun!"



Prezident İlham Əliyevin doğum günü münasibətilə instaqram səhifəsində paylaşım edən Birinci vitse-prezident Mehriban Əliyeva dövlət başçısına xoş diləklərini bu sözlərlə ifadə etdi:

"24.12.2023. Doğum gününüz mübarək, cənab Prezident! Sizə möhkəm cansağlığı, sevinc və nur, uğur və qələbələrlə dolu uzun ömür arzulayıram! Tanrı Sizə güc və səbir versin! Biz Sizinlə fəxr edir və Sizi çox sevirik! Uca Allah Sizi və Azərbaycan xalqını qorusun!"

Birinci xanımın Prezident İlham Əliyevə səmimi təbrikini həm də xalqımızın öz müdrik başçısına xoş arzularının ümumi ifadəsi kimi də dəyərləndirmək olar.

### Budəfəki təbriklərin məzmunu bir başqadır...

Prezident İlham Əliyevin liderlik qabiliyyəti, qətiyyəti, əzmi, gücü sayəsində ard-arda əldə edilən siyasi, iqtisadi, hərbi zəfərlər Azərbaycanın beynəlxalq nüfuzunu daha yüksək zirvələrə ucaldıb. Bu gün təkcə regional deyil, qlobalmiqyaslı məsələlərdə də Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın mövqeyi və rəyi mütləq nəzərə alınır. Eyni zamanda da ölkəmizin beynəlxalq tədbirlərin keçirildiyi, sivilizasiyalararası dialoqların baş tutduğu vacib platformaya çevrilməsi onun dünyada hansı yüksək mövqeni tutduğunu gözlər önünə sərir.

O da gerçəklikdir ki, nəhəng ölkələrin prezidentləri belə dövlət başçısı İlham Əliyevin müdrik siyasətçi olduğunu dilə gətirirlər, Azərbaycan Prezidentinin nüfuzunun Cənubi Qafqazın sərhədlərini çoxdan aşaraq dünyaya çıxdığını etiraf edirlər.

Bir başqa reallıq isə əksər dövlət başçısının İlham Əliyevin timsalında əziz qardaşa, ən yaxın dosta, ən etibarlı tərəfdaşa malik olduğunu söyləməsidir ki bütün bunlar sözü imzası qədər keçərli olan İlham Əliyev şəxsiyyətinin etibarlı, bütöv, dönməz xarakterini təcəssüm etdirir.

Bu baxımdan doğum günündə Azərbaycan Prezidentinə dünyanın dörd bir yanından dövlət başçıları, mötəbər şəxslər, tanınmış ictimai-siyasi xadimlər tərəfindən təbriklər göndərilməsi heç də təəccüb doğurmadı.

Prezident İlham Əliyevə doğum günü münasibətilə Vətən müharibəsinə qədərki dövrdə də dünyanın hər yerindən yüksək səviyyədə təbrik məktubları gəlirdi, amma Zəfərimizdən sonra bu təbriklərin məzmunu tamamilə dəyişib, fərqli olub. İndiki təbriklər həm də zəfər çalmış Müzəffər Liderə ünvanlanıb.

### V.PUTİN: "Siz haqlı olaraq həmvətənləriniz arasında və ölkə hüdudları xaricində böyük hörmətə maliksiniz"



Bu fikirləri dekabrın 22-də Prezident İlham Əliyevə göndərdiyi doğum günü təbrikində Rusiya Prezidenti Vladimir Putin vurğulayıb. Rusiya Prezidenti onu da qeyd edib ki, İlham Əliyevin rəhbərliyi ilə dost Azərbaycan iqtisadi və sosial sahələrdə əhəmiyyətli uğurlara nail olur, regional və beynəlxalq məsələlərdə mühüm rol oynayır.

Qeyd edək ki, V.Putin dekabrın 24-də İlham Əliyevə zəng vuraraq bir daha təbriklərini çatdırıb.

Prezident İlham Əliyevə təbrik göndərən Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedev məktubunda bildirib ki, bu gün Azərbaycan Respublikası siyasi, iqtisadi, sosial, humanitar və digər sahələrdə böyük uğurlar qazanmağa davam edir: "Dövlət xadimi kimi müdrikliyiniz və zəngin həyat təcrübəniz Sizə respublikada və onun hüdudlarından kənarda böyük hörmət qazandırıb".



Dmitri Medvedev "Sizin Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin və təhlükəsizliyin təmin edilməsində mühüm amil olan Rusiya-Azərbaycan müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə şəxsi töhfənizi xüsusi qeyd etmək istəyirəm" deyərək əmin olduğunu bildirib ki, ölkələrimizə dost olan xalqların maraqları naminə, o cümlədən Qərbin müasir neokolonializm siyasəti ilə mübarizə çərçivəsində dialoqun ardıcıl surətdə inkişafının ciddi perspektivləri var.

### R.T.ƏRDOĞAN: "İki dövlət, bir millət" şüarına əsaslanan bənzərsiz qardaşlıq telləri gələcəkdə də güclü bünövrə olacaq"



Prezident İlham Əliyevə yazdığı təbrik məktubunu "Cənab Prezident, Əziz Qardaşım" müraciəti ilə başlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Zati-alinizin rəhbərliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi nailiyyətlər və beynəlxalq miqyasda get-gedə artan nüfuzu bizim üçün iftixarverici hadisədir" deyə vurğulayıb.

Qardaş ölkənin başçısı onu da bildirib ki, Türkiyə ilə Azərbaycan arasında "İki dövlət, bir millət" şüarına əsaslanan bənzərsiz qardaşlıq və həmrəylik telləri bu günə qədər olduğu kimi, gələcəkdə də münasibətlərimiz baxımından güclü bünövrə təşkil edəcək.

Türkiyə Prezidenti R.T.Ərdoğan dekabrın 24-də Prezident İlham Əliyevə zəng vuraraq bir daha təbrik edib.

### S.CİNPİN: "Çin və Azərbaycan ənənəvi dost tərəfdaşlardır"



Dekabrın 22-də Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevə təbrik məktubu göndərib. Si Cinpin məktubunda bildirib ki, Çin və Azərbaycan ənənəvi dost tərəfdaşlardır. Hazırda Çin-Azərbaycan münasibətləri çox yaxşı və sabit inkişaf edir, siyasi qarşılıqlı etimad daim möhkəmlənir, müxtəlif sahələrdə əməkdaşlıq müvəffəqiyyətlə irəliləyir: "Sizin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi üzrə səylərinizi yüksək qiymətləndirirəm. Ötən ilin sentyabrında biz Səmərqənd şəhərində yeni dövrdə ikitərəfli münasibətlərin inkişafına dair mühüm razılaşmaların əldə olunduğu uğurlu görüş keçirdik".

Çin lideri xüsusi vurğulayıb ki, o Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verir: "Ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli dostluq və əməkdaşlıq münasibətlərini yeni səviyyəyə yüksəltmək üçün Sizinlə birgə səylərimi davam etdirməyə hazıram".

### Ş.MİRZİYOYEV: "Zəmanəmizin görkəmli dövlət və siyasi xadimi"



"Biz Sizi Azərbaycan xalqının vətənpərvər və fədakar övladı, bizə qardaş xalqın müdrik rəhbəri, zəmanəmizin görkəmli dövlət və siyasi xadimi kimi tanıyır və bunu xüsusi olaraq etiraf edirik", - deyə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevə təbrik məktubunda qeyd edib.

Ş.Mirziyoyev bildirib ki, Sizin adınız Azərbaycanda sosial-iqtisadi inkişafın təmin edilməsi, müstəqil dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmləndirilməsi istiqamətində aparılan sistemli islahatlar və genişmiqyaslı dəyişikliklər, ölkənizin sürətli inkişafına yönəlmiş böyük quruculuq işləri ilə sıx bağlıdır: "Xüsusən də Sizin güclü iradəniz sayəsində ölkənizin ərazi bütövlüyünün tam bərpası və tarixi ədalətin bərqərar olunması, sözün əsl mənasında, reallığa çevrildi".



Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevə təbrikində "qardaş Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi və ölkənin dayanıqlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən irimiqyaslı sosial-iqtisadi və ictimai-siyasi dəyişikliklərin böyük uğurları Sizin adınızla sıx bağlıdır" deyə qeyd edib. Qazaxıstan Prezidenti onu da vurğulayıb ki, Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyinin qeyd edildiyi ildə İlham Əliyev respublikanın ərazi bütövlüyünü tam bərpa etməklə ümummilli Zəfərə nail olub: "Əminəm ki, Azərbaycan xalqı Sizin strateji kursunuzu rəhbər tutaraq inamla irəliləməkdə davam edəcək, güclü və çiçəklənən dövlət quruculuğunda yeni-yeni zirvələr fəth edəcəkdir".



Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov İlham Əliyevə yolladığı təbrikində deyib: "Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə hərtərəfli inkişaf yolunda inamla irəliləyir və beynəlxalq məsələlərdə öz nüfuzunu möhkəmləndirir".



Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevə doğum günü təbrikini bu sözlərlə çatdırıb: "Sizin strateji baxışlarınız və rəhbərliyiniz ilə həyata keçirilən səmərəli siyasi və iqtisadi islahatlar Azərbaycanın beynəlxalq nüfuzunu və sabitliyini möhkəmləndirib, xalqın rifahını əhəmiyyətli dərəcədə yüksəldib".



Doğum günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edən Tacikistan Prezidenti Emoməli Rəhmon isə bildirib: "Qardaş Azərbaycan Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda irəliyə doğru inamla addımlamaqda davam edir, regional və beynəlxalq məsələlərdə getdikcə artan rol oynayır.

İnanıram ki, Sizin siyasi kursunuzla irəliləyən Azərbaycan Respublikası qüdrətli və inkişaf edən dövlət quruculuğunda yeni zirvələr fəth edəcək".

### A.LUKAŞENKO: "Şəksiz rəhbər istedadınız sayəsində dövlətin beynəlxalq arenada nüfuzunu möhkəmləndirmisiniz"



Belarus Prezidenti Aleksandr Lukaşenko dövlət başçısı İlham Əliyevə təbrik məktubunda qeyd edib: "Şəksiz rəhbər istedadınız sayəsində milli lider kimi Siz Azərbaycanın səmərəli iqtisadi inkişaf modelini həyata keçirmiş, dövlətin beynəlxalq arenada nüfuzunu möhkəmləndirmisiniz".

Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikov Prezident İlham Əliyevə təbrikində vurğulayıb: "Həyatda baş verən hadisələr hər bir insanın taleyini müəyyən edir - böyük şair Rəsul Həmzətovun bu sözləri Sizin şəxsi taleyinizi, Vətənə xidmət üçün seçdiyiniz həyat yolunuzu tam şəkildə təsdiqləyir. Siz 20 ildən artıq müddətdə Azərbaycan Respublikasına rəhbərlik etməklə, atanız - görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin kursunu layiqincə davam etdirərək xalqınızın əsl liderinə çevrilmisiniz".



Serbiya Prezidenti Aleksandar Vuçiç dövlət başçısı İlham Əliyevə ünvanladığı təbrik məktubunda deyib: "Serbiya Respublikası Azərbaycan Respublikasının beynəlxalq hüququn və BMT-nin Nizamnaməsinin prinsiplərinə əməl etməsi ilə bağlı mövqeyini yüksək qiymətləndirir və bunu həm də ölkənizin bizim ölkəmizin suverenliyi və ərazi bütövlüyünə hörmətinin göstəricisi kimi dəyərləndirir. Əmin ola bilərsiniz ki, bu mövqe qarşılıqlıdır və Serbiya daim Azərbaycanın sadiq və etibarlı tərəfdaşı və dostu olacaqdır".

"2023-cü il - Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ili Azərbaycan və şəxsən Sizin üçün əlamətdar il oldu. Məhz bu il Azərbaycan Respublikasının suverenliyi tam bərpa edildi". Bu fikirləri Ukrayna Prezidenti Volodimir Zelenski Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda qeyd edib. V.Zelenski onu da bildirib ki, Ukraynanı azadlıq, müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizədə dəstəklədiyinə, Rusiya ilə müharibənin humanitar nəticələrinin aradan qaldırılmasında yardıma görə Azərbaycana və şəxsən İlham Əliyevə minnətdardır.



İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn, Xorvatiya Prezidenti Zoran Milanoviç, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Gürcüstanın Prezidenti Salome Zurabişvili, Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Bolqarıstan Prezidenti Rumen Radev tərəfindən də dövlət başçısı İlham Əliyevə təbrik məktubları göndərilib.



Bu təbriklərin hər birində Prezident İlham Əliyevin ötən illərdə yürütdüyü müdrik siyasət sayəsində ölkəmizin hərtərəfli inkişaf mərhələsinə yüksəldiyi, beynəlxalq əlaqələrə birbaşa töhfə verdiyi, Azərbaycanın dünyada artan nüfuzu xüsusi vurğulanıb.

### K.ÖMÜRALIYEV: "Türk dövlətlərinin birliyinə verdiyiniz əvəzsiz töhfə türk dünyasına olan rəğbətinizin göstəricisidir"

Azərbaycan Prezidentinə beynəlxalq nüfuzlu təşkilatların rəhbərləri, tanınmış ictimai-siyasi, mədəni xadimlər də öz təbriklərini çatdırıblar.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Prezident İlham Əliyevə göndərdiyi məktubunda bildirib ki, TDT-nin qurucu dövlətlərindən olan Azərbaycan İlham Əliyevin müdrik rəhbərliyi ilə siyasi və sosial-iqtisadi inkişaf yolunda böyük uğurlar qazanmaqdadır və beynəlxalq arenada öz nüfuzunu durmadan möhkəmləndirməkdədir: "Türk dövlətlərinin birliyinə verdiyiniz əvəzsiz töhfə türk dünyasına olan rəğbətinizin göstəricisidir".

Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Min dövlət başçısı İlham Əliyevə ünvanladığı təbrikində bildirib ki, Siz dəqiq məqsədlərə çatmaq və ölkənizə sədaqət nümayiş etdirməklə peşəkar fəaliyyətinizdə çox uğurlara nail olmusunuz: "Sizin uzaqgörən dövlət xadimi və müdrik lider keyfiyyətləriniz sayəsində Azərbaycan Respublikası böyük inkişaf və tərəqqi əldə edib, beynəlxalq arenada ölkənizin nüfuzu durmadan yüksəlir".



ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik öz təbrikində yazıb: "Mən həmçinin möhtəşəm liderliyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Azərbaycan Sizin rəhbərliyinizlə bir çox sahələrdə mühüm nailiyyətlər əldə edib. Regionda sülhün, sabitliyin və inkişafın təşviq edilməsinə Sizin sadiqliyiniz təqdirəlayiqdir".



TÜRKSOY-un Baş katibi Sultan Raev, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill, türkmən xalqının Milli Lideri, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev, Qazaxıstanın Xalq yazıçısı, görkəmli şair və ictimai xadim Oljas Süleymenov da Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik ediblər.



### Qarabağda qəbul edilən doğum günü təbrikləri...

Bütün bunlar bir daha Müzəffər Lider İlham Əliyevin beynəlxalq arenada tutduğu yüksək mövqeyini, dünyada söz sahibi olmasını, liderlik nüfuzunu göstərir. Dövlət başçısına göndərilən və bəzi nümunələrini gətirdiyimiz bu məktubların hamısının mətnində Prezident İlham Əliyevin şəksiz liderliyi, ölkəmizi şəxsi əzmi və qətiyyəti, eləcə də siyasi iradəsi sayəsində Zəfər zirvələrinə yetirməsi ana xətt kimi keçir.

Və bütün bunlar Azərbaycan xalqının hər bir üzvü üçün fəxr edəcəyi müstəsna hadisələrdir...

O da məxsusi qürurlanacağımız məqamdır ki, xalqımızın ürəyində əbədi sevgi qazanan Qalib Lider İlham Əliyev doğum günü təbriklərini məhz işğaldan azad edilən qədim Azərbaycan torpaqlarında - Şuşada, Xankəndidə, Xocalıda, Ağdamda qəbul etdi və bununla bütün dünyaya bir daha "Qarabağ Azərbaycandır!" ismarışını verdi.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



MÖHTƏŞƏM 20 İL 2003 2023

# İlham Əliyev strategiyası:

## Dəqiq istiqamət, doğru seçim və cəsarət

### Çörçil: "Əsas olan davam etmək cəsarətidir"

Prezident İlham Əliyev Azərbaycan dövlətini məğlubdan qalibə, "yardım alan" statusdan donora, coğrafiyanın küncündən mərkəzinə və kasıb ölkədən "yüksək ortagəlirli ölkə"yə çevirməyi bacardı. Hər bir çətinliyi üstünlüyə çevirməyi bacaran İlham Əliyev bir tərəfdə milli maraqları, digər tərəfdə isə qlobal və regional gündəliyi irəliyə aparır.

Rotşild deyirdi ki, şərait nə qədər gözlənilməz olarsa, güclü liderin də ondan faydalanmaq fürsəti bir o qədər çox olar. Əlbəttə, İlham Əliyevin 20 illik hakimiyyət yolu böyük çətinliklərin aradan qaldırılması ilə yadda qalıb. Çörçil deyirdi ki, "uğur son deyil, uğursuzluq ölümcül deyil: əsas olan davam etmək cəsarətidir." İlham Əliyev strategiyasının bir uğuru da onun davamlılığında və cəsarətindədir.



### Strategiyada passionarlıq və təpər

Hazırda Azərbaycanın canlı orqanizm kimi bərpa etdiyi hissəsi - işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda regenerasiya və reinteqrasiya dövrü yaşanır. Qumilyovun təbirincə desək, passionarlığımız - daxili energetikamız Qarabağ və Şərqi Zəngəzurun inkişaf səbəbi, "Dədə Qorqud" dilində təpərimiz isə daxili enerjini işə çevirən yetənəyimizdir.

Azərbaycan təkcə beşinci nəsil müharibə aparmaqla torpaq bütünlüyünü təmin etməyin çağdaş nümunəsini deyil, həm də ekosid, urbisid və etnosid cinayətlərinə rəğmən postkonflikt quruculuğunu daxili imkanları hesabına və daha yüksək səviyyədə təşkil etməklə quruculuğun yeni bir modelini də ortaya qoydu.

### Böyümə kristalı

Rus yazıçısı Boris Akunin liberalların və dövlətçilərin "dövlət xalq üçündür, yoxsa xalq dövlət üçün?" mövzusundakı klassik mübahisəsinə özü də rasional cavab verir ki, dövlət milli olub xalqa xidmət etməklə, həm də güclü ola bilər. İlham Əliyevin xalq-dövlət münasibətlərində vətəndaşı siyasətin mərkəzinə gətirməklə həm də milli maraqları daim irəli aparması məhz Akuninin görmək istədiyi yanaşmadır.

Azərbaycanda vətəndaş-dövlət-ordu birliyi və resursların bir məqsədə yönəlməsi uğurumuzun açarıdır. Rus iqtisadçısı Aleksandr Qaluşka "Böyümə kristalı" kitabında iki dünya müharibəsindən sonra nüvə və kosmik layihələrin iqtisadi baxımdan necə mümkün olduğunu araşdırır. Müəllifin fikrincə, böyük məqsədlər inkişafın başlanğıc nöqtəsi oldu. Məhz böyük məqsədlər iqtisadi təfəkkürün miqyasını müəyyənləşdirir, resursları məharətlə mobilizasiya edir və səmərəli dövlət idarəçiliyinə yol açır. İlham Əliyevin strateji baxışı bu baxımdan təqdirəlayiqdir.

Qarşıdakı hədəf növbəti 10 ildə Azərbaycan iqtisadiyyatını daha iki dəfə böyütmək və dövlət və cəmiyyət olaraq əldə etdiyimiz nailiyyətləri daha da möhkəmləndirməklə, yeni uğurlara imza atmaqdır. Bunun üçün iqtisadi artımın yüksək trayektoriyaya keçməsi İsrailin sabiq baş naziri Qolda Meyerin dediyi kimi, "alternativsiz seçim"imizdir. İqtisadi artım və digər amillər arasında səbəb-nəticə əlaqələri olmaqla bir-birinə təsir edir, lakin bir həqiqət aydındır ki, Ulu Öndər Heydər Əliyevin ifadəsi ilə desək, "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".

"İqtisadiyyat" ərəbcə "kast" sözündən olub, hədəfə doğru istiqamətlənmək mənasını verir. Şəmsəddin Saminin məşhur "Kamus-ı Türki" lüğətində iqtisadiyyat sözünün iki mənası vurğulanır: mötədil olmaq, orta olmaq və xərcləmədə qənaətcil olmaq. İlham Əliyevin Azərbaycan iqtisadiyyatının hədəflərini müəyyənləşdirməsi sözün kökündən gələn mənanı tamamlayır.

### Bir-birinə işləyən iki rəqib: Azərbaycan və zaman

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında təkcə siyasi və idarəetmə deyil, həm də rəqəmsal, fiziki və biotexnologiyalar tətbiq etməklə zamanla yarışır. Bəli, Qalib Azərbaycan yalnız əsas rəqibi - zamanla rəqabət aparır, amma zamana qarşı deyil. Rəqib olmasına rəğmən heç zaman da Azərbaycana qarşı deyil, onun xeyrinədir.

İlham Əliyev və zaman münasibətləri çox dərindir. Bunu təhlil etmək üçün hakimiyyət, şəxsiyyət və siyasət münasibətləri üzrə görkəmli amerikan alimi Harold Lasvelin baxış bucağına müraciət etmək lazımdır. Onun 1936-cı ildə yazdığı "Siyasətdə: Kim nəyi, nə zaman və necə alır" adlı əsəri daha sonra siyasətin standart tərifini müəyyənləşdirdi. Sonralar 1950-ci ildə amerikan filosofu Abraham Kaplan "Hakimiyyət və Cəmiyyət: Siyasi Araşdırmalar üçün Çərçivə" kitabı ilə Lasvelin yanaşmasını daha da genişləndirdi.

İlham Əliyev bu iki nəhəng amerikan mütəfəkkirin XX əsrin ilk yarısında işlədiyi nəzəriyyəni XXl əsrdə "mən nəyi necə və nə vaxt eləməyi bilirəm" ifadəsilə möhürlədi, praktik nümunə yaratdı.

### Milli prioritetlərimiz və dünyamızın transformasiyası

İlham Əliyevin iqtisadiyyata baxışı klassik müşküllərdən biri - ədalət, səmərəlilik və azadlıq arasında optimal çözümü tapmağa hesablanıb. Los-Ancelesdəki Kaliforniya Universitetinin professoru Oleq İtsxoki bildirir ki, ölkələr müasir dünyada dayanıqlılıq və səmərəlilik arasında seçim edir, üstünlüyü dayanıqlığa verir.

Prezident İlham Əliyevin hakimiyyəti illərində dörd dəfəyə qədər güclənmiş və başlıca milli çağırışların, o cümlədən ərazi bütövlüyünün resurs əsasını təşkil edən milli iqtisadiyyatımız indiyə qədər daha çox dayanıqlığa üstünlük verirdi. Artıq qlobal miqyasda sənaye inqilabından texnoloji inqilaba keçiddə səmərəlilik getdikcə əsas təmayülə çevrilir. Qədim yunan filosofu Heraklit "bir adam eyni çaya iki dəfə girə bilməz" deyəndə ona əsaslanırdı ki, çay da, insan da dəyişir. Əlbəttə, dəyişikliklərin sürəti Heraklitin vaxtı ilə müqayisədə müasir dövrdə inanılmaz dərəcədə artıb. Azərbaycan iqtisadiyyatda yeni qlobal çağırışlara uyğun inkişaf xəttini müəyyənləşdirməlidir.

Prezidentin müəyyənləşdirdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

İlham Əliyev Azərbaycanın iqtisadi inkişaf modelini yerli xüsusiyyətlər nəzərə alınmaqla, amma qlobal trendlərə uyğun tənzimləyir. Məsələn, Meiji islahatları nəticəsində Yaponiya Qərb modelləri üzərində iqtisadiyyatı və dövləti qura bildi, amma milli mədəniyyətini qorudu. Ziya Gökalp yazırdı ki, yaponlar dinlərini və millətlərini mühafizə etmək şərtilə Qərb mədəniyyətinə girdilər. Çin və Cənubi Koreyanın başqalarına bənzəməyən sürətli inkişafı da bəşəri nailiyyətlərlə milli mədəniyyətin sintezi nəticəsində mümkün oldu.

Orta dəhliz və "Şimal-Cənub" dəhlizinin kəsişməsində yerləşən Azərbaycan bir tərəfdən qlobal və regional dəyər zəncirlərinə qoşulur, amma digər tərəfdən də milli təhlükəsizliyini və onun maddi əsası olan iqtisadi suverenliyini qoruyur.

### Sözümüz imzamızdır!

Rəqəmsal transformasiyanın gətirdiyi əsas üstünlüklərdən biri də ictimai münasibətlərin yeni mərhələyə qədəm qoymasıdır. Fransız alimlər Yann Algan və Pierre Cahuc iqtisadi artımın insanların bir-birlərinə və cəmiyyətə olan inamından asılılığını hesablayıblar.

Aydın olub ki, İsveç dünyada inam səviyyəsinə görə ilk yerdədir və əgər bu səviyyədə inam olsaydı, adambaşına düşən gəliri İngiltərədə 7 faiz, Almaniyada 9 faiz, Rusiyada 69 faiz artıra bilərdi. Kouz teoreminə görə, cəmiyyətdə inamsızlıq tranzaksiya xərclərini artırır və iqtisadiyyatı geri çəkir. Mansur Olson da yapon və alman iqtisadiyyatlarının artımında inamın böyük rol oynadığını bildirir.

Etimad və inam bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da inkişaf üçün resursdur. "Sözümüz imzamızdır" deyən Azərbaycan Prezidentinə olan etimad inkişaf üçün şərtdir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması Ulu Öndər Heydər Əliyevin xidmətidirsə, bu amala söykənərək XXl əsrdə Azərbaycanı ərazi bütövlüyünü bərpa etmiş yeganə dövlətə çevirən Prezident İlham Əliyev olmuşdur.

### "Coğrafiyanın intiqamı"nı üstünlüyə çevirmək

Robert Kaplan özünün "Coğrafiyanın intiqamı" əsərində yazırdı: "Biz elə bilirdik qloballaşma "kim kimi məcbur edə bilər?" sualını aradan götürüb, amma bu sual indi ikiqat əhəmiyyətlidir". Biz də Kaplanla razıyıq ki, qloballaşma dövründə coğrafiyanın əhəmiyyətini yaddan çıxarmaq olmaz.

Zamanla ayaqlaşan, bəzən onu qabaqlayan İlham Əliyev həm də məkanın çətinliyini üstünlüyə çevirməyi bacarır. Qoşulmama Hərəkatı, SPECA, Türk Dövlətləri Təşkilatı, CAREC, Şanxay Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə, Avropa siyasi birliyi və başqa platformalarda qazanılan uğurdan sonra COP29 platformasında iqlim diplomatiyamızın qələbəsi təqdirəlayiq idi.

Oyun nəzəriyyəsi əsasında çox oyunçulu oyun dinamikası, "maral ovu" oyunu, ictimai mallar oyunu, təkrarlanan oyunlar və reputasiya, koalisiyanın yaradılması, Nəş tarazlığı, Pareto səmərəliliyi və ardıcıl oyunlar kimi yanaşmaların əsasında aparılan təhlillər göstərir ki, ən mürəkkəb vəziyyətlərdə düzgün diaqnostika, uyğun həll və qətiyyətli siyasət həlledici olub.

### COP29 uğuru: Bulqakovun aforizmi

Azərbaycanın COP29 uğuru "yaşıl gündəlik" və enerji təhlükəsizliyi arasında mürəkkəb balansı qurmağın nə dərəcədə çətin olduğunu göstərir. Üstəlik də nəzərə almaq lazımdır ki, strategiya vakuumda deyil, real həyatda həyata keçirilir və iqlim, texnoloji, humanitar və siyasi palitra dəyişir.

İlham Əliyevin belə mürəkkəbliklər qarşısında, Böyük Britaniyanın sabiq baş naziri və hazırda xarici işlər naziri olan David Kemeronun dililə desək, "vəziyyəti çox yaxşı oxuması" onun əsas üstünlüyüdür. "Master və Marqarita"da Bulqakov belə bir ifadə işlədir: "Heç vaxt heç nəyi xahiş etməyin! Xüsusən də Sizdən güclülərdən!" Əslində, Azərbaycan liderinin düzgün siyasət nəticəsində əsas steykholderləri fakt qarşısında qoyması və nəticə etibarilə milli maraqlara xidmət edən vəziyyət yaratması onun strateq kimi uğurudur.

Azərbaycanın dərin dövlət strategiyası Bulqakovun bu aforizmini nəzərə alaraq özgüvən və öz resurslarına əsaslanmaqla həyata keçirilir. Uzağa getməyək, bizim bölgədə inkişafını xarici böyük güclərdən asılılıq əsasında təmin etmək istəyən dövlətlərin xoş olmayan aqibəti bəllidir.

### "Heydər Əliyev İli" yekunlaşır, lakin Heydər Əliyev siyasəti davam edir!

Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövrü xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir. Prezident İlham Əliyev müstəqilliyi dönməz xarakter almış Azərbaycan dövlətinin ərazi bütövlüyünü təmin etməklə onu "orta güc"ə çevirməyi bacardı.

*Dövlətçilik salnaməmizin qızıl səhifəsini yazmış və azərbaycanlı olması ilə fəxr etmiş Heydər Əliyevin adını daşıyan fonda rəhbərlik etməklə Mehriban Əliyeva bu çətin və şərəfli missiyada Prezident İlham Əliyevin siyasətinə öz töhfəsini verir. 2023-cü il - "Heydər Əliyev İli" yekunlaşır, lakin Heydər Əliyev siyasəti davam edir. Bu siyasətin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı yeni zirvələrə doğru aparır!*

**Vüsal QASIMLI,**
***Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru, professor***



# İlham Əliyev elə bir Ağdam qurur ki...

## Qarabağın ən böyük şəhərinin əvvəlki şöhrəti özünə qaytarılır

Şanlı Zəfərimizdən sonra İlham Əliyevin diplomatik qətiyyəti sayəsində bir güllə atılmadan düşməndən alınan Ağdamı əcnəbi jurnalistlər "Qafqazın Xirosiması" adlandırmışdılar.

Müzəffər Sərkərdə kimi İlham Əliyev Ağdam azad olunduqdan 3 gün sonra 2020-ci il noyabrın 23-də rayona ilk səfəri zamanı onun ürəkdağlayan mənzərəsini bütün bəşəriyyətə təqdim etdi və dünya erməni barbarlığının faşist xislətli simasının bir daha şahidi oldu. Daşı daş üstündə qalmayan Ağdamı bu vəziyyətdə görənlər heyrətə gəlirdilər.

2021-ci il mayın 28-də - Müstəqillik Günündə Ağdama ikinci səfərində rayon ictimaiyyəti ilə görüşdə İlham Əliyev dedi ki, əgər ermənilər ən gözəl şəhərimizi 30 ilə viranəyə çevirmişdilərsə, Azərbaycan cəmi bir neçə ilə burada cənnətməkan yaradacaq: "Elə bir Ağdam quracağıq ki, bu, bütün dünya ölkələrinə örnək olsun".

### Ağdama 6-cı səfər - yeni açılışlar və təməlqoymalar...

Sözü imzası qədər keçərli, dediyini qısa zamanda həyata keçirən Azərbaycan Prezidenti Ağdamda xarüqələr yaradır. Cəmi 3 ildə Ağdamda görülən işlərə nəzər yetirəndə insanın ürəyi dağa dönür.

Dekabrın 24-də İlham Əliyev zəfərimizdən sonra Ağdama 6-cı səfərini (23 noyabr 2020-ci il, 28 may 2021-ci il, 13 fevral 2022-ci il, 4-5 oktyabr 2022-ci il, 2 may 2023-cü il, 24 dekabr 2023-cü il) gerçəkləşdirdi. Hər səfərində Ağdamda müxtəlif sosial-iqtisadi, ictimai-iaşə obyektlərinin təməlini qoyan, açılışını edən dövət başçısı bu dəfə də Ağdamın quruculuğu istiqamətində həyata keçirilən yeni layihələrin təməlqoyma mərasiminə qatıldı, yeni obyektlərin açılışını etdi.

İlham Əliyevlə birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri yenə də zənginliyi ilə yadda qaldı. Dövlət başçısı "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam" qovşaq yarımstansiyasının, uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolunun açılışlarını etdi və Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsi mərasiminə qatıldı. Həmçinin Prezident Ağdam şəhərində dördüncü, beşinci yaşayış komplekslərinin, Qiyaslı, Salahlı, Kəngərli və Baş Qərvənd kəndlərinin təməllərini qoydu, "İmarət" Kompleksində aparılan təmir-bərpa, Ağdam şəhərinin daxili yollarının tikinti işləri ilə tanış oldu.

Ümumiyyətlə, Vətən müharibəsindən sonra İlham Əliyevin tapşırıqlarna əsasən, işğaldan azad olunmuş ərazilərdə dərhal başladılan yenidənqurma və bərpa işləri sürətlə davam edir. Azərbaycan öz hesabına üç ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm quruculuq işləri həyata keçirir. Elə görülən işlərin nəticəsidir ki, Böyük qayıdışın icrası da sürətlə reallaşır.

İşğaldan azad olunan ərazilərimizin baş planlarına uyğun olaraq müxtəlif infrastrukturların icra prosesi da həyata keçirilməkdədir. Ağdamın Baş planı 2021-ci ilin 28 may tarixində təsdiq olunub və ictimaiyyətə təqdim edilib. Baş plan 2040-cı ilədək Ağdam şəhərinin əsas planıdır. Bu plana əsasən, şəhərin coğrafi əhatəsi 3 dəfəyə yaxın artırılaraq 1750 hektar nəzərdə tutulub. Ağdam Azərbaycanda əhalisinin sayına görə 4-cü böyük şəhər olacaq. Bu şəhərdə 100 min əhali yaşayacaq. Ərazidə çoxlu müxtəlif sosial, mədəni, fiziki, iqtisadi infrastruktur obyektləri inşa olunacaq.

Baş planın hazırlanmasında yerli memarlarla yanaşı, xarici ölkələrin tanınmış layihələndirmə institutları da iştirak ediblər. Ağdam şəhərində çoxlu müasir tipli binalar olacaq. Şəhər "ağıllı şəhər" konsepsiyasına uyğun inşa edilir. Şəhərin 20 faizi yaşıllıqla əhatə olunacaq. 4 meşə massivi, 23 şəhərtipli park və şəhərin içində yollar kifayət qədər geniş zolaqlı olacaq. Dünyada ən geniş şəhər küçələrindən biri Lissabon şəhərinin küçələridir, eni 60 metrdir. Ağdam şəhərində iki belə böyük küçə nəzərdə tutulur ki, onun da birinin eni 60 metr, digərinki isə 55 metrdir. Bu o deməkdir ki, küçələr boyu həm yaşıllıq olacaq, həm də avtobus, piyada və velosiped yolları yaradılacaq. Avtomobillərin park edilməsi üçün yerlər çoxluq təşkil edəcək. Yəni elə planlaşdırılıb ki, insanların fərdi maşınları olsa belə ondan istifadə etməyə o qədər də ehtiyac qalmayacaq.

### Ağdam şəhəri həm də "smart şəhər" statusuna sahiblənəcək

Mənfur ermənilərin daşı daş üstündə qoymadığı və görənləri dəhşətə gətirən, "Qafqazın Xirosiması" adlandırılan Ağdam gündən-günə dirçəlir. Rayonun bərpası ilə bağlı kompleks tədbirlər görülür, Böyük qayıdışa möhtəşəm hazırlıq işləri aparılır.

Müstəqillik Günündə rayonun bərpasının başlanğıcını qoyan İlham Əliyev ən müasir Ağdamın qurulacağının və buranın tezliklə modern şəhərə çevriləcəyinin müjdəsini vermişdi. Dekabrın 24-də isə İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri göstərdi ki, tezliklə bura "smart şəhər" statusuna sahiblənəcək.

Ağdama qaz xəttinin çəkilişi layihəsi işlənilir. İçməli suyun gətirilməsi və digər əhəmiyyətli işlər də tezliklə reallaşdırılacaq. Mühüm məsələlərdən biri də Ağdamın yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulmasıdır. Bu baxımdan Bərdə-Ağdam avtomobil yolunun istifadəyə verilməsi əhəmiyyətli imkanlar yaradacaq. Prezidentin göstərişi ilə icrası davam edən Ağdam-Füzuli avtomobil yolu həm Füzuli və Ağdam şəhərlərini, həm də Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək. Bununla Ağdama başqa ölkələrdən gəlmək də asanlaşacaq.

İşğaldan azad olunan bütün ərazilərimizdə tarixi, mədəni, dini irsimizin bərpası yönündə Heydər Əliyev Fondu misilsiz işlər görür. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında fond Ağdamda da bu istiqamətdə mühüm layihələr həyata keçirir.

Prezidentin və Heydər Əliyev Fondunun həyata keçirdiyi işlərlə Ağdamın işğaldan əvvəlki şöhrətinin, ruhunun özünə qaytarılacağına heç bir şübhə yoxdur. Sadalanan işlər onu göstərir ki, Azərbaycan dövləti tarixi Zəfərdən dərhal sonra daha bir tarixi uğuru reallaşdırır və bütün maliyyə, texniki imkanlarını, kadr potensialını səfərbər edərək, işğaldan azad etdiyi torpaqlarını sürətlə dirçəldir, o ərazilərdə əbədi həyatın var olması üçün mühüm işlər görür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan və İranın baş prokurorları Tehrandakı səfirliyə terror hücumu ilə bağlı cinayət işini müzakirə ediblər





**Dekabrın 23-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev ilə İran İslam Respublikasının baş prokuroru Mohammad Kazem Movahedi-Azad arasında videoformatda geniş tərkibli görüş keçirilib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə cari il yanvarın 27-də edilən terror hücumu ilə bağlı cinayət işi üzrə məhkəmə baxışının keçirilməsi, yekun qərarın qəbulunun sürətləndirilməsi və hüquqi əməkdaşlıq mexanizmləri müzakirə olunub.

Bundan başqa, görüşdə iki ölkənin prokurorluq orqanları arasında hüquqi əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb. Görüşdə həmçinin Azərbaycan Respublikasının İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Əli Əlizadə və İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi də iştirak edib.

# Baş Prokurorluğun kollegiya iclası keçirilib



**Dekabrın 26-da baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülən işlər, qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş kollegiya iclası keçirilib.**

Qurumun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında çıxış edən baş prokuror Kamran Əliyev bu ilin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə təsadüf etdiyindən Ulu Öndərin irsini öyrənmək, onu təbliğ etmək və bu irsdən faydalanmaq, onu gələcək nəsillərə çatdırmağın dövlətimizin qarşısında duran vacib məsələlərdən biri olduğunu, təkcə "Heydər Əliyev İli" çərçivəsində deyil, bütün dövrlərdə bunun əhəmiyyətini qeyd edib.

Vurğulanıb ki, bu il ərzində digər dövlət qurumları kimi prokurorluq orqanları tərəfindən də dahi və uzaqgörən dövlət xadiminin mənalı həyatı və Azərbaycanın parlaq gələcəyinə yönəlmiş mükəmməl, çoxşaxəli fəaliyyətindən bəhs edən silsilə tədbirlər, o cümlədən müxtəlif konfrans, "dəyirmi masa", görüş, açıq qapı tədbirləri və sair təşkil olunub, film çəkilib, nəşrlər çap edilib.

Diqqətə çatdırılıb ki, Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsi nəticəsində 30 il ərzində işğal altında olan torpaqlarımız azad edilib, 2023-cü il aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılması və bunun ardınca sentyabrın 19-da başlanılan və 24 saatdan az müddətdə davam edən lokal xarakterli antiterror əməliyyatı ilə Azərbaycanın dövlət suverenliyi bütün ölkə ərazisində bərpa edilib.

Bu il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağının ucaldılması və noyabrın 8-də Xankəndi şəhərində keçirilən Zəfər paradı ilə Prezident İlham Əliyev ərazi bütövlüyümüzün bərpası barədə Azərbaycan xalqına verdiyi sözü, xalqımız qarşısında özünün ən müqəddəs tarixi missiyasını yerinə yetirib.

Tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazılan Vətən müharibəsi və ondan sonrakı zəfərlərin Azərbaycanın regionda və dünyada mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirməklə, dövlətimizin başçısının rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə gerçəkləşən nəhəng və sürətli tikinti-quruculuq, bərpa işləri əbədi azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın əsasını qoyduğu və həmin ərazilərin dirçəlməyə başladığı diqqətə çatdırılıb.

Kollegiya iclasında 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı vətəndaşların hüquqlarının tam şəkildə qorunması, seçki prosesi zamanı hüquqpozmalara yol verildiyi halda qanunla nəzərdə tutulmuş tədbirlərin görüləcəyi xüsusilə vurğulanıb.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidenti tərəfindən 2023-cü il 25 dekabr tarixli Sərəncamla 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ətraf mühitin qorunmasına verilmiş ən böyük töhfə olduğu, növbəti ildə ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransının (COP) əhəmiyyəti vurğulanıb.

Daha sonra ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsində Azərbaycan prokurorluğu tərəfindən digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlərin görüldüyü bildirilib. Xüsusilə əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə cinayətlərinin daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılmasının təmin olunduğu qeyd edilib.

İclasda Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na əlavə və dəyişikliklərin edilməsi, "Elektron Prokurorluq" informasiya sisteminin tətbiqi vəziyyəti, "Azərbaycan Respublikası Prokurorluğunun 2024-2026-cı illər üçün Strateji İnkişaf Konsepsiyası"nın layihəsinin müzakirəsi və təsdiqi məsələsi ilə bağlı Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, cari kadr məsələləri ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov, Qarabağdakı qondarma separatçı rejimin "yüksəkvəzifəli" şəxslərinin barəsində istintaq edilən cinayət işinin hazırkı mərhələsi barədə İstintaq idarəsinin rəisi Nemət Əvəzov məruzələrlə çıxış ediblər.

Aparılmış müzakirələr ətrafında kollegiya üzvləri çıxış edərək təkliflərini bildirib, sonda kollegiyanın qərarı ilə bir sıra məsələ üzrə qərarlar qəbul olunub.

İclasa yekun vuran baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafı istiqamətində prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin yanvar ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının sədri** İnam Kərimov | **Xaçmaz** | Xaçmaz, Şabran | **11** |
| 2. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Samux** | Samux, Gəncə, Kəlbəcər | **12** |
| 3. | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Ağcabədi** | Ağcabədi, Ağdam, Laçın | **12** |
| 4. | **Mədəniyyət naziri** Adil Kərimli | **İsmayıllı** | İsmayıllı, Ağsu, Qobustan, Şamaxı | **12** |
| 5. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Şabran** | Şabran, Xaçmaz | **12** |
| 6. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **12** |
| 7. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala, Biləsuvar | **12** |
| 8. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Siyəzən** | Siyəzən, Xızı | **15** |
| 9. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | **15** |
| 10. | **Baş prokuror** Kamran Əliyev | **Beyləqan** | Beyləqan, Ağcabədi, Füzuli, İmişli, Laçın, Xocavənd | **16** |
| 11. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Gədəbəy** | Gədəbəy, Şəmkir, Tovuz, Qazax, Ağstafa, Daşkəsən | **18** |
| 12. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **18** |
| 13. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Şəmkir** | Şəmkir, Gədəbəy | **18** |
| 14. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl | **23** |
| 15. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Neftçala** | Neftçala, Salyan, Biləsuvar | **25** |
| 16. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Göyçay** | Göyçay, Mingəçevir, Yevlax, Ağdaş, Ucar, Kürdəmir, Zərdab | **26** |
| 17. | **Energetika naziri** Pərviz Şahbazov | **Astara** | Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı | **26** |
| 18. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Xaçmaz** | Xaçmaz, Quba | **26** |
| 19. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Hacıqabul** | Hacıqabul, Şirvan | **26** |
| 20. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Neftçala** | Neftçala, Salyan | **26** |
| 21. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Siyəzən** | Siyəzən, Xızı | **26** |
| 22. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Şəmkir** | Şəmkir, Gədəbəy | **26** |
| 23. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala | **26** |
| 24. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **İmişli** | İmişli, Saatlı, Sabirabad | **26** |
| 25. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Goranboy** | Goranboy, Naftalan, Xocalı | **26** |
| 26. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Göyçay** | Göyçay, Ağdaş, Kürdəmir, Ucar, Zərdab | **30** |
| 27. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Saatlı** | Saatlı, Sabirabad | **30** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2024-cü ilin yanvar ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | **16** |
| **Adil Abış oğlu ƏLİYEV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | **31** |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | **24** |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | **22** |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | **23** |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | **17** |
| **Tahir Famil oğlu MİRKİŞİLİ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | **19** |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | **18** |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | **25** |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | **29** |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | **26** |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | **22** |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | **30** |
| **Fazil Qəzənfər oğlu MUSTAFA** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | **17** |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | **19** |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | **18** |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | **7** |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | **8** |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | **12** |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | **9** |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | **11** |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | **10** |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | **15** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə:**

**Qəbul vaxtı saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**

**Telefonlar: (012) 510-99-38; (012) 492-74-05; (012) 510-89-14**

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Masallı şəhərindəki Heydər Əliyev Mərkəzində Masallı və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.**

DGK-dan AZƏRTAC-a bildirilib ki, komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Masallı və Yardımlı rayon sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub. Qəbul zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov Siyəzən rayonunda vətəndaşlarla görüşüb.

Daha sonra Siyəzən rayonunun Heydər Əliyev Mərkəzinin inzibati binasında keçirilən görüşdə Siyəzən və Xızı rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Vətəndaşların müraciətləri əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub. Hər bir vətəndaşın müraciəti dinlənilib, agentliyin balansında olan avtomobil yolları ilə bağlı şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib.

# Ekologiya və Təbii Sərvətlər Nazirliyində kollegiya iclası keçirilib

**Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2023-cü ilin yekunlarına və 2024-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, iclasda nazirliyin struktur bölmələrinin və tabeli qurumlarının rəhbərləri, eyni zamanda Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini iştirak edib.

Kollegiya iclasında 2024-cü ilin Azərbaycan Respublikası Prezidenti tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ətraf mühitin qorunmasına verilmiş mühüm töhfə olduğu bildirilib və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının növbəti ildə ölkəmizdə keçirilməsi ilə əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub.

Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar keçirilən tədbirlər və ölkə ərazisində yaşıllıq sahələrinin artırılması, eyni zamanda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı görülmüş işlər və gündəlikdə duran digər məsələlər barədə məlumat verilib, ilin yekununa dair hesabatlar dinlənilib.

# İlham Əliyev Qarabağı gülüstana çevirir

## Prezident 4 gün ərzində 4 rayonda müxtəlif obyektlərin açılışını etdi, yeni infrastrukturların təməlini qoydu

**Prezident İlham Əliyevin ötən həftə ərzində Qarabağa səfəri, işğaldan azad olunmuş rayonlarda, kəndlərdə görülmüş işlərlə yerində tanış olması Qarabağ və Şərqi Zəngəzurun bərpasının və keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıtmasının dövlət başçısı üçün prioritet olduğunu bir daha göstərdi.**



Ölkə rəhbəri ad günü ərəfəsində Xocavənd, Xocalı, Ağdam, Şuşa rayonlarında və Xankəndi şəhərində oldu. Prezident Qarabağda bir sıra obyektlərin açılışını da etdi, müxtəlif istiqamətli yeni infrastrukturların təməlini qoydu.

Tarixi Qarabağ və MOİK oyunundan əvvəl Xankəndi stadionunda çıxış edən dövlət başçısı quruculuq işlərinə toxunaraq bildirdi ki, bu torpaqların sahibləri qurub-yaradır, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş bərpa, abadlıq işləri aparılır: "Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq".

Müzəffər Ali Baş Komandanın dediyi kimi, bu gün işğaldan azad olunmuş bütün şəhər və kəndlərimizdə bərpa və yenidənqurma işləri sürətlə gedir. Bütün quruculuq işləri isə əzəli sahiblərinin tezliklə Qarabağ və Şərqi Zəngəzura qayıtmalarına hədəflənib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə quruculuq məsələlərini xüsusi diqqətində saxlayır və vaxtaşırı həmin regiona səfər edərək görülən işlərin gedişatı ilə tanış olur, həm də növbəti mərhələlərlə bağlı tapşırıqlarını verir.

Deputat qeyd edib ki, dövlət başçısı həmçinin keçmiş məcburi köçkünlərin geri qayıtma prosesi, onların həyatının axara düşməsi məsələləri ilə də daim maraqlanır: "Bunun nəticəsidir ki, qısa zamanda artıq azadlığa qovuşmuş 5 yaşayış məntəqəmizdə dörd mindən çox insan yaşayır, 6 orta məktəb fəaliyyət göstərir. Gələn il daha çox yaşayış məntəqələrinə, şəhərlərə, kəndlərə insanlarımız geri dönəcəklər. Doğma yurdlarına qayıdan vətəndaşlarımız təkcə yaşayış yeri ilə təmin edilmirlər, eyni zamanda onların təhsil, səhiyyə məsələləri də həll edilir".

Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara son səfərinə toxunan A.Mirzəzadə qeyd edib ki, dövlət başçısı bölgənin dünya standartları səviyyəsində qurulmasına böyük diqqət ayırır. Səfərlər göstərir ki, bütün məsələlər cənab Prezidentin nəzarətindədir. Dövlət başçısının apardığı siyasət Azərbaycanı daha güclü, daha cəlbedici və insanlarımızın daha yaxşı yaşayacağı bir ölkəyə çevirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Fransa səfirliyinin iki əməkdaşını ölkədən qovdu

**Nə qədər zaman keçir-keçsin, gec-tez düz yol əyri yolu kəsir. Bunun qarşısını almaq qeyri-mümkündür.**

30 ildən çoxdur ki, işğalçı Ermənistana bütün istiqamətlərdə dəstək olan, Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirən Fransa da əyri yollarla Cənubi Qafqaza ayaq açmaq istəyir. Özü də Ermənistanın ərazisindən istifadə etməklə arzusuna çatmağa çalışır. Amma buna nail ola bilmir...

Fransa Avropanın orta göbəyində oturub Cənubi Qafqaza göz dikir. Əyri yollarla bu yerlərə gəlib çıxmağa çalışır. Ermənistandan da bir dayaq yeri, tutacaq kimi istifadə edərək Cənubi Qafqazda özünün hərbi bazasını yerləşdirməyə, necə deyərlər, yerini bərkitməyə can atır. Məqsədinə çatmaq üçün bütün variantlara əl atır. Amma Fransa unudur ki, Cənubi Qafqaza gedən yolun üstündə dünyada söz sahibi olan Azərbaycan var. Qüdrətli Azərbaycan Fransanın Cənubi Qafqaza gedən əyri yollarını qətiyyətlə kəsib. Öz ölkəsinə rəhbərlik edə bilməyən Makronun siyasətini iflasa uğradıb.

Bu günlərdə Qərb mediasında yayılan informasiya Fransanın iç üzünü bir daha açıb ortalığa qoydu. Aydın oldu ki, Fransanın iç üzü ilə astarının heç bir fərqi yoxdu. Astarı üzündən, üzü də astarından betərdi. Çünki hər iki üzündə eybəcərlik, çirkin niyyət, məkrlik və başqa xoşagəlməz cizgilər var. Öz məqsədini nə qədər gizlin saxlasa da, axır ki, üzə çıxdı. Belə ki, Ukrayna, Moldova, Gürcüstan, Azərbaycan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlara cəlb edilmiş Fransa xüsusi xidmət orqanlarının geniş agentura şəbəkəsi Azərbaycanda ifşa olunub. Hər şey Fransa səfirlikdaxili rezidenturasının Azərbaycan ərazisində əslində Fransanın "tərəfdaşı" kimi bilinən ölkələrin nümayəndələrinə qarşı çox arxayın kəşfiyyat əməllərinə görə diqqəti cəlb etməsi ilə başlayıb. Geniş əlaqələrindən istifadə edən rezidentura region ölkələrində fəal hərəkət edərək təsir dairəsini genişləndirməyə çalışıb.

Məlum olur ki, geniş agentura əlaqələrindən istifadə edən fransız rezidenturası Cənubi Qafqaz məkanında fəal hərəkət etməklə yeni məqsədlərini reallaşdırmaq və ölkəsinin təsir dairəsini genişləndirmək yolunu tutubmuş. Xüsusi mənbələrdən əldə edilmiş informasiyaya əsasən aparılmış araşdırma bir-biri ilə əlaqəli məxfi şəbəkəni aşkarlamağa imkan verən olduqca maraqlı faktları üzə çıxarıb. Uzun illər ərzində Fransanın xaricdəki casus şəbəkəsinin ştatdankənar əməkdaşı olmuş şəxslərdən biri, könüllü olaraq Azərbaycan hüquq-mühafizə orqanları ilə əməkdaşlığa təşəbbüs göstərib. Bundan sonra "ifşa əməliyyatı"na başlanılıb. Müəyyən müddət ərzində bir qismi indi və yaxud əvvəllər Azərbaycanda xidmət etmiş, digər qismi dünyanın müxtəlif ölkələrində və nüfuzlu beynəlxalq təşkilatlarında gizli fəaliyyətini davam etdirən Fransanın onlarla xəfiyyəsi aşkarlanıb. Əməliyyatın gedişində Azərbaycan xüsusi xidmət orqanlarına Fransa rezidenturasının, həmçinin Cənubi Qafqazdakı, Yaxın Şərqdəki, Ukraynadakı və Moldovadakı fəaliyyətinə dair təkzibolunmaz dəlil və sənədlər təqdim olunub.

Agentura şəbəkəsinin aşkarlanması Fransanın çirkin məqsədini və amallarını aydın şəkildə bir daha göstərdi. Bu əməliyyat Fransa xüsusi xidmət orqanlarının son 50 ildəki ən böyük ifşası və biabırçılığıdır. Bütün dünya Fransanın iç üzünü gördü, daim çirkin siyasət yürüdən bu ölkəni yenidən tanıdı. Ataların yaxşı bir sözü var: "Özünə umac ova bilmir, qonşuya əriştə kəsir". Bu gün Fransa bax həmin vəziyyətdədir. Makron başçısı olduğu ölkəni idarə edə bilmədiyi halda agentura şəbəkəsi yaradaraq casusluqla məşğul olur. Casus şəbəkəsinin ifşa edilməsi Fransanın təkcə Cənubi Qafqazda deyil, bütövlükdə dünyadakı siyasətinə mənfi təsir edəcək. Bu ölkəyə heç kim inanmayacaq. Biabır olduğunu görən Fransa Prezidenti Emmanuel Makron Xarici Təhlükəsizlik Baş İdarəsinin rəisi Bernar Emyeni vəzifəsindən azad edib. Daxili Təhlükəsizlik Baş İdarəsinə rəhbərlik etmiş Nikola Lerneri isə Xarici Kəşfiyyat strukturuna yeni rəhbər təyin olunub. Guya bu dəyişiklikdən sonra nə olacaq ki?.. Onsuz da dünya Fransaya bələddir. Onun hansı əyri yollarla getdiyini və necə getdiyini görür. Azərbaycan Fransanın bütün məkrli yollarını kəsib dünyaya onun çirkin niyyət və məqsədlərini açıb göstərdi.

Fransa casus şəbəkəsinin ifşası Azərbaycan təhlükəsizlik orqanlarının ayıq-sayıqlığı nəticəsində mümkün olmuşdur. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş təhlükəsizlik orqanlarının peşəkar fəaliyyətindən və əldə etdiyi uğurlardan danışarkən qürur hissləri keçiririk. Onu da qeyd edək ki, İkinci Qarabağ müharibəsindəki Zəfərin qazanılmasında əlahiddə xidmətlərə malik olan bu qurum cəmiyyətimizin təhlükəsizliyinin təminatı, daxildən, eləcə də xaricdən ölkəmizə qarşı yönələn təhdidlərin neytrallaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü iş aparıb. İndi də eyni missiyasını davam etdirməkdədir. Fransanın Azərbaycandakı səfirliyinin rezidentura şəbəkəsinin ifşası da onun peşəkarlığının göstəricisidir.

Fransa Cənubi Qafqazda bu sahədə apardığı pozuculuq fəaliyyətinin cavabını, son zərbəni məhz Azərbaycandan aldı. Makron iqtidarı Bakıda ölkəmizə və digər dövlətlərə qarşı toxuduğu tora özü düşdü. Halbuki Fransa bu tora başqalarını salmaq istəyirdi. Casus şəbəkəsinin ifşa olunması, qarşılaşdığı bu biabırçılıq Fransaya qarşı başqa ölkələrin də etimadını heçə endirdi.

Fransanın atdığı çirkin addımlar iki ölkə arasında olan münasibətləri daha da gərginləşdirdi. Dekabrın 26-da Fransanın Azərbaycandakı səfiri Ann Buayon bu məsələ ilə bağlı Xarici İşlər Nazirliyinə çağırılıb. Fransa səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunduğu Fransa səfirinin diqqətinə çatdırılıb. Həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib və XİN-in müvafiq notası Fransa səfirinə təqdim edilib.

Casus şəbəkəsinin ifşa olunması bir daha sübut edir ki, Fransa hakimiyyəti beynəlxalq qanunvericiliyin tələblərinə məhəl qoymayaraq başqa dövlətlərin daxili işlərinə qarışır, süni surətdə münaqişələr yaradır, qırğınlar törədir. Müxtəlif adlar altında əməliyyatlar keçirərək çirkin niyyət və məqsədlərinə çatmağa çalışır. Artıq Afrikadan Qafqaza kimi bütün fəaliyyət istiqamətləri üzrə Makron rejimi iflasa uğrayıb. Başqa ölkələrdə də uçuruma doğru gedir. Emmanuel Makronun yürütdüyü yanlış siyasət Fransanın dünyada mövqelərinə dağıdıcı zərbələr vurmaqda davam edir. Başqa ölkələrə qarşı çirkin siyasət yürüdən, münaqişələr yaradan, müharibələr törədən, qanlar tökən, xalqları əsarətdə saxlayan Fransa Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü ola bilməz.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Qərbin Serbiyadakı planları iflasa uğrayır

**Planları baş tutmayan "Serbiya Zorakılığa Qarşı" koalisiyası Qərbdən aldığı təlimatlarla indi də tələbələri kütləvi şəkildə küçələrə çıxarmağa çalışır. Qeyd edək ki, may ayında ortaya çıxan qərbyönlü hərəkat son parlament seçkilərində cəmi 23 faiz səs toplayıb.**



Son aksiyalara görə Belqradda bir neçə mərkəzi küçə bağlanmalı olub. Lakin təhlükəsizlik xidmətlərinin iclasında Polis Departamentinin rəhbəri İvitsa İvkoviç deyib ki, hakimiyyət küçələrin, körpülərin və dövlət qurumlarının blokadasına dözməyəcək.

Serbiyanın baş naziri Ana Brnabiç isə Qərbin təlimatları ilə hərəkət edən aksiya iştirakçılarının ssenarisindən danışıb: "Onlar Şəhər Məclisinə hücuma başlayanda "insanların qəzəblənməyə haqqı var" dedilər. Bunun onların xeyrinə olmadığını görəndə, sıralarındakı quldurların "kənar ünsürlər" olduğunu bildirdilər. İndi onlar bu "kənar elementlərin" azad edilməsi tələbi ilə polisə gedirlər".

Belqraddakı iğtişaşlardan bir gün sonra Aleksandar Vuçiç Rusiyanın bu ölkədəki səfiri Aleksandr Botsan-Xarçenko ilə görüşüb. Səfirin sözlərinə görə, Serbiya Prezidenti Qərbin üsyançılara dəstəyinin təkzibolunmaz faktlarına istinad edib və Belqraddakı hadisələrin "rəngli inqilablar" prinsipinə əsaslandığını bildirib.

Ekspertlərin də fikrincə, Serbiyadakı iğtişaşlar Qərbin "rəngli inqilab" ssenarisidir. Bu, Qərbin faktiki olaraq Serbiyaya müdaxiləsidir. Vuçiç hökumətinin xarici siyasətini Qərbin diktəsi ilə qurmaqdan imtina etməsi, Qərb-Rusiya qarşıdurmasında Moskvaya qarşı sanksiyalar siyasətinə dəstək verməməsi, Kosovonun müstəqilliyini tanımaqdan boyun qaçırması baş verən "etirazların" kökündə dayanır.

Məlum olduğu kimi, Qərb tərəfindən Serbiyaya şərt qoyulub ki, Kosovonun müstəqilliyini tanımalı və xarici siyasətdə Avropa Birliyinin bütün təlimatlarına əməl etməlidir. Belqrad isə bundan imtina edib.

Xatırladaq ki, 2000-ci ildə Serbiyada ilk "rəngli inqilab" Prezident Slobodan Miloşeviçi aradan götürmək məqsədi daşıyırdı və indi həmin texnologiyalardan Vuçiçə təzyiq göstərmək üçün istifadə olunur. Serbiya mətbuatı yazır ki, Belqraddakı aksiyaların iştirakçıları arasında ABŞ-nin Mərkəzi Kəşfiyyat İdarəsi ilə sıx əlaqədə olan siyasətçi Srcan Milivojeviç də var idi.

ABŞ-nin USAİD-in vasitəsilə həyata keçirdiyi xüsusi proqramlar göstərir ki, Qərbin diktəsini yerinə yetirməyən ölkələrdə iğtişaşlar törətmək, loyal hakimiyyətlərin qurulmasına nail olmaq cəhdləri artıq ənənə halına çevrilib. Bu təşkilat ABŞ-nin müxtəlif ölkələrdəki təsir mexanizmlərindən biridir. Rusiya ərazisində struktur rəsmi olaraq 1992-2012-ci illərdə fəaliyyət göstərib. 11 il əvvəl Moskva USAİD-i Qafqazda siyasi manipulyasiyada ittiham edib və təşkilatın Rusiyadakı fəaliyyətini məhdudlaşdırıb. Bədnam agentlik postsovet məkanındakı bəzi ölkələrdə fəaliyyətini davam etdirir.

Eyni siyasəti ABŞ-nin NED (MKİ ilə əlaqəli və ABŞ büdcəsindən maliyyələşən fond 1983-cü ildə ABŞ Konqresi tərəfindən yaradılmışdır. O, "demokratiyaya dəstək" adı altında rəngli inqilablar təşkil edir, ABŞ-nin diktəsini qəbul etməyən ölkələrə qarşı çıxır və amerikapərəst şəxsləri hakimiyyətə gətirir) və NDI (ABŞ tərəfindən yaradılmış və inkişaf etməkdə olan ölkələrdə demokratiyanı təşviq etmək üçün Milli Demokratiya Fondu (NED) tərəfindən maliyyələşdirilən təşkilat), habelə Qərb ölkələri vaxtilə Ukraynada həyata keçiriblər və hazırda bu ölkəni faktiki olaraq məhv olmaq təhlükəsi ilə üz-üzə qoyublar. Yüz minlərlə insanın həlak olmasından, əlilə çevrilməsindən, Ukraynanın hərbi və mülki strukturu ciddi zərər çəkdikdən, torpaqları işğala məruz qaldıqdan sonra isə Kiyevə sülh danışıqlarına getməyi təklif edirlər...

Xatırladaq ki, əvvəllər NED Polşada "Solidarnost", keçmiş Çexoslovakiyada "Xartiya 77", Serbiyada "Otpor" müxalifət hərəkatlarını maliyyələşdirib.

Qərbin siyasi dairələri Azərbaycanı da uzun illər ərazilərinin işğalı ilə barışmağa məcbur etmək istəyiblər. Adıçəkilən təşkilatlar eyni ssenari ilə Azərbaycanda da məkrli planlar həyata keçirmək istəsələr də, niyyətləri baş tutmayıb.

Belqraddan gələn son məlumatlara görə, "Serbiyanın Zorakılığa Qarşı" hərəkatı sıralarında getdikcə daha çox çaşqınlıq və qərarsızlıq əlamətləri sezilir. Qərbin bu ölkə ilə bağlı planlarının iflasa uğradığı artıq dəqiqdir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# FHN-in əməkdaşı: "Mexaniki minatəmizləmə vasitələri saatda 1500 kvadratmetrədək ərazini təmizləmə gücünə malikdir"

**"Hazırda işlədiyimiz məsafədən idarə olunan "GCS-200" markalı mexaniki minatəmizləmə vasitəsi ərazilərin işlənməsi, texniki tədqiqat işlərinin aparılması və şəxsi heyətin təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Mexaniki minatəmizləmə vasitəsi iki qoşqudan ibarətdir.**



Bunlar vasitəsilə piyada və tank əleyhinə minaların təmizlənməsi işlərini daha sürətlə həyata keçirmək olur. 10 kiloqram tratil ekvivalenti gücündə partlayışa dözümlüdür. Partlayış zamanı yalnız minatəmizləmə vasitəsinin qarşısındakı hissə zədələnə bilər, digər hissələr heç bir zədə görmür. Onu üç nəfər idarə edir".

Bunu Ağdamda AZƏRTAC-a Fövqəladə Hallar Nazirliyinin (FHN) Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşı, partlayış manqasının mexaniki Şəmistan Əlizadə deyib. O qeyd edib ki, hər iki qoşqu piyada və tank əleyhinə minaları zərərsizləşdirmək üçün nəzərdə tutulub. Filler qoşqusu çınqıllı, daşlı, bərk torpaqlı ərazilərdə işləmək, tiller qoşqusu isə bitki örtüyünün sıx olduğu ərazilərdə və yumşaq torpaqlı ərazilərdə işləmək üçün əlverişlidir. Biri yumşaq torpaq səthini minalardan təmizləmək, digəri isə daşlıq əraziləri minalardan təmizləmək üçün istifadə olunur.

O bildirib ki, gün ərzində yerin relyefindən asılı olaraq saatda 750 kvadratmetrdən 1500 kvadratmetrə qədər ərazini təmizləmə gücünə malikdir.

# FHN-in nümayəndəsi: "Separatçılar ərazilərin minalardan təmizlənməsini əngəlləmək üçün süni maneələr yaradıblar"

**"Erməni separatçılar ərazilərin minalanması prosesini həyata keçirərkən hərbi sursatların təmizlənməsini əngəlləmək üçün müəyyən süni maneələr yaradıblar".**



Bu fikirləri Ağdamda AZƏRTAC-a Fövqəladə Hallar Nazirliyinin (FHN) Xüsusi Riskli Xilasetmə Xidmətinin Mina əleyhinə xüsusi təyinatlı taborunun qərargah rəisi Səbuhi Sarıyev bildirib.

O qeyd edib ki, FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin xüsusi təyinatlı hərbi hissəsi işğaldan azad olunmuş ərazilərimizin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi əməliyyatlarını sürətlə davam etdirir: "İndiyədək Ağdamın bir neçə istiqamətində əsasən yaşayış məntəqələri, su hövzələri, yolların keçdiyi ərazilərdə təmizləmə işləri aparılıb".

S.Sarıyev onu da bildirib ki, mina təmizləmə işləri zamanı bütün minalı ərazilərdə çox sayda metal qırıntıları aşkarlanır: "Bu da minatəmizləmə işlərinin sürətini azaltmağa yönəlmiş addımdır. Belə ki, mina sahəsində bu cür metal qırıntıları detektorda təhlükə siqnalı verir. Siqnal verən maneənin aşkar edilməsi isə xeyli vaxt itkisinə səbəb olur. Lakin bütün maneələrə baxmayaraq, mina təmizlənməsi işlərini sürətlə həyata keçiririk".

# Paşinyana qarşı çevriliş planı hazırlanır

## Separatçılar "mühacir hökumət" şousuna başlayıblar

**Hayastanda revanşist qüvvələr sülh müqaviləsinin imzalanmasının baş tutmaması üçün yenidən fəallaşıblar. Lakin buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Digər tərəfdən, etiraz aksiyalarından yararlanmağa çalışan, ölkədə nüfuzunu itirən keçmiş hərbi xunta nümayəndələrinin sərsəmləmələrinə ictimaiyyət də önəm vermir.**

Son vaxtlar isə separatçı-revanşist ünsürlər yeni "mühacir hökumət" şousuna başlayıblar. Qeyd edək ki, hakimiyyət təmsilçiləri sülh müqaviləsinin imzalanması ilə bağlı ara-sıra müsbət açıqlamalar versələr də, 2023-cü il ərzində bu, əməldə hiss olunmadı. Son günlər Hayastan tərəfi yenə də sülh tərəfdarı olduğunu bəyan edir, hətta müqavilənin 15 günə imzalanmasını mümkün sayan açıqlamalar da verir, ancaq işə gələndə bunun tam əksi görünür.

Belə bir ərəfədə Qarabağ separatçılarının keçmiş lideri Samvel Şahramanyanın qondarma qurumu buraxdığı barədə qərarını ləğv etməsi və Hayastanın buna qarşı sərt addımlar atmaması gündəm olub. Doğrudur, baş nazirin aparat rəhbərinin müavini Taron Çaxoyanın açıqlamasında deyilir ki, Hayastanda fərman imzalayan ikinci şəxs ola bilməz və yoxdur.

Hakim "Mülki Müqavilə" fraksiyasının katibi Artur Hovhannisyan feysbukda paylaşım edərək yazıb ki, Samvel Şahramanyan kimdir ki, İrəvanda fərman imzalasın: "Hayastanı yeni hərbi təxribata cəlb etməyə çalışanların bütün planları alt-üst olacaq, müəllifləri ciddi şəkildə cəzalandırılacaq".

Xatırladaq ki, İrəvanda separatçıların ofisi indiyədək bağlanmayıb. S.Şahramanyan başda olmaqla bütün separatçılar yanvarın 1-dən İrəvandakı fəaliyyətlərini dayandırmalıdırlar.

Separatçı Şahramanyanın yenidən "dil"ə gəlməsi isə onun ağlının və iradəsinin məhsulu sayıla bilməz. Bu işin arxasında keçmiş hərbi xunta başçılarının olduğu sirr deyil. Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən ölkədə yığılıb qalmış ağır problemlər hazırkı hakimiyyəti çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb. Lakin Sarkisyan-Koçaryan koalisiyası hakimiyyətə gəlmək üçün xaricdən, indiki halda Rusiyadan yardım almaq ümidlərini hələ də itirməyiblər.

"4rd.am" nəşri yazır ki, Hayastanda hakimiyyət çevrilişi istisna olunmur: "Məlumata görə, danışıqlar prosesi ilə paralel olaraq müxtəlif platformalarda başqa diqqətçəkən müzakirələr də aparılır. Diplomatik mənbələrdən alınan məlumatlara görə, xüsusən də Qərb Azərbaycanla Hayastan arasında sülh müqaviləsinin imzalanacağı təqdirdə Nikol Paşinyanın hakimiyyətdə qalmasının çox ciddi problemə çevrilə biləcəyini düşünür. Həmin siyasi dairələr başa düşürlər ki, müqavilə imzalanandan sonra Paşinyanı hakimiyyətdə saxlamaq nəinki qeyri-mümkün ola, həm də məqsədəuyğun olmaya bilər. Buna görə də onlar "B planı" tapmağa çalışırlar".

Bunlar Hayastanın üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir və ölkənin indi daha böyük sürətlə öz məhvinə doğru sürükləndiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Jurnalist araşdırması

# AYNA niyə əyri göstərir?

## Göydə peyklərimiz uçsa da, yerdə hələ də parkinq problemimiz var

Avtomobil tıxacları, hərəkət sıxlığı, parkinq problemləri artıq bütün dünyanın, xüsusən də meqapolislərin ümumi qlobal çətinlikləridir. Və bu problemin həlli yolları təəssüf ki, heç də həmişə uğurlu alınmır. Yalnız şəhərsalmayönümlü araşdırma qurumları deyil, elə analitik beyin mərkəzlərinin də bu qlobal fəsadın aradan qaldırılması istiqamətində onilliklər boyu apardıqları təhlillər və irəli sürdükləri təkliflər istənilən nəticə vermir.

Xarici ölkələrdə böyük şəhərlərə giriş-çıxışlarda bəzən günlərlə davam edən tıxaclardan başlayaraq kiçik şəhərlərdə belə hərəkət sıxlıqlarının və avtomobil parkinqi çətinliyinin yaşanması artıq insanları ümidsiz vəziyyətə salır.

### Qlobal problemin lokal fəsadları

Azərbaycanın paytaxt şəhəri də uzun illərdir tıxac probemi ilə üzləşib. Mütəxəssislər bu problemin əsas mənbəyinin nə qədər təəccüblü olsa da, məhz iqtisadi-sosial inkişafdan qaynaqlandığını qeyd edirlər. Belə ki, əhalinin sayının artması, eləcə də gəlirlərinin yüksəlməsi nəticəsində avtomobil sahiblərinin çoxalması, yəni iqtisadi inkişafın demoqrafik və rifah təsirləri həm də belə problemi yaradır.

Ancaq bu problemin aradan qaldırılması istiqamətində Prezident İlham Əliyevin qətiyyətli mövqeyi, konkret tapşırıqları, imzaladığı sərəncamlar "yol xəritəsi" funksiyasını daşıyır. Prezident göstərişlərinin icrası prosesində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, xüsusən də Bakı Şəhər İcra Hakimiyyətinin fəaliyyəti qənaətbəxş hesab oluna bilər.

Lakin problemlər hələ də qalır. 15-20 dəqiqə hərəkət sıxlığı ilə üzləşənlər başqa ölkələrdə saatlarla tıxacda qalanlara baxıb təsəlli tapsa da, yenə də itirilən vaxt tarım olan əsəbləri daha da gərginləşdirir…

Tıxacların yaranma səbəblərindən biri də paytaxtda parkinq durumunun acınacaqlı mənzərəsidir. Bu problemlə də bağlı dövlət başçısının müvafiq tapşırıqları olmuş, bir müddət öncə onların icrasına başlanılmışdır.

Bakının parkinq problemi isə hələ də həllini tapmır. Təəssüf ki, yeni sistem özü ilə bərabər yeni problemlər də gətirir. Ancaq araşdırmalarımız sübut edir ki, Prezidentin və müvafiq dövlət qurumlarının bu istiqamətdə həyata keçirdikləri tədbirlər düzgün icra olunsa, problemlərin böyük qismi həll oluna bilər.

Məsələn, parkinq xidmətini təşkil edən sistemdəki kütləvi yanlışlıqlar, fərdi parklanma talonlarının verilməsindəki çoxsaylı nöqsanlar, bu xidmətə ödəmələrdə yaranan çətinliklər, mobil tətbiqin funksionallığının yetərincə olmaması, yeni informasiya texnologiyalarından istifadə edə bilməyən əhalinin yaşlı qrupuna alternativ variantların təklif edilməməsi və bu kimi xeyli problem vətəndaşlarımızın hər gün, hər saat üzləşdikləri çətinliklərdir. Xatırladaq ki, bu xidməti təşkil edən qurum AYNA - Azərbaycan Yerüstü Nəqliyyat Agentliydir.

### "Parklanma yerləri düzgün təyin olunmayıb, tətbiqetmə işləmir..."

Son günlər KİV-də, sosial şəbəkələrdə parkinq sistemilə bağlı yeni problemdən şikayətlər kütləvi hal alıb. Sistem üzərindən ödənişi edən sürücülərə növbəti dəfə ödəniş tələbi ilə bağlı mesajlar gəlir. Sistem avtomobil sürücüsünün məbləği ödəmədiyini göstərir və ona cərimə yazılır. Təbii ki, problemlə üzləşən zaman məsələni yerindəcə həll etmək üçün ilk olaraq xidmət göstərən qurumun qaynar xətti ağla gəlsə də, bu da çarə olmur. Çünki AYNA-nın qaynar xətti əlçatmaz ünvandır. Zəng vuranlara hətta sırada 1-ci olduqları deyildiyi halda belə cavab verən kimsə tapılmır. Birinci sıradakının zəngi belə "sürətli cavablandırılıb", "həll edilirsə", sıradakı digər növbələrin şikayəti necə dinləniləcək? Ən əsası isə dinlənilsə belə problem həll olunacaqmı? Bu barədə bir qədər sonra…

Sürücülərin digər şikayətlərindən biri də yaşayış məntəqələri üzrə fərdi parklanma talonlarının verilməsi ilə bağlıdır. Ərazidə parklanma məntəqəsi olduğu halda vətəndaşlara həmin ərazidə "Azparking"in fəaliyyət göstərmədiyi bildirilir. Yəni bu məntəqələr kənar sürücülər üçün xidmət göstərir və pul yığılır, ancaq sistem onu pulsuz istifadə üçün göstərmir?

Sürücülərin əvvəlki "parkofşik"lərdən çəkdiyi azmış kimi, indi də "Azparking"in əməkdaşlarının sürücülərlə sərt, kobud davranışı ilə bağlı narazılıqlar artıb. Əslində, yeni əməkdaşlar prosesi bilən, sürücünü düzgün istiqamətləndirən, səbirli, təmkinli olması ilə seçilməlidir. Amma görünən odur ki, nəzarətçilərin öz vəzifələrinin icrası ilə bağlı hazırlıqları yoxdur, həmçinin onların psixoloji durumunun, kommunikasiya bacarıqlarının yetərincə olmaması səbəbindən ünsiyyətdə ciddi problemlər ortaya çıxır.

Sadaladıqlarımız bir daha göstərir ki, şikayətlərin, problemlərin sayı çox olsa da, nə məsələyə baxan var, nə də problemin həlli istiqamətində çalışan. "Azparking"dən narazılıq edən bəzi sürücülərin rəylərinə diqqət etsək, yerinə düşər. Xüsusi vurğulamaq istərdik ki, bu şikayətlər sürücülər tərəfindən birbaşa olaraq "Azparking"in rəsmi sosial şəbəkə səhifələrində yerləşdirilib:

…"Bu qədər şikayət var, yenə nəticə çıxarmırsız. Parklanma yerləri düzgün təyin olunmayıb, tətbiqetmə işləmir, işçiləriniz yalnız şəkil çəkməklə məşğuldur, heç bir suala cavab vermirlər"; "Üç dəfə zəng edib bildirdim ki, fərqlənmə talonuma düz baxılsın. Nə cavab zəngi gəldi, nə baxıldı. Elə yazırlar ki, sizin ərazidə "Azparking" fəaliyyət göstərmir. Amma axı var", "Bir saatdır parklanmadan çıxıb, xidməti sonlandırmışam, hələ də məni parklama məntəqəsində göstərir və pul da yazır. Zəng eləyib 1 saat gözləyirəm", "Əvvəl özüm saat seçirdim, indi "manual" qoymusuz ki, özün "stop" elə. "Stop" etməmişəm, 15 dəqiqə dayanacaqdım. 5 AZN pul çıxıb. Camaatın cibinə girirsiz. Hanı pulsuz 15-20 dəqiqə saxlamaq bəs?", "Parklanmaların yanına terminal qoyun! Kartla, konturla, proqramla ödəniş nə deməkdir? Hamıda gərək internet olsun ki parklanmadan istifadə etsin?", "Nəqliyyat vasitəmi məntəqədən götürəndə bank kartı ilə borcumu ödəmişəm, lakin "Azparking"in əməkdaşı yaxınlaşıb vəsaitin doğru yerə ödənilmədiyini bildirib. Əlavə olaraq "Azparking" mobil tətbiqindən ödədim, lakin hər dəfə əməliyyat baş tutmadığı haqda mesaj aldım. Sonunda parklanma məntəqəsindən çıxdım. Sonradan kartımdan 2 manat əvəzinə, 12 manat silindiyini gördüm. Bu tətbiq düzgün işləmirsə, niyə camaatı ondan istifadə etməyə çağırırsız?"...

### Dərdini deməyə kimsə tapılmazsa...

"Azparking"in rəsmi sosial şəbəkə səhifələrində xidmətin keyfiyyətsizliyi, "Azparking" əməkdaşlarının kobudluğu, ödəmə üsulundakı yanlışlıqlar və digər çoxsaylı problemlərlə bağlı saysız-hesabsız şikayətlərə rast gəlmək mümkündür…

Təbii ki, yeni tətbiq edilən hər bir işdə problemlər yarana bilər. Amma problemlərin aradan qaldırılması üçün bu istiqamətdə monitorinqlər aparılmalı, istifadəçilərin rəyləri, şikayətləri qeydə alınmalı, araşdırılmalıdır ki, zamanla hər biri öz həllini tapsın. Doğrudur, hamısının həlli mümkün görünməsə də, böyük qismini aradan qaldırmaq olar. Amma məsələnin kökündə elə bu şikayətlərin nəzərə alınmaması, yəni sürücülərin dərdini deməyə heç kimi tapa bilməməsi, zənglərinin, məktublarının cavabsız qalmasıdır.

Mobil tətbiqin zamanla təkmilləşdirilməsi, xidmət keyfiyyətinin yüksəlməsi, əməkdaşların daha təcrübəli olması tələb olunsa da, təəssüf ki, proses daha da geriyə gedir. Xüsusən mobil tətbiqlə bağlı şikayətlər baş alıb gedir. Məsələn, 15 dəqiqəlik limiti sürücünün özü seçə bildiyi halda indi bu funksiyanın olmaması təəccüb doğurur. Bundan başqa sistemin və əməkdaşların hələ də harada parklanma ərazisi olub-olmadığını bilməməsi də sual doğuran məsələlər arasındadır.

### Qanun nağd və kartla ödənişi də tələb edir, AYNA isə…

Texnologiyalar nə qədər inkişaf etsə də, hər zaman əhalinin bütün təbəqələri, eyni zamanda yaşlılar da nəzərə alınmalıdır. Yaşlı insanların heç də hamısı smartfon tipli telefonlardan istifadə etmir, yaxud da mobil tətbiqetmədən faydalana bilmir. Bu qrup insanlar üçün heç bir alternativ vasitə təklif edilmir.

Və bu alternativ vasitəni tələb etmək yalnız vətəndaş istəyi deyil, bu, hüquqi tələbdir - Azərbaycan Prezidentinin təsdiq etdiyi "Yol Hərəkəti Haqqında" Azərbaycan Respublikasının Qanununun tələbidir!

**Belə ki, qanunun "Parklanma" adlanan 53-cü maddəsinin XI bəndində aydın göstərilir: "Parklanma yerləri ödənişli və ödənişsiz ola bilər. Parklanmaya görə ödəniş parkomat (nağd qaydada və ya plastik kartla), SMS, elektron ödəmə sistemləri və ya internet vasitəsilə həyata keçirilir".**

Yəni Azərbaycan Respublikasının Qanunu bütün parkinqlərdə nağd və kartla ödəniş qəbul edən parkomatların vacibliyini birmənalı tələb edir. Göründüyü kimi, Prezident vətəndaşların bütün yaş qruplarını, onların texniki vasitələrdən istifadə imkanlarını əvvəlcədən nəzərə alır və bunu müvafiq qanunda konkret bəndlə əks etdirir. Ancaq AYNA isə…

Yeri gəlmişkən, yuxarıda toxunduğumuz problem - ödənişdə yaranan anlaşılmazlığa görə sürücüyə cəza verilməsi prinsipi də "Yol Hərəkəti Haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir!

Qanunun 53-cü maddəsinin XVII bəndində bu problemin hüquqi həlli aydın göstərilir: **"Parklanmaya görə ödəniş zamanı parkomatlarda baş vermiş texniki nasazlıq səbəbindən ödənişin həyata keçirilməsi mümkün olmadıqda, nəqliyyat vasitəsinin istifadəçisi ödəniş etmədən parklanma yerini tərk edir. Bu halda nəqliyyat vasitəsinin istifadəçisi parklanmaya görə ödənişin edilməməsinə görə məsuliyyət daşımır. Ödənişin edilməsinin mümkünsüzlüyü barədə məlumat dərhal müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə ötürülür".**

Parkinqlərdəki problemlərlə bağlı AYNA-ya verdiyimiz sorğunun cavabında bildirildi ki, Bakı şəhərində 17 mindən artıq parklanma yeri təşkil edilib. Xidmətdən daxil olan vəsaitin həcmini açıqlamağa ehtiyac duymayan qurumun xərclərin istiqaməti barədə verdiyi cavab da deklorativ oldu: *"Parklanma yerlərindən daxil olan vəsaitdən parklanma yerlərinin idarə olunması və saxlanılması, parklanma ilə əlaqədar yol infrastrukturu xərclərinin ödənilməsi, yol hərəkətinin təşkilinin texniki vasitələrinin tətbiq edilməsi, işçilərin sosial müdafiəsinin gücləndirilməsi və s. istiqamətlər üzrə istifadə olunur".*

*Vətəndaş müraciətləri ilə bağlı AYNA-nın cavabı da konkret olmadı: "Sistem yeni tətbiq olunduğundan bəzi hallarda müəyyən anlaşılmazlıqlar yarana bilər. Bu cür məsələlərin minimuma endirilməsi üçün sistemin mütəmadi olaraq təkmilləşdirilməsi istiqamətində tədbirlər görülür".*

### Terminallar niyə yoxa çıxıb?

Prezident siyasətinin əsas qayəsi odur ki, bütün qurumların fəaliyyəti faydalı, səmərəli və əhali üçün əlçatan olsun. Son illərdə dövlət orqanlarında aparılan islahatlar, elə AYNA-nın tabe olduğu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyətində əldə olunan keyfiyyət dəyişikliyi cəmiyyət tərəfindən müsbət qiymətləndirilir və rəsmi dövlət qəzeti olan "Azərbaycan" bu sahədəki irəliləyişləri daim geniş işıqlandırır.

Ancaq onun da fərqindəyik ki, göydə peyklərimiz süzsə də, yerdə hələ də parkinq problemimiz var…

Əlçatanlıqdan söz düşmüşkən, problemlə üzləşənlər yalnız şəxsi avtomobili olan sürücülər deyil, eləcə də avtobuslardan istifadə edən sərnişinlərdir. On minlərlə sürücü ilə müqayisədə yüz minlərlə sərnişinin problemi daha




qabarıq görsənir. Onların narazılığı isə "Bakıkart"ların balansının artırılması ilə bağlıdır. Belə ki, avtobusa ödəmə üçün istifadə edilən "Bakıkart"ın hesabının artırılması üçün dayanacaqlara yerləşdirilən ödəmə terminalları yoxa çıxıb. "Bakıkart" balansının artırılması "MilliÖn" aparatlarına inteqrasiya olunduğu üçün əvvəllər müəyyən avtobus dayanacaqlarında bu terminallar var idi. İndi isə həmin aparatları tapmaq müşkülə çevrilib. Sərnişinlər məcburiyyət qarşısında qalaraq metro stansiyalarına üz tuturlar.

Məsələn, Yasamal rayonunda Mətbuat prospekti, eləcə də Abbas Mirzə Şərifzadə küçələrindən 20 Yanvar dairəsinə qədər olan dayanacaqların heç birində ödəmə terminalı yoxdur. "MilliÖn" aparatlarını indi ancaq böyük supermarketlərdə tapmaq mümkündür. Hətta aparatı tapdıqda belə problemlə üzləşilir. Çünki ödəmə terminalında digər xidmətlərlə bağlı ödəmələr mümkün olduğu halda "Bakıkart" balansının artırılması bölməsi olmur. Belə olan halda vətəndaş uzun məsafə qət edib hansısa metro stansiyasına üz tutmaq məcburiyyətində qalır.

Bu istiqamətdə yaradılan yeganə imkan balansın onlayn şəkildə, yəni mobil tətbiq vasitəsilə artırılmasıdır. Amma müşahidələr göstərir ki, bu xidmətdən yalnız yeni texnologiyalardan anlayışı olan şəxslər istifadə edə bilirlər. Hətta yeni texnologiyalardan istifadə edən gənclərin əksəriyyətinin belə bu tətbiqdən xəbəri yoxdur. Yəqin ki, əsas səbəb bu istiqamətdə kifayət qədər təbliğat və təşviqat işinin aparılmamasıdır. Bu da bir yana, axı mobil telefondan yalnız danışıq üçün istifadə edən orta və yaşlı nəslin nümayəndələri bundan necə yararlana bilərlər?!

Məsələ ilə bağlı AYNA-dan da münasibət öyrəndik. Agentlikdən sorğumuza cavab olaraq bildirildi ki, "BakıKart"a məxsus ümumilikdə 179 ödəmə terminalı sərnişinlərə xidmət göstərir. Ödəmə terminallarının ərazidən götürülməsi ilə bağlı isə bildirilib ki, bu proses terminalların aid olduğu operatorlar tərəfindən həyata keçirilir və daha çox texniki xarakter daşıyır. Hər hansı kənar müdaxilə nəticəsində terminal yararsız hala düşdüyündən təmir məqsədilə ərazidən götürülür.

Sual yaranır, əgər bu qədər terminal varsa, bəs təkcə Yasamal rayonunun yuxarıda adları çəkilən küçələrindəki 42 dayanacaqda niyə 1 terminal belə yoxdur?!

Deməli ki, "təmir" adı ilə dayanacaqlardan götürülən terminallar bir daha geri qaytarılmır. Təbii ki, bütün bunlar da sərnişinlərin haqlı narazılığına səbəb olur. Vətəndaş kartının balansını artırmaq üçün yaxınlıqda olan hansısa metro stansiyasına və ya böyük markete yollanmağa məcbur qalır. Bu da vaxt itkisi, eyni zamanda insanda gərginlik yaradır.

### AYNA-nın cavab verməditi suallar...

AYNA-nın səlahiyyətində olan məsələlərlə bağlı ortaya çıxan problemlərin, şikayətlərin yalnız kiçik qisminə toxunduq. Təəssüf ki, qurum ən yaxşı halda yalnız şikayəti dinləməklə kifayətlənir. Problemin aradan qaldırılması isə aylarla uzanır.

Məsələn, elə ötən araşdırma yazısında toxunduğumuz bir məqama diqqət yetirək. Qəzetimizin əməkdaşı İ.Hüseynlinin fərdi parklanma talonunun əldə edilməsi ilə bağlı yaşadığı problem bir neçə ay ötsə də, hələ də həllini tapmayıb. Bununla bağlı agentlikdən qəzetimizə məktub daxil olsa da, AYNA-nın cavabı, verdiyi rəy həqiqəti əks etdirmirdi. Çünki əməkdaşımızın ilk müraciətində agentlik tərəfindən öncə fərdi parklanma talonunun uyğun olmadığı bildirilərək müraciəti ləğv olunmuşdu. Bildirilmişdi ki, bu ünvanda ümumiyyətlə parklanma məntəqəsi mövcud deyil. Lakin əməkdaşımızın israrlı tələbi və real əsaslandırmasından sonra AYNA həmin məntəqələri "tapmışdı" və fərqlənmə talonu verilmişdi. Amma təəssüflər olsun ki, bu prosesdə də tam uyğunluq olmamışdır. Belə ki, həmin fərdi talon əməkdaşımızın yaşadığı binanın həyətindəki bütün parklanma məntəqələrinə şamil olunmayıb. Yəni binanın divarı ilə arasında cəmi 2 metrlik məsafədə olan parklanma məntəqələri (qaydalarda 100 metr məsafə nəzərdə tutulur) "parkinq" üçün keçərli olmayıb. Beləliklə, minlərlə digər şikayətçi kimi bizim əməkdaşın problemi də hələ həllini tapmayıb…

Ən maraqlı məsələ isə odur ki, müzakirə mövzusu olan parklanma məntəqəsi həm də elə AYNA-nın inzibati binasının yerləşdiyi ərazidir. Təəssüf ki, AYNA özünün yerləşdiyi küçədəki çox kiçik problemi 3 aydır həll edə bilmir…

Bir anlaşılmaz məqam da odur ki, mövcud problemlərlə bağlı AYNA-ya ünvanlanan suallara qurum daim öz Əsasnaməsindən, müvafiq qaydaların mətnindən götürülmüş məlumatlarla "cavab" verir. Budəfəki araşdırma yazımızı hazırlayarkən də AYNA-ya bir neçə sualla müraciət etmişdik. Belə ki, parklanma prosesinə, sürücü-nəzarətçi təmasına agentlik tərəfindən nəzarətin necə həyata keçirildiyi, parkinq xidmətləri ilə əlaqədar vətəndaşların hansı meyarlar əsasında işə qəbul olunması, parkinq xidmət haqlarından nə qədər vəsaitin daxil olması və həmin vəsaitin hansı istiqamətlər üzrə xərclənməsi, vətəndaş müraciətlərinin, şikayətlərinin necə araşdırılması, prosesin monitorinqinin hansı qaydalarla aparılması, parklanma məntəqələrinin yerləşmə əraziləri ilə bağlı sistemdə olan yanlışlıqların, sistem xətalarının aradan qaldırılması ilə bağlı hansı işlərin görüldüyü və AYNA tərəfindən parklanma ilə bağlı hansı yeniliklərin, dəyişikliklərin planlaşdırıldığı suallarda öz əksini tapmışdı.

Lakin suallarımıza 2 həftə sonra AYNA-dan verilən cavablar çox təəssüf ki, başdansovdu oldu! Yenə də suallarımıza konkret cavablar verilməyib. Bəzi suallarımıza keçən dəfə olduğu kimi qayda və protokollardan çıxarışlar əsasında cavab verilsə də, bəzilərinə ümumiyyətlə cavab yoxdur. Yəqin həmin məsələlərlə bağlı Əsasnamə və qaydalarda heç bir məlumat yoxdur ki, cavabda əksini tapmayıb.

Paytaxt sakinlərində narahatlıq, narazılıq yaradan və müsbət həllini gözləyən digər vacib məsələlərin, mövcud problemlərin həll olunmaması onu göstərir ki, AYNA-nın öz fəaliyyətində keyfiyyət dəyişikliyi etməsinin zamanı çatıb. Vətəndaşlarla ünsiyyətdəki problemlər təəssüf ki, media ilə də eyni durumdadır. Jurnalist araşdırmasında göstərilən nöqsanlar və problemlər qayda və protokollardan çıxarışlara əsaslanaraq hazırlanan "cavab"la həll olunmur. Yaxşı olar ki, göstərilən problemlərin həlli istiqamətində ciddi addımlar atılsın. Belə olan halda vətəndaş da razı qalar, media da...

*Onu da əlavə edək ki, dövlət və Prezident tərəfindən AYNA-ya daim diqqət və qayğı göstərilir. Ötən həftə Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, agentliyin nizamnamə fondunun məbləği 5 642 390 manatdan 245 157 852 manata çatdırılıb. İnanmaq istərdik ki, nizamnamə fondu 44 dəfə artırılan AYNA Prezident qayğısından düzgün nəticə çıxararaq öz fəaliyyətində də heç olmasa irəliyə doğru 44 addım atacaq...*

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# COVID-19-un yeni ştamı sürətlə yayılır

Dünyanın COVID-19-la aktiv mübarizə aparmasına baxmayaraq, onun qarşısını tamamilə almaq hələ mümkün olmayıb. Son həftələrin statistik göstəricilərinə əsasən, bəzi ölkələrdə infeksiyaya yoluxanların sayında artım müşahidə edilib. Bu artım "Omikron"un mutasiya olunmuş yeni subvariantları hesabına baş verib.

Ümumdünya Səhiyyə Təşkilatı diqqəti müxtəlif ölkələrdə yüksək sürətlə yayılmağa başlayan koronavirusun yeni ştamı olan "JN.1"ə yönəldib. Yüksək yoluxduruculuğa malik subvarianta artıq 41 ölkədə rast gəlinib. O, immunitet sisteminin qoruyucu reaksiyasından daha effektiv şəkildə yayınması ilə digərlərindən fərqlənir.

### "JN.1" dominant varianta çevrilə bilər

Mütəxəssislər növbəti həftələrdə "JN.1"in dünyada COVID-19-un dominant variantına çevriləcəyini proqnozlaşdırırlar. Virus sürətlə yayılsa da, onun xəstəliyin daha ağır formalarına səbəb olmasına dair hələlik heç bir əsas yoxdur.

Artıq Danimarka, İspaniya, Belçika, Fransa və Hollandiya da daxil olmaqla bir sıra Avropa ölkəsində, habelə Avstraliya, ABŞ, Asiya və Kanada da xəstəxanaya edilən müraciətlərin sayında artım müşahidə olunur.

Yeni ştam ABŞ-də ilk dəfə sentyabrda aşkarlansa da, son iki həftədə iki dəfə çoxalıb. Ölkənin Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin məlumatına görə, ölkədə COVID-19-a gündəlik yoluxmanın təxminən 44 faizi yeni ştamın payına düşür. "JN.1" xüsusilə ABŞ-nin Nyu Cersi və Nyu York kimi şimal regionlarında daha sürətlə yayılır. Bu ərazilərdə ümumi infeksiya xəstəlikləri içərisində 67 faiz yeni ştama yoluxma qeydə alınıb.Yoluxmanın artmasına səbəb olaraq amerikalıların vaksinasiya aktivliyinin azalması göstərilir.

### Bayram günlərində diqqətli olmaq lazımdır

Yeni subvariantın "BA2.86"dan təkamül etdiyini söyləyən həkim-infeksionist Aişə Kərimova deyir ki, hər bir virusun hüceyrələrə yoluxmasına və müəyyən simptomlara səbəb olmasına imkan verən unikal zülallar mövcuddur: "Bu zülalların DNT-ardıcıllığında baş verən mutasiyalar virusun yeni variantlarının yaranmasına səbəb olur və variantlar bu dəyişikliklər səbəbi ilə fərqli simptomlara, eyni ilə fərqli müalicə yanaşmasına gətirib çıxarır. Yeni variant sələflərindən daha böyük bir genetik fərqlilik nümayiş etdirir ki, bu da virusun davam edən təkamülünü göstərir. "BA2.86"nın zülallarında 20, "JN.1"də isə 21 mutasiya qeydə alınıb. Bu mutasiya isə immun sisteminin virusdan yayınmasına mane olmaq gücünə sahibdir".

A.Kərimovanın sözlərinə görə, hazırda ölkəmizdə yeni ştam qeydə alınmayıb: "Hava sərhədlərinin açıq olması, turistlərin gəlişi ilə bağlı xəstəliyin yayılmasına dair təhlükəni nəzərə alıb xüsusilə diqqətli olmalıyıq. İnsanların çox toplaşma yerlərinə üz tutmamalı, sosial məsafə saxlamalı, şəxsi gigiyena qaydalarına əməl etməli, tibbi maskadan istifadə etməliyik. Xarici ölkələrə səfər zamanı diqqətli olmalıyıq. Xəstəlik əlamətləri olan şəxslərin özlərini təcrid etmələri tövsiyə olunur".

İnfeksionist bildirir ki, mütəxəssislərin məsləhətlərinə riayət edildiyi təqdirdə yoluxma sayında artım müşahidə edilməyəcək: "COVID-19-un yayılmasının qarşısını yalnız məsuliyyətimizi dərk edərək, üzərimizə düşən vəzifələri yerinə yetirərək ala bilərik. Vətəndaşlarımızın xarici ölkələrə səfəri ölkəmizdə də bir müddət sonra yeni yoluxmaların ola biləcəyi ehtimalını yaradır. Düzdür, ötən Yeni il zamanı xəstəliyin Avropada geniş vüsət aldığını nəzərə alaraq ölkəmizdə də epidemioloji vəziyyətin pisləşə biləcəyini düşünürdük, lakin bu, olmadı. Əgər özümüzü qorusaq, koronavirus bizə yaxın düşməz".

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***



# Doqquz qeyri-hökumət təşkilatının yaratdığı koalisiya İlham Əliyevin namizədliyini dəstəkləyib

Dekabrın 26-da "Bərabər inkişaf naminə" devizi ilə 9 qeyri-hökumət təşkilatının birləşərək təsis etdiyi koalisiya tərəfindən 500-dək müxtəlif sahələri təmsil edən ictimai xadimlər, elm və təhsil sahəsində çalışan, eləcə də qeyri-hökumət təşkilatları, özəl sektorun nümayəndələri olan qadınların iştirakı ilə Azərbaycan Qadınlarının Forumu keçirilib.

Koalisiyanın rəhbəri Gender və İqtisadiyyat İB-nin sədri Təranə Kərimova, üzvləri - "Zəfər" şəhid ailələrinə dəstək İB-nin sədri Sevinc Orucova, "Gender və İnsan Hüququ Araşdırmalar Birliyi"nin sədri Rəna Mirzəzadə, Gənc Demokratlar İnstitutunun sədri, politoloq Yeganə Hacıyeva, "Ekoloji Maarifçilik və Monitorinq" İB-nin sədri Qəmzə Yusubova, "Kamillik" Cəmiyyətinin sədri Əsmətxanım Məmmədova, "Azərbaycan Türkiyə Sosial Tərəqqiyə Yardım" İB-nin sədri Nigar Helmi, "Sağlamlığın Qorunması" İB-nin sədri Yazgül Abdıyeva, "Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək" İB-nin təsisçisi Aygün Səmədovadır.

AZƏRTAC xəbər verir ki, forumda koalisiyanı təmsil edən qeyri-hökumət təşkilatlarının rəhbərləri, ictimai xadimlər, həmçinin bolqar, avar, rus və talış etnik qruplarının nümayəndələri çıxışlarında Azərbaycan xalqının müxtəlif təbəqələrinin nümayəndələrinin, ictimai-siyasi, sosial-mədəni həyatda yaxından iştirak edən qadınların bugünkü reallıqlar fonunda ölkəmizin inkişafı yolunda əllərindən gələni əsirgəmədiklərini bildiriblər.

Çıxışçılar Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın və onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə hər bir sahədə əldə edilən uğurlara diqqət çəkiblər. Onlar fevralın 7-də keçiriləcək prezident seçkilərində ölkəmizin davamlı inkişafı, xalqımızın firavanlığı naminə hüquqlarımızı daim müdafiə edən Yeni Azərbaycan Partiyasının yeganə namizədini dəstəklədiklərini ifadə ediblər.

Qeyd edilib ki, "Bərabər İnkişaf Naminə" devizi ilə 9 qeyri-hökumət təşkilatının birləşərək təsis etdiyi koalisiya qadınlarımızı vahid məqsəd ətrafında bir araya gətirib. Koalisiyanın fəaliyyətinin ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında rolunun əhəmiyyətli dərəcədə yüksəlməsinə, onların daha nizamlı və mütəşəkkil fəaliyyətinə təkan verəcəyinə inam ifadə olunub.

Sonda "Bərabər İnkişaf Naminə" Azərbaycan Qadınlarının Forumunun Bəyannaməsi qəbul edilib.

Sənəddə işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış prosesi çərçivəsində vətəndaş cəmiyyətinin iştirakının təmin edilməsi, qərar qəbuletmə və özəl sektorda, o cümlədən yerli ərazi və özünüidarəetmə orqanlarında gender bərabərliyinin təşviqində vətəndaş cəmiyyətinin iştirakının gücləndirilməsi, qadınların iqtisadi fəallığının artırılması, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsi, innovativ inkişafı təmin edən yeni texnologiyalara əlçatanlığın artırılması, xüsusilə qızlar və qadınların bu prosesə daha geniş cəlb olunması kimi məsələlər öz əksini tapıb.

Eyni zamanda "Bərabər İnkişaf Naminə" Forumda Azərbaycan qadınlarının təmsilçiləri seçki hüququ olan vətəndaşlarımızı, ölkəmizin bütün ərazisində keçiriləcək prezident seçkilərində fəal iştiraka, xüsusilə qadınları və gənc qızları bu taleyüklü siyasi prosesin önündə gedərək vətəndaş məsuliyyəti nümayiş etdirməyə çağırıblar.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Beynəlxalq simpoziumda qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi məsələsi qaldırılıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Türkiyə Böyük Millət Məclisi və Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu tərəfindən Ankarada keçirilən "Deportasiya və onun cəmiyyətə, xüsusən qadınlara psixoloji təsirləri" mövzusunda beynəlxalq simpoziumda iştirak edib.



Bu barədə AZƏRTAC-a Ombudsman Aparatının Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, tədbirdə təqdimatla çıxışı zamanı ombudsman tarixin müxtəlif mərhələlərində Ermənistanda yaşayan azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə siyasəti, həmin ərazilərdə azərbaycanlılara məxsus tarixi-mədəni irsin məhv edilməsi, qəbiristanlıqların dağıdılması, ermənilərin həmin bölgələrdə məskunlaşdırılması və yer adlarının dəyişdirilməsi kimi faktlar barədə ətraflı məlumat verib. Eyni zamanda Azərbaycan türklərinin doğma torpaqlarından deportasiya edilməsindən 75 il ötməsinə baxmayaraq, Ermənistanda bu günədək Azərbaycana qarşı nifrət siyasəti və dözümsüz münasibətin dəstəkləndiyi qeyd olunub.

Ombudsman bildirib ki, Ermənistan müxtəlif dövrlərdə Azərbaycan türklərinə qarşı etnik təmizləmə, deportasiya, soyqırımı siyasəti həyata keçirmiş, yüz minlərlə dinc sakini qətlə yetirmiş, türksüz Ermənistan ideologiyasını gerçəkləşdirmək üçün ardıcıl addımlar atmışdır. Qadınlar və uşaqların da bu siyasətin ciddi təsirlərinə məruz qaldığını qeyd edən S.Əliyeva Ermənistanın bu cinayətlərinin məhz etnik nifrətə əsaslandığını bildirərək ombudsman təsisatı tərəfindən azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqinə dair iki hesabatın hazırlanaraq aidiyyəti beynəlxalq təşkilatlara ünvanlandığını diqqətə çatdırıb.

Azərbaycan ombudsmanı 44 günlük Vətən müharibəsi və bu il sentyabr ayında həyata keçirilmiş antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün bərpa olunduğunu, həmin ərazilərin separatçı terror qruplaşmalarından təmizləndiyini, məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı üçün şərait yarandığını bildirib.

Bununla yanaşı, Türkiyənin müharibə və postmüharibə dövründə xalqımıza mənəvi dəstəyinin əhəmiyyətinə toxunan S.Əliyeva Türkiyə Respublikası Baş Ombudsmanının Ermənistan tərəfindən mülki əhalinin hədəfə alındığı bölgələrimizdə, habelə işğal dövründə dağıdılmış ərazilərimizdə faktaraşdırıcı missiyalar həyata keçirdiyini xatırladıb.

Ombudsman insan hüquq və azadlıqlarının kütləvi və kobud şəkildə pozulmasına səbəb olan bu kimi cinayətlərə qarşı beynəlxalq təşkilatlar tərəfindən laqeyd münasibət göstərilməsi və ikili standartlarla yanaşılmasının sülh quruculuğuna mane olduğunu, cəzasızlıq mühitinin bu cür halların yenidən təkrarlanmasına gətirib çıxardığını diqqətə çatdırıb.

Yekunda S.Əliyeva deportasiyaya məruz qalmış həmin soydaşlarımızın öz yurdlarına geri qayıtmasının təmini üçün Ermənistan tərəfinin şərait yaratmalı olduğunu və onlara dəymiş zərərlə bağlı təzminat ödənilməli olduğunu bildirib.

Tədbir zamanı həmçinin azərbaycanlılara qarşı nifrət siyasətinə dair Ombudsman Aparatı tərəfindən hazırlanmış videoçarx nümayiş etdirilib.

# Bakı qışa hazırdırmı?!





Qarşıdakı günlərin hava proqnozu paytaxtda qar yağacağını göstərməsə də, dekabrın 22-si saat 07:27 etibarilə Azərbaycana qış fəslinin daxil olması şaxtalı, qarlı havalara hazırlıq tələb edir.

Yeni il ərəfəsində olmasa da, qarşıdakı həftələrdə qış öz boranı-qarı ilə özünü göstərə bilər. Qarlı hava şəhərimizi ağ örpəyə bürüsə də, bilirik ki, belə havanın şaxtası, gecədən yolların buz bağlaması həm avtomobil sürücülərini, həm də piyadaların hərəkətini çətinləşdirir. Bu çətinliklərin, problemlərin qarşısının alınması üçün isə hər il paytaxtda qışa hazırlığın vəziyyəti ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin tapşırığına əsasən, şəhərin rayonlarında kommunal, təsərrüfat xidmətlərinin, idarə və təşkilatların, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilir. Müşavirələrin əsas məqsədi rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığın vəziyyətinin araşdırılmasıdır.

Qarlı havada yolumuzu açan texnikaların qışa necə hazır olduğunu görmək üçün qartəmizləyən maşınların yığıldığı əraziyə yollandıq. Ərazidə bu texnikaların toplanması ilə yanaşı, tonlarla duzun qış üçün tədarük edildiyini gördük.





## Qarlı havalar üçün 60-dan çox xüsusi texnika ayrılıb, 8500 ton duz ehtiyatı yığılıb

Texnikalara baxış zamanı Bakı Şəhər İcra Hakimiyyəti Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təchizat İdarəsinin rəisi Mübariz Hüseynovla həmsöhbət olduq.

İdarə rəisi qeyd edir ki, qışa hazırlıqla əlaqədar sentyabr ayından işlərə başlanılır, duzsəpən və qartəmizləyən maşınlar texniki baxışdan keçirilərək hazır vəziyyətə gətirilir. İndi isə qış fəslinin daxil olması, havanın soyuması ilə bağlı növbəlilik prinsipi əsasında 24 saatlıq iş rejiminə keçilib: "Şəhərin müəyyən nöqtələrində dislokasiyalar hazırlanır, əgər qarlı, şaxtalı hava şəraiti olarsa, həmin yerlərdə duz anbarları yaradılacaq".

M.Hüseynov deyir ki, hava proqnozlarına əsasən, həmin texnikalar axşamdan paytaxtın müəyyən olunmuş ərazilərində yerlərini tuturlar: "Əgər qar yağarsa, gecədən yollar buz bağlayarsa, duzsəpən və qarkürəyən maşınlar gecə saat 3-dən işə başlayacaqlar. Bu da səhər saatlarında sakinlərin rahat hərəkətinin təmin olunması və nəqliyyatın hərəkətinin intensivliyinin pozulmaması üçündür. Eyni zamanda belə havalarda Bakının rayonlarında təyinatı üzrə cavabdeh şəxslər təyin olunurlar ki, onlar Bakı Şəhər İcra Hakimiyyətində 24 saat fəaliyyət göstərən qərargahla əlaqə yaradaraq hansı ərazidə daha çox duza, texnikaya ehtiyac olduğu barədə məlumat verirlər. Qar az olan yerlərə yalnız duz səpilir, yox, əgər qar çox olarsa, o zaman əvvəlcə yol qardan təmizlənir, daha sonra duz səpilir".

Müsahibimiz bildirir ki, hazırda ehtiyatda 8500 ton texniki duz və 60-dan çox xüsusitəyinatlı maşın və mexanizmlər var.

## Görülən hazırlıqlar qabaqlayıcı tədbirlərin görülməsinə imkan verir

Əvvəllər yolların qardan və buzdan təmizlənməsində qumdan istifadə olunurdusa, indi bu, əlverişli hesab olunmur. Çünki qum qartəmizləyən texnikalara ciddi ziyan vurur.

Son günlərdə ölkənin dağ rayonlarına əvvəlki illərlə müqayisədə daha çox qar yağması qarşıda paytaxt sakinlərini də qarlı, şaxtalı havanın gözlədiyindən xəbər verir. Bu baxımdan Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirələrin mühüm əhəmiyyəti var. Çünki bu zaman verilən tapşırıqlar qabaqlayıcı tədbirlərin görülməsinə imkan verir ki, nəticədə gecə pambıq kimi küçə və səkilərə səpilən qarın səhər saatlarında buz meydançasına çevrilməsinin qarşısı alınsa, məktəbə, işə tələsənlərin kabusuna çevrilməsin.

Müşavirələrdə aidiyyəti təşkilatların rəhbərlərinə həmin günlərdə üzərlərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirilməsi, paytaxtın rayon icra hakimiyyətlərində qışa hazırlıqla bağlı yaradılan qərargahların fəaliyyəti, kommunal və təsərrüfat xidmətlərinin hazırlıqları, qarın təmizlənməsi üçün lazımi qədər alətin, inventarın (bel, kürək, ling və s.) toplanması, duz ehtiyatının yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması ilə bağlı tapşırıqlar verilir.

Eyni zamanda rayonlardakı idarə, təşkilat və özəl qurumların, bələdiyyələrin, o cümlədən ictimai iaşə müəssisələrinin rəhbərlərinə, ictimaiyyət nümayəndələrinə qarlı günlərdə Avropa ölkələrində də qəbul edilən qaydalara uyğun özlərinə aid ərazilərin qardan təmizlənməsində fəal olmağa çağırış edilir.

Vaxtında görülmüş tədbirlər isə bizi qışın şıltaqlıqlarından qoruya bilər.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV( foto),*
*"Azərbaycan"*

# "Yaşıl dünya naminə həmrəylik ili" haqqında sərəncam dayanıqlı ətraf mühitin yaradılmasına yönəlmiş iddialı ekoloji məqsədlər qoyur

"Azərbaycan Prezidenti İlham Əliyev qlobal ekoloji problemlərin həlli üçün ictimai səfərbərliyin vacibliyini vurğulayaraq 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı strateji qərar qəbul edib.

Bu qərarın qəbulu ölkənin qlobal ekoloji müzakirələrdə və iqlim dəyişikliyi ilə mübarizə səylərində fəal iştirak etməyə hazır olduğunu və sadiqliyini nümayiş etdirir. Ümumiyyətlə, Azərbaycan Respublikası Prezidentinin "Yaşıl dünya naminə həmrəylik ili" haqqında Sərəncamı ölkə qarşısında indiki və gələcək nəsillər üçün daha sağlam və dayanıqlı ətraf mühitin yaradılmasına yönəlmiş iddialı ekoloji məqsədlər qoyur".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında beynəlxalq əlaqələr üzrə ekspert Masil Dəmirov söyləyib.

Onun sözlərinə görə, siyasi kontekstdə bu qərar təkcə Azərbaycanın ekoloji məsuliyyətini deyil, həm də qlobal problemlərin həllində əsas rol oynamağa hazır olduğunu vurğulayır, ölkəmizin ekoliderlik yüksəlişinə doğru olduğunu göstərir. Prezident sərəncamında ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayaraq, ölkənin iqlim dəyişikliyi ilə mübarizə sahəsində qlobal səylərdə fəal rol oynamağa hazır olduğunu vurğulayıb. Bu addım Azərbaycanın ekologiya və davamlı inkişaf məsələlərində dünya birliyində məsuliyyətli iştirakçı rolunu qəbul etdiyini nümayiş etdirir. Siyasi reallıqlara Azərbaycanın dünya miqyasında yerini möhkəmləndirmək, dünya ictimaiyyətinin diqqətini onun təşəbbüslərinə cəlb etmək və davamlı inkişaf kontekstində ölkə haqqında əlverişli imici yaratmaq istəyi daxildir. Bu, həm də ölkənin və vətəndaşların gələcəyinə qayğının gücləndirilməsində əlavə ciddi təkan ola bilər.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektor əvəzi Vazeh Əskərova atası

**ELDƏNİZ ƏSKƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektor əvəzi Vazeh Əskərova atası

**ELDƏNİZ ƏSKƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5270**
**Sifariş 3418**

**Qiyməti 40 qəpik**